# BAYRAMINIZ MÜBARƏK!

Bu bir xalq qəzetidi

ƏDALƏT

## Azərbaycan Fransaya nota verdi

**28 dekabr 2022-ci il tarixində Fransa Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Ann Buayon Xarici İşlər Nazirliyinə çağırılıb və Fransanın Avropa və Xarici İşlər Nazirliyinə ünvanlanmış etiraz notası qarşı tərəfə təqdim olunub.**

XİN-dən Adalet.az-a verilən məlumata görə, görüş zamanı, Fransa hökumətinin zəruri cavab reaksiyasının olmaması fonunda Fransanın müxtəlif siyasi qüvvələri tərəfindən Azərbaycana qarşı açıq böhtan və qərəz əsasında qurulmuş kampaniyanın genişlənərək davam etməsindən dərin narahatlıq ifadə olunub və məktubda əks olunmuş iddialar qətiyyətlə rədd edilib. Bu çərçivədə, bir neçə gün əvvəl Fransa parlamentində təmsil olunan siyasi qüvvələrin rəhbərləri adından Fransa prezidentinə ünvanlanmış məktubda Azərbaycana qarşı əsassız ittihamlar səsləndirilməsinin, ölkəmizin suverenliyi və ərazi bütövlüyünə qəsd mahiyyətində addımlar atılmasına çağırış edilməsinin qəbuledilməz olduğu bildirilib. Sözügedən məktubun Fransa Parlamentinin hər iki palatasının Azərbaycana qarşı əsassız ittihamlarla dolu qətnamələrinin qəbul edilməsinin də daxil olduğu, məqsədyönlü və sistemli şəkildə həyata keçirilən silsilə xarakterli anti-Azərbaycan tədbirləri və bəyanatlarının davamı olduğu vurğulanıb.

Azərbaycan tərəfi Fransa hökuməti tərəfindən Azərbaycana qarşı aparılan kampaniyanın dərhal dayandırılması məqsədilə müvafiq tədbirlərin görülməsinin zəruri olduğunu diqqətə çatdırıb.

## GÖRƏN, HÖKUMƏT BAŞINI TAPDI?



**Ötən sayımızda yazmışdım ki, deyəsən, hökumət başını itirib. Əvvəl, Səhiyyə Nazirliyindən xəstəxanaları alıb verdi TƏBİB-ə, indi də TƏBİB-dən alıb qaytarır Səhiyyə Nazirliyinə. Bu islahatdı?**

İndi görən, hökumət başını tapa bildi? Səhiyyəmizi düzəltmək əvəzinə bir neçə yerə bölüb pay-püruş edirlər.

## Peskov: "Qarabağa beynəlxalq qüvvələri cəlb etmək üçün Azərbaycanın razılığı lazımdır"

**”Qarabağda müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlılarına BMT mandatı vermək, eləcə də həmin ərazilərə beynəlxalq qüvvələri cəlb etmək üçün Azərbaycanın razılığı lazımdır”.**

Bunu Kremlin mətbuat katibi Dmitri Peskov Ermənistan baş naziri Nikol Paşinyanın Qarabağa beynəlxalq sülhməramlıların göndərilməsinə dair ideyasına münasibət bildirərkən deyib. ”Ermənistan bizim ən yaxın müttəfiqlərimizdən biridir, Azərbaycan bizim dəyərli və qiymətli tərəfdaşımızdır. Rusiya Federasiyası isə ilk növbədə üçtərəfli əsasda əldə olunmuş razılaşmaları yerinə yetirərək vasitəçilik səylərini davam etdirir və davam etdirəcək”.

## Süleyman Neymətov Naxçıvanın daxili işlər naziri təyin edilib



**Süleyman Əsgər oğlu Neymətov Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri təyin edilib.**

Adalet.az xəbər verir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov dekabrın 28-də bununla bağlı sərəncam imzalayıb.

Təbrik edirik!

Qeyd edək ki, polis polkovniki Süleyman Neymətov bu təyinatadək Bakının Suraxanı Rayon Polis İdarəsinin rəisi vəzifəsində xidmət edirdi.

## İÇİ BOŞ NAĞARASAN, SARIYIB-SIRIYIBLAR DAHA BƏRK ÇIĞIRASAN!

Əhməd Elbrusun şeirindən bir parçadı. İndi rus kanallarına baxıram, yadıma bu misralar düşür. Hər gün bir neçə kanalda Rusiya-Ukrayna müharibəsi ilə bağlı canlı proqramlar verirlər. Tanınmış ekspertlər çıxış edir, hər verilişdə də ən azı bir erməni mütləq var. Son zamanlar daha bərkdən və hədələyici çıxışlar edirlər. Özü də təkcə Ukraynanı yox, bütün dünyanı hədələyirlər. Deyəsən, bərk qorxurlar, ona görə də səsləri bərkdən çıxır, içi boş nağara kimi.

## BU DƏFƏ DƏ DƏRVİŞ YOX, PKK PARİJİ PARTLADIR

**ABŞ-ın, Fransanın, Rusiyanın birgə layihəsi olan, silahlandırdıqları və Türkiyəyə qarşı istifadə etdikləri PKK indi Fransanın başına əngəl olub. Neçə gündür ki, Parijin küçələrini dağıdır, maşınlara od vurur, bir sözlə, gözəlim Pariji Makronun xanımının gününə salırlar. Çatışmalarda 40-a yaxın jandarm yaralanıb.**

**- Parij dağılır, kral qaçıb, Parijdə inqilab olub.**

Müsyö Jordan ağlayır, Hatəmxan ağanın qohumu da inqilab sözünü eşidib sevinir:

**- Ura! Parijdə inqilab olub. Gedək, mən də gedirəm.**

Təbii ki, baş verən hadisələr inqilab deyil və Makron da heç hara qaçası deyil. PKK-ya bir az dədəboyu verib, sonra da o yandırdıqları maşınların da, dağıtdıqları küçələrin də hamısının heyifini bircə-bircə çıxacaq.

Və bu, Fransanın PKK-ya sevgisini azalda bilməz. Məsələ məlum olduğu üçün üstü basdırılsın.

Keçmiş Fransa ilə indiki Fransanın fərqi nədir? Keçmiş Fransa Şahbaz bəyi aparıb oxutdurmaq istəyirdi, alim etmək istəyirdi, adam etmək istəyirdi. Və ötən əsrin əvvəlində nə qədər azərbaycanlı təhsil almaq, elm öyrənmək üçün gözəlim Fransaya üz tutmuşdu. Hamısı da Azərbaycanın say-seçmə oğulları.

İndiki Fransa əli qələm tutan azərbaycanlılara sinəsini açıb. Onları yığıb Fransaya şərait yaradır, yox, bu dəfə onlara təhsil vermək fikrində deyil, onlardan alim hazırlamaq fikrində deyil, onlardan çiçəyi burnunda olan Azərbaycan dövlətinə və dövlətçiliyinə qarşı istifadə eləmək, ölkəmizdə aranı qarışdırmaq, din, məzhəb və etnik münasibətləri qızışdırmaq məqsədi güdür.

Bir sözlə, ermənilərdən betər erməniçilik edir. Deyəsən, bu bacılar ərsiz qalıb. Ərsiz arvad da yüyənsiz at kimidi. Allah bunlara bir ər yetirsəydi bir az rahatlaşardılar.

**Həsənqulu, gör neyləyirsən.**

Bu bir xalq qəzetidi

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 56 (5993) 31 dekabr 2022-ci il | Qiyməti 30 qəpik

## DARIXMAYIN, RUSİYANIN OLMAYAN BƏRƏKƏTİNƏ ELƏ ERMƏNİLƏR OTURACAQ



**15 gündür ki, yüzlərlə azərbaycanlı gənc, yaşlı, qadın Laçın-Xankəndi yolunda ekoloji terrora qarşı etiraz aksiyası keçirir. Soyuq nədi bilmirlər, qar nədi bilmirlər, aclıq nədi bilmirlər. Azərbaycanın haqlarını tələb edirlər. Amma Rusiya mətbuatı dilini qoyub dinməz yerinə, bu barədə susur. Və ya həqiqətləri demir, əksinə, dünyaya feyk xəbərlər yayırlar ki, guya Laçın yolunu bağlamışıq.**

İndi Vardanyan Xankəndində bir mitinq keçirib, rus televiziyaları, rus mətbuatı susmur. Darıxmayın, SSRİ-nin dağılması Qarabağdan başladı. İnşallah, deyəsən Rusiyanın dağılması da elə Qarabağdan başlayacaq.

Ruslar daha klassiklərini oxumurlar, Puşkini unudublar: "Sən qorxaqsan, sən qulsan, sən ermənisən...".

Kürsəyə gələn itlər kimi erməni qancıqlarını yığıblar başlarına. Hansı kanalı açırsan erməni ekspertlər və onlara ağ verən rus kərtənkələlər - solovyovlar, zatulinlər və sair və ilaxır.

Görəcəksiz, ermənilərə "stavka" edən ruslar Ukraynasız da qalacaq, Qafqazsız da, Orta Asiyasız da, Sibirsiz də.

# İlham Əliyev: "Qərbi Azərbaycan bizim tarixi torpaqlarımızdır"



Bax:səh-2

## "Media Menecmenti" təlim proqramının ikinci modulu keçirildi

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə 3 moduldan ibarət olan ”Media Menecmenti” təlim proqramının ikinci modulu keçirilib.**

Adalet.az xəbər verir ki, ”Onlayn media menecmenti” mövzusunda keçirilən ikinci modulda Litvanın Baş nazirinin mədəniyyət üzrə ictimai müşaviri, inkişaf və innovasiyaya verdiyi töhfəyə görə iki dəfə regionun ən yaxşı marketinq direktorlarından biri seçilmiş Ornela Ramasauskaite çıxış edib.

O, iştirakçılara ”Onlayn media subyektlərinin idarə olunması: ənənəvi və müasir dövrdə üsullar və alətlər”, ”Qlobal rəqəmsal tendensiyalar və proqnozlar”, ”Funksional və istifadəçi mərkəzli platformanın inkişafı, reklamların cəlb olunması”, ”Rəqəmsal trendlər” və s. kimi mövzularda təlim keçib, qeyd olunan istiqamətlərdə geniş fikir mübadiləsi aparılıb.

Dekabrın 29-na qədər 60-dan çox media menecerinin iştirakı ilə davam edəcək ”Media Menecmenti” təlim proqramının əsas məqsədi ənənəvi və rəqəmsal media ilə işləyərək daha keyfiyyətli məzmunun yaradılmasına, jurnalistika sahəsində yaranan yeni imkanların və mediada yeni tendensiyaların öyrənilməsinə, rəqəmsal media sahəsində peşəkar vərdişlərin inkişaf etdirilməsinə töhfə verilməsidir.

## HƏSƏN ŞİRİNOV 2 MİLYON DOLLARINI ALA BİLƏCƏK?!

**Mətbuatdan oxudum ki, milyonerlər məhəlləsində (Məmməd Araz küçəsi) general-mayor Həsən Şirinova məxsus 4 milyonluq villanı Vasif Talıbov yarızor, yarıxoş 2 milyona sahibindən alıb. Səbəb də o imiş ki, Həsən Şirinovun villasının pəncərələrindən Vasif müəllimin həyəti görünürmüş.**

Görəsən, Həsən müəllim qalan 2 milyonunu Vasif Talıbovdan ala biləcəkmi, yoxsa 2 milyonunu qaytarıb villasını istəyəcək?

## VASİF TALIBOVUN TUNELİ



**Mətbuatda oxudum ki, Naxçıvan Ali Məclisinin sabiq sədri Vasif Talıbov Naxçıvandakı villasından İrana tunel qazdırıbmış. Bu məlumat nə qədər doğrudur, deyə bilmərəm.**

Yadıma Daneliyanın məşhur ”Tövbə” filmi düşdü. Orda həbs olunanlardan biri dustaq yoldaşına deyir, istintaqa ifadə vermişəm ki, biz Dehlidən Londona tunel qazırdıq.

**- Niyə Dehlidən Londona?**

**- Dedim ki, yol çox uzun olsun. İndi o tunel qazanların hamısını tapmayanadək bizi güllələməyəcəklər.**

Vasif Talıbovun qazdırdığı tunel çox qısadı. Uzağı 5-7 kilometr olar, yəni qazanları tapmaq çox asandı.

Aqil ABBAS
aqilabbas@rambler.ru



## "MƏRKƏZİ TELEVİZİYA" ELƏ VARDANYAN AĞILDADI

*Məşhur yazıçı, yumor ustası İvanovun Sovet hökuməti zamanı belə bir ifadəsi vardı: "Mərkəzi Televiziyanın sifarişi ilə Cənubi Afrikada yeni bir respublika yaradılmışdır...".*

*İndi Mərkəzi Televiziyanın sifarişi ilə Vardanyan gəlib Qarabağa, İvanovun dediyi kimi, respublika yaratmağa. Qan-qan deyir.*

*Bu adam elə bilir ki, 1988-ci ildir və elə bilir ki, Azərbaycan 1988-ci ildəki respublikadır: SSRİ-nin bir parçası, dövləti yox, ordusu yox, silahı yox, sursatı yox, büdcəsi də 2,7 milyard manat, qısası, dünyanın da xəbəri olmayan 5 milyonluq bir ölkə.*

*88-ci ildə ordusu, silah-sursatı olmayan bir xalq yalın əllə Qarabağın yarısını azad eləmişdi. Sonra 366-cı rus batalyonu və Pskov desant diviziyası - tanklarla, toplarla, qradlarla silahlanmış rus ordusu torpaqlarımızı işğal elədi. Mejduproçim, həmin 366-cı batalyonun ağzını Ukraynada cırdılar, tamamilə darmadağın oldu.*

Bax:səh-2

## MƏSCİDİN QAPISI AÇILMAMIŞ KOR ƏSASINI DİRƏDİ



**Naxçıvanda heç bir siyasi partiya fəaliyyət göstərə bilmirdi. Bircə Xalq Cəbhəsi vardı, onun da qaçanı qaçmışdı, qaçmayana da həbsxanalarda "ofis" vermişdilər.**

Oxudum ki, partiya liderlərindən biri deyib ki, siyasi partiyaların Naxçıvanda fəaliyyət göstərməsi üçün şərait yaradılmalıdır. Fikirləşin, əhalisi Gəncə şəhərindən, hətta Sumqayıt şəhərindən az olan Naxçıvanda 50-dən çox partiya fəaliyyətə başlayır və hamısı da ofislə təmin olunub. Naxçıvanın gəlhagəl günləri başlayır.

## "Bu maaşla dərs deyən müəllimlər Milli Qəhrəmandır"

**"Təhsil haqqında nə qədər qanun qəbul olunsa da, bu sahədəki vəziyyətdən hamımız xəbərdarıq".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin plenar iclasında deputat Aqil Abbas deyib. Onun sözlərinə görə, qanun qəbul etməklə təhsili düzəltmək olmaz: "Mənim ibtidai sinifdə oxuyan nəvələrim var ki, onların çantalarını mən götürə bilmirəm. O çantaları götürməkdən sonda uşaqlar "ştangist" olacaqlar. Kitabları daha nəfis formada işləmək olar".

A.Abbas deyib ki, müəllimlərin üstünə çox düşürük: "Bu maaşla bizim ərköyün balalara dərs keçən müəllimlər Milli Qəhrəmandır. Bu yaxınlarda 30 ilin müəllimi uşağa bir şillə vurduğuna görə məktəbdən qovdular. Mən şiddətə qarşıyam, amma belə də olmaz axı. Müəllimləri belə ucuzlaşdırmaq olmaz.

Valideynlər elə bilir, müəllimlər onların quludur, nə istəsələr edə bilərlər, hücum edirlər məkətblərə. Əvvəllər nadinclik edən tələbələri məktəbdən qovub, bir xüsusi məktəbə yığardılar. Onlar orda elə tərbiyə alırdılar ki, oradan alimlər, polkovniklər çıxırdı. İndi isə tələbələr müəllimin başına çıxır. Şagirdin əlindəki telefonun qiyməti müəllimin 5-6 aylıq maaşından artıqdır".

İradə TUNCAY
iradetuncay@rambler.ru

## FAİQ – üstün, əla, seçmə



**İnsanın öz ovqatını səsi ilə ifadə etmək istəyi zamanla sənətin yaranmağına səbəb olub güman ki... Və inkişaf zamanla vokal sənətin yaranmasına gətirib. Nitq nəğməyə, musiqiyə qarışanda relyefi genişlənir. Sözlərin təsir vasitəsi güclənir. Belə fikir var ki, müasir nitqin yaranmasına melodiyalar rəvac verib. Çünki beyin nəğmə sözlərini daha rahatlıqla həzm edə bilir və bu da folklor janrlarının, xalq yaradıcılığının musiqi ilə bağlı, yanaşı gəlməyinin səbəbini izah edir. Yəni burda yalnız əyləncə elementi deyil vacib olan, həm də informasiyanın gələcəyə ötürülməsidir. Mahnı, nəğmə yaddaşa yardım edir.**

Belə düşünək - fauna üzvlərinin səsi olmasa ətrafımız necə boşluqda qalar?! Quşların civiltisi, ötməsi olmasa orqanizm, onun ayrı-ayrı hissələri hansı ladlara köklənər? Oxumaq, yəni musiqi ifası insan ruhunda rahatlıq yaradan bir nəsnədir. Yalnız rahatlıq yox... Toxluq yaradan... Yəni bizim - insan adlanan canlıların ehtiyacımız var musiqiyə, sözə, MAHNIYA!!! Aclığımız var...

Bax:səh-3

## MAHİR ƏMRƏLİ BİR YERDƏ TİKİŞ TUTA BİLMİR

Azərbaycanlı futbolçuların xarici klublarda oynamasına çox sevinirəm. O cümlədən də Mahir Əmrəlinin Polşaya getməsinə hamıdan çox mən sevinmişdim.

Məlum hadisəyə görə, Polşa klubundan ayrıldı, gəldi ”Dinamo” Zaqrebə. İndi oxuyuram ki, ”Dinamo” Zaqrebdə də duruş gətirə bilməyib gəlir Türkiyəyə - ”Antalyaspor”a. Görək burda nə qədər davam gətirəcək? Deyəsən, əvvəl-axır ”Qarabağ”a qayıdacaq.



## İlin sitatı



*Vəli Xramçaylı: ”Ayə vallah mən başa düşmürəm, bu insanlar niyə yeni ili səbirsizliklə gözləyirlər? Yolkanı hər gün qurub, hər gün də yeyib-içib araq vurmaq olar dana...*

## GÖRƏN, ERMƏNİLƏR VOLKOVU TAPDILAR?

**Bir qrup erməni Xankəndindən Şuşaya yürüş ediblər, Laçın yolunun bağlanmasına etiraz əlaməti olaraq Volkovu axtarıbmışlar. Volkovun yerini bilmirlərsə deyək, Xankəndində hansısa Haykanuşun qucağındadı.**

## İlham Əliyev Bakıda Mərkəzi Parkın ikinci hissəsinin açılışında iştirak edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 30-da Bakıda Mərkəzi Parkın ikinci hissəsinin açılışında iştirak edib.**

Adalet.az xəbər verir ki, dövlətimizin başçısına Bakının Yasamal rayonu ərazisində yerləşən parkda görülən işlər barədə məlumat verilib.

Bildirilib ki, paytaxtın keçmiş "Sovetski" adlanan ərazisində yol-nəqliyyat infrastrukturunun yenidən qurulması və abadlıq işlərinə 2013-cü ilin noyabr ayında başlanılıb. Avstriyalı memar Yans Hoffmanın layihələndirdiyi Mərkəzi Parkın salınmasında məqsəd Bakının simasını daha da gözəlləşdirmək, paytaxt sakinlərinin və turistlərin mədəni istirahətini müasir xidmətlərə uyğun təşkil etməkdir. Layihənin ən mühüm xüsusiyyətlərindən biri İsmayıl bəy Qutqaşınlı küçəsindən Mərkəzi Banka qədər olan ərazidə piyadalara yol keçmədən maneəsiz hərəkət imkanlarının yaradılmasıdır. Orijinal layihəyə əsasən, ərazi yüksək səviyyədə abadlaşdırılıb, müasir tələblərə uyğun yeni infrastruktur yaradılıb, piyada keçidləri, yol qovşaqları inşa edilib və digər kommunikasiya xətləri çəkilib, şəhər sakinləri və qonaqların səmərəli istirahəti üçün paytaxta xüsusi yaraşıq verən park salınıb. Təzəpir məscidinin qarşısındakı yeni bağın və Füzuli küçəsi boyunca salınan Mərkəzi Parkın birinci hissəsi 2019-cu il mayın 22-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə istifadəyə verilib.

Növbəti mərhələdə isə Mərkəzi Parkın ikinci hissəsində müasir yol-nəqliyyat infrastrukturunun yaradılması, kommunikasiya xətlərinin yenidən qurulması, şəhər sakinləri və qonaqlar üçün istirahət parkının salınması istiqamətində işlər davam etdirilib. Layihəyə əsasən, Mirzəağa Əliyev və Bəşir Səfəroğlu küçələrinin arasında yerləşən parkın yeni hissəsinin qurulması üçün 6,4 hektar ərazi təmizlənərək abadlaşdırılıb, ən müasir infrastruktur və kommunikasiyalar çəkilib. Aparılan abadlıq və yenidənqurma işləri çərçivəsində ərazidəki torpaq səthi dəyişdirilib, yaşıllaşdırmanın keyfiyyətini və landşaft dizaynını daha da yaxşılaşdırmaq üçün 57 min 500 kubmetrdən çox münbit torpaq gətirilib. Həmçinin yaşıllaşdırma işləri ərazinin iqlim şəraiti, florası və ətraf mühiti nəzərə alınmaqla aparılıb.

Parkın ərazisinin 4 hektarında 19 növdə 2764 ağac, 20 mindən çox gül və kol bitkiləri əkilib. Yeni salınan yaşıllıqları suvarmaq üçün müasir tələblərə uyğun damcılama və çiləyici qurğular quraşdırılıb, drenaj xətləri çəkilib. Eyni zamanda, istirahət parkının ərazisində müasir işıqlandırma sistemi və infrastrukturun bir mərkəzdən idarə olunması üçün təhlükəsizlik kameraları quraşdırılıb. Diqqətə çatdırılıb ki, burada iki istirahət və oyun meydançası da salınıb. Meydançalar hər yaş qrupunda olan insanların istirahəti üçün nəzərdə tutulub. Həmçinin parkda söhbətgahlar quraşdırılıb və istirahət mərkəzinin birinci hissəsi ilə ikinci hissəsini birləşdirən yeraltı piyada keçidi tikilib.

Mərkəzi Parkın ərazisində iki açıq kafe, bir fəvvarə kompleksi və avtomobillər üçün açıq dayanacaq da fəaliyyət göstərəcək.

Dövlətimizin başçısına məlumat verilib ki, görülən işlər çərçivəsində parkın ətrafındakı Mirzəağa Əliyev, Bəşir Səfəroğlu və Çingiz Mustafayev küçələrində yol infrastrukturu da yenidən qurulub, avtomobil üçün yeni parklama ərazisi, piyada keçidləri, işıqforlar quraşdırılıb, drenaj və kanalizasiya sistemləri çəkilib.

Beləliklə, Mərkəzi Parkın ikinci hissəsinin istifadəyə verilməsi ilə keçmiş "Sovetski" ərazisində salınan parkın ümumi sahəsi 26,4 hektara çatdırılıb. Park 5,4 kilometr uzunluğunda olan piyada yolları, 18 hektarlıq yaşıllıq sahəsi, 7 uşaq meydançası, 2 idman meydançası, 6 fəvvarə kompleksi, 190 avtomobillik açıq, 347 avtomobillik qapalı dayanacaqdan ibarət olmaqla, paytaxtın ən gözəl istirahət guşələrindən birinə çevrilib.

Qeyd edək ki, son illərdə Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq Bakıda həyata keçirilən abadlıq-quruculuq işlərinin həcmi daha da artmaqdadır. Paytaxt sakinlərinin və ölkəmizə gələn turistlərin istirahəti üçün ən müasir parklar və yeni yaşıllıq zolaqlarının salınması, Bakının qədim tarixi memarlıq nümunələrinin bərpası və müasir binaların tikilib istifadəyə verilməsi ölkəmizin dinamik inkişafını daha da genişləndiyini göstərir. Yeni istifadəyə verilən Mərkəzi Parkın ikinci hissəsi də paytaxtımızın daha da gözəlləşməsi, şəhərin "ağciyəri" sayılan yaşıl guşələrin sayının artırılması və insanların səmərəli istirahəti baxımından mühüm əhəmiyyət daşıyır.

## Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi təyin edildi

**Prezident İlham Əliyev Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncamla Vahid Rasim oğlu Hacıyev ”Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanı ilə müəyyən edilmiş Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin edilib.

***

**Dövlət başçısının digər Sərəncamı ilə ”Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 may tarixli 3236 nömrəli Sərəncamı ləğv edilib.**

## 2023-cü il üçün ehtiyac meyarının həddi 246 manat məbləğində təsdiqləndi

Prezident İlham Əliyev Azərbaycan Respublikasında 2023-cü il üçün ehtiyac meyarının həddi haqqında Qanunu imzalayıb.

Sənədə əsasən, ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə 2023-cü il üçün ehtiyac meyarının həddi 246 manat məbləğində təsdiq edilir.

Bu Qanun 2023-cü il yanvarın 1-dən qüvvəyə minir.

# İlham Əliyev: "Qərbi Azərbaycan bizim tarixi torpaqlarımızdır"

**Prezident İlham Əliyevin cari ilin 24 dekabr tarixində Qərbi Azərbaycan İcmasının ziyalıları ilə görüşü zamanı bildirib ki, ”Cari ilin avqust ayında Azərbaycan Qaçqınlar Cəmiyyəti Qərbi Azərbaycan İcmasına çevrilmişdir. Gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar.**

Xalqın tarixi yaddaşı doğma torpaqlarımıza olan sevgini hər zaman qoruyub. Bu gün Zəngilan rayonunun Ağalı kəndində yaşayan insanların böyük əksəriyyəti, eyni zamanda, uşaqlar, gənclər onlar üçün doğma olan o torpaqları heç vaxt görməmişlər. Torpaq həsrəti və Vətən sevgisi onları oraya getməyə vadar etdi. Onların arasında hətta Bakıdan, Sumqayıtdan gedənlər də az deyil.

Azərbaycan həqiqətləri dünya ictimaiyyətinə çatdırılmalıdır. Qərbi Azərbaycan İcması bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparacaqdır.

Hüquqi müstəvidə bütün lazımi tədbirlər görülməlidir. Beynəlxalq hüquqşünaslar cəlb edilməlidir. Onlar bu qayıdış istəyini və hüququnu beynəlxalq müstəvidə necə reallaşdırmaq lazımdır yolunu bizə göstərəcəklər.

Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Əfsuslar olsun ki, Ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb.

Xalqımız əsrlər boyu öz hüquqlarını qorumaq üçün, öz tarixi torpaqlarında yaşamaq üçün böyük fədakarlıq göstərmişdir. Ancaq buna baxmayaraq, tarixin müxtəlif vaxtlarında bizim xalqımız öz doğma torpaqlarından məhrum edilmişdir.

Azərbaycan Demokratik Respublikasının qurucularının fəaliyyəti və uğurları danılmazdır. ADR doğrudan da dünya miqyasında, müsəlman aləmində ilk respublika idi, baxmayaraq ki, cəmi iki il yaşadı.

Tarix təhrif olunmamalıdır.

1918-ci ildə təzə yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti özünün ilk qərarlarından birində bizim tarixi şəhərimizi - İrəvanı Ermənistana faktiki olaraq bağışlamışdır. Bu, bağışlanmaz bir addım idi, bu, xəyanət idi və cinayət idi. Bunu biz hamımız yaxşı bilirik, xalqımız da bunu bilməlidir. Biz heç vaxt tariximizi təhrif etməməliyik.

Tarixi həqiqətlər.

1920-ci ildə sovet hökumətinin qərarı və erməni millətçilərinin təkidi ilə bizim digər tarixi torpağımız Zəngəzuru da Azərbaycandan ayırıb Ermənistana birləşdirdilər. Bu, xalqımıza qarşı növbəti cinayət idi. Bunun da məqsədi tam aydın idi. Birincisi, erməni millətçiləri sovet hökumətində mühüm vəzifələrdə idi. Digər tərəfdən, Azərbaycanı Naxçıvandan və Türkiyədən coğrafi nöqteyi-nəzərdən ayırmaq üçün atılmış bir addım idi.

1948 - 1953-cü illərdə xalqımız növbəti deportasiyaya məruz qalmışdır. Bu, sovet hökumətinin Qərbi azərbaycanlılara və bütövlükdə Azərbaycan xalqına qarşı törədilmiş növbəti cinayəti idi. Bu, eyni zamanda, böyük ədalətsizlik idi, vicdansızlıq idi.

1980-ci illərin sonlarında sovet hökuməti xalqımıza qarşı növbəti cinayət törətdi. Ulu Öndər Heydər Əliyevin hakimiyyətdən getməsindən istifadə edən həm erməni millətçiləri, həm onların sovet hökumətindəki havadarları dərhal hərəkətə keçdilər. Heydər Əliyev 1987-ci ilin noyabrında bütün vəzifələrdən uzaqlaşdırılandan iki həftə sonra erməni millətçiləri baş qaldırdılar. Sovet hökuməti onlara dəstək oldu və həm Qarabağda, həm ovaxtkı Ermənistan Respublikasında xalqımıza qarşı növbəti cinayət başlandı. Azərbaycanlılar tarixi diyarı olan Qərbi Azərbaycandan deportasiya edildi.



Sovet hökumətinin gözünün önündə baş vermişcinayətlər. Bütövlükdə 300-dən çox şəhər və kənddə azərbaycanlılar yaşamışlar. Onların hamısı 3 il ərzində Ermənistandan zorla çıxarıldı, qovuldu, bir çoxları öldürüldü, onlara işgəncələr verildi. Sonuncu kəndimiz Nüvədi 1991-ci ilin avqustunda deportasiyaya məruz qaldı.

İki il bundan əvvəl biz öz tarixi missiyamızı şərəflə yerinə yetirərək ədaləti bərpa etdik, düşmənləri torpaqlarımızdan qovduq, Azərbaycanın ərazi bütövlüyünü bərpa etdik. Bu gün azad edilmiş torpaqlarda yaşayırıq, qururuq, yaradırıq, dağıntıları aradan qaldırırıq və dünyaya göstərməyə çalışırıq ki, gəlin, baxın, gözlərinizi açın, bu vəhşilikləri törədən sizin sevimli erməni xalqıdır.

Qarabağda erməni vəhşilikləri faktiki olaraq heç kim tərəfindən təsdiqləmirdi. İki dəfə ATƏT-in faktaraşdırıcı missiyası o vaxt işğal altında olan torpaqlara göndərilmişdi. Ancaq onların məruzəsinə baxdıqda, yenə də ikili standartlar görürük;

XX əsrdə xalqımızın çəkdiyi əzablar haqqında dünya ictimaiyyətinə daha geniş məlumat verilməlidir. Biz hər zaman həqiqəti deyirik. Azad edilmiş torpaqlara gələn 10 minlərlə xarici vətəndaş bu gün artıq öz gözləri ilə görür ki, xalqımız hansı vəhşiliklərə məruz qalıb.

1990-cı illərin əvvəllərində Qarabağ münaqişəsi ilə bağlı təhrif edilmiş təsəvvürü tamamilə dəyişdirə bildik. İnformasiya müharibəsi və İkinci Qarabağ müharibəsi onu göstərdi ki, bu, az əhəmiyyət kəsb etmir. Ona görə burada da İcmanın xaricdəki fəaliyyəti xüsusi önəm daşımalıdır. Sərgilər, təqdimatlar, beynəlxalq konfranslar keçirilməlidir. Azərbaycan diaspor təşkilatları ilə birlikdə aksiyalar keçirilməlidir. Xarici ölkələrin siyasi dairələri, mətbuat və qanunvericilik orqanları ilə təmaslar qurulmalıdır.

Ağalı kəndinin timsalında biz xalqımızın tarixi yaddaşını görürük. Çünki oranı heç vaxt görməyən uşaqlar, gənclər oraya qayıdıblar. Biz eynisini Qərbi Azərbaycanda da görəcəyik;

Azərbaycan-Ermənistan sərhədində məcburən hərbi əməliyyat keçirməli olduq. Bu hərbi əməliyyat nəticəsində bizim tarixi şəhərlərimiz bu gün artıq vizual müşahidə yolu ilə gözümüzün önündədir;

Bu gün biz artıq Bala Göyçənin sahilindəyik. Bu gün biz Göyçə gölünü binoklsuz görürük.

Siyasi iradə və prinsipial mövqe.

Hətta səndən güclü olan qüvvə qarşısında heç vaxt geri addım atmamalısan, hər zaman öz hüququnu qorumalısan, xüsusilə doğma torpağını qorumalısan.

Sentyabr toqquşmaları bizi gələcəkdə böyük problemlərdən sığortalayacaq. Çünki Ermənistanda revanşist qüvvələr baş qaldırır. Çünki Ermənistanda cəmiyyətin şüuru o qədər zəhərlənib, azərbaycanofobiya o qədər geniş vüsət alıb ki, orada faktiki olaraq normal düşüncəyə malik olan qalmayıb. Ona görə onlar revanş fikri ilə yaşayırlar. Onlar yenə də ümid edirlər ki, kimsə gələcək onların əvəzinə bizimlə müharibə aparacaq, onlar da hər zaman olduğu kimi, hansısa himayədarın arxasında gizlənərək yenə də bizə qarşı öz məkrli planlarını həyata keçirəcəklər.

Qarabağın, Şərqi Zəngəzurun döyüş meydanında azad edilməsi tarixi hadisədir və Azərbaycan durduqca Azərbaycan tarixində qalacaq. Bu il əldə edilən həm hərbi, həm siyasi uğurlarımız da gələcək üçün zəmin yaradır. Həm qayıdış üçün, həm təhlükəsizlik üçün, həm Azərbaycanı güclü dövlət kimi qəbul etmək istəməyənlər üçün də bir dərs oldu və bir daha göstərdi ki, bizi heç kim və heç nə dayandıra bilməz.

Bu gün Laçın yolunda baş verən hadisələr növbəti anti - Azərbaycan isterikasına səbəb olub. Burada təkcə Ermənistan yox, bəlkə də onlardan daha çox onların xaricdəki havadarları, onların arxasında dayanan dövlətlər yenə də Azərbaycana qarşı qarayaxma kampaniyası başlamışdır.Bizim təbii sərvətlərimiz istismar edilir, təbii sərvətlərimiz daşınır.

Heç kim bizə təsir göstərə bilməz. İkinci Qarabağ müharibəsi bunu göstərdi, müharibədən keçən iki il bunu göstərdi. Zənglər ola bilər, hansısa bəyanatlar ola bilər, onlara əhəmiyyət vermək lazım deyil. Sadəcə olaraq, siyasi nəzakət naminə biz bu zənglərə cavab veririk. Ancaq bu, bizim mövqeyimizi zərrə qədər dəyişməyəcək.

İcma bir neçə istiqamət üzrə öz işini davam etdirməlidir. Mövcud istiqamətdə görülən iş bundan sonra daha məqsədyönlü şəkildə aparılmalıdır. Təşkilat qurulub, icra qurulub, dövlət orqanları öz dəstəyini göstərir və göstərəcək. Əlavə göstərişlər dəveriləcəkdir. Ölkə daxilində icmanın fəaliyyəti daha da gözəgörünən olmalıdır. Azərbaycan çərçivəsində icmanın fəallığı çox önəmli ola bilər.

Rəsmi İrəvanın tarixi saxtakarlığı ifşa olunmalıdır. İrəvanın tarixi mərkəzi Azərbaycan xalqının tarixi irsi idi, Şəhərsalma adı altında bütün tarixi binalarımız, o cümlədən İrəvan qalası, Sərdar sarayı dağıdılıb.

Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalmış toplumdur. Onların hüquqları bərpa edilməlidir və onlar öz doğma torpaqlarına qayıtmalıdırlar. Biz bunu sülh yolu ilə etmək istəyirik.

Qərbi Azərbaycan İcmasının çox mötəbər bir rəqəmsal platforması olmalıdır. Orada həm tarixi həqiqətlər, həm tarixi abidələrimiz, ermənilər tərəfindən dağıdılan saraylar, məscidlər, şəhərlər, Azərbaycan tarixi irsinin silinməsi ilə bağlı olan faktlar öz əksini tapmalıdır.

Bütün başqa millətləri qovub, başqasının torpağında özləri üçün dövlət quran Ermənistan. Bu ərazidə heç vaxt Ermənistan olmayıb. İndiki Ermənistan bizim torpağımızdır.

Qayıdış Konsepsiyası hazırlanmalıdır. Bu sülhsevər konsepsiya olmalıdır. Biz bütün beynəlxalq konvensiyalarda bizə məqbul olan müddəaları götürüb bunun əsasında öz hüququmuzu tələb etməliyik.

Vahid informasiya fəaliyyəti.

Bütün informasiya resursları məqsədyönlü şəkildə vahid konsepsiya və siyasət çərçivəsində iş aparılmalıdır və bunun əsas hədəfi bizim qayıdışımızdır.

Demokratik dəyərlərə və milli adətlərə daim sadiq qalan Prezident İlham Əliyev öz ad günlərini xalqı ilə birlikdə keçirir. Prezident İlham Əliyev əvvəlki dövrdə adətən 24 dekabr günündə məcburi köçkünlərlə bir yerdə olub və bu günü ailə üzvləri ilə qeyd edir.

İcma üzvləri ilə görüşdə Dövlət Başçısı bildirdi: ”Hesab edirəm ki, bugünkü gün istisna deyil, yenə də ailə üzvlərimlə birlikdə qeyd edirəm”;

Artıq iki ildir ki, müzəffər xalq kimi yaşayırıq.Tarixi Zəfəri qazanmış xalq kimi biz dünya miqyasında doğrudan da tamamilə yeni bir vəziyyət yaratdıq. İnamını itirmiş xalqlar da bu gün inanırlar, bizə oxşamaq istəyirlər, bizim kimi hərəkət etmək istəyirlər, bizimlə məsləhətləşirlər.

Əsas məsələ ondadır ki, inamımızı itirməyək. 11 il öncə öz ad günündə Ağcabədidə məcburi köçkünlərlə bir yerdə olanda Prezident İlham Əliyev demişdir: ”Gün gələcək, siz məni öz doğma diyarınızda qəbul edəcəksiniz, qarşılayacaqsınız, mən sizin diyarınıza qonaq gələcəyəm” - və o gün gəldi. Ona görə də Qərbi azərbaycanlılar da heç vaxt inamı itirməməlidir. Gün gələcək, biz Qərbi Azərbaycanda da gözəl məclis keçirəcəyik və bu günü xatırlayacağıq.

**Hazırladı:**
**Mehriban Cəfərova**

## Naxçıvanda dövlət qurumlarının saytı "GOV.AZ"a köçürüldü




**Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının internet səhifələrinin ”GOV.AZ” zonasında qeydiyyatdan keçirilməsi ilə bağlı müvafiq tədbirlər həyata keçirilir.**

Bu barədə Adalet.az-a Azərbaycan Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətindən daxil olan məlumatda bildirilir.

Məlumatda qeyd olunub ki, ilkin olaraq Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin (nmincom.gov.az) rəsmi internet səhifəsinin ”GOV.AZ” domen zonasına köçürülməsi məqsədilə Xidmətin əməkdaşları tərəfindən müvafiq təhlillər aparılmış, saytın audit yoxlamaları aparıldıqdan sonra zonada yerləşdirilməsi təmin edilib.

”Qeyd edək ki, Muxtar Respublikada 11 dövlət qurumunun rəsmi internet səhifəsi Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin proqramçıları tərəfindən yenilənib. Belə ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin (nnk.gov.az), Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin (nsupremecourt.gov.az), Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının (nmsk.gov.az), Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (neco.gov.az), Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin (nagro.gov.az), Naxçıvan Muxtar Respublikası Energetika Dövlət Xidmətinin (nminenergy.gov.az), Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin (ndim.gov.az) internet səhifələrinin audit yoxlamaları aparıldıqdan sonra ”GOV.AZ” domen zonasına köçürülməsi planlı olaraq həyata keçirilməkdədir”, - deyə məlumatda bildirilir.

## Xankəndi-Laçın yolundakı aksiyanı daha çox kişilər izləyir




**18 gündür Xankəndi-Laçın yolunda ekoaktivistlər, ictimai fəallar və vətəndaş cəmiyyətinin nümayəndələri Azərbaycan ekologiyasına qarşı həyata aparılan terrora qarşı mövqe nümayiş etdirirlər.**

Adalet.az-ın məlumatına görə, Sosial Tədqiqatlar Mərkəzi davam edən aksiyalar və gözləntilərlə bağlı ictimai rəy sorğusu keçirib.

”Xankəndi-Laçın yolundakı aksiyaları izləyirsinizmi” sualına cavab olaraq, sorğuda iştirak edənlərin ümumilikdə 88.1%-i aksiyaları izlədiyini bildirib.

Respondentlərin 54.1%-i ”tez-tez izləyirəm”, 34.0%-i ”bəzən izləyirəm” cavabını verib. 11.9%-i ”heç izləmirəm” cavabını qeyd edib.

Aksiyaları tez-tez izlədiyini bildirənlər arasında kişilər qadınlara nisbətdə üstünlük təşkil edib. Eyni zamanda, bu cavabı qeyd edən respondentlər arasında 55-64 yaş qrupunda olanlar digərləri ilə müqayisədə daha çox üstünlük təşkil edib.

Aqil ABBAS

## "MƏRKƏZİ TELEVİZİYA" ELƏ VARDANYAN AĞILDADI

*Məşhur yazıçı, yumor ustası İvanovun Sovet hökuməti zamanı belə bir ifadəsi vardı: "Mərkəzi Televiziyanın sifarişi ilə Cənubi Afrikada yeni bir respublika yaradılmışdır...".*

*İndi Mərkəzi Televiziyanın sifarişi ilə Vardanyan gəlib Qarabağa, İvanovun dediyi kimi, respublika yaratmağa. Qan-qan deyir.*

*Bu adam elə bilir ki, 1988-ci ildir və elə bilir ki, Azərbaycan 1988-ci ildəki respublikadır: SSRİ-nin bir parçası, dövləti yox, ordusu yox, silahı yox, sursatı yox, büdcəsi də 2,7 milyard manat, qısası, dünyanın da xəbəri olmayan 5 milyonluq bir ölkə.*

*88-ci ildə ordusu, silah-sursatı olmayan bir xalq yalın əllə Qarabağın yarısını azad eləmişdi. Sonra 366-cı rus batalyonu və Pskov desant diviziyası - tanklarla, toplarla, qradlarla silahlanmış rus ordusu torpaqlarımızı işğal elədi. Mejduproçim, həmin 366-cı batalyonun ağzını Ukraynada cırdılar, tamamilə darmadağın oldu.*

*İndi 88-ci il deyil. İndi müstəqil Azərbaycan dövləti var. Mükəmməl ordusu, özünün müdafiə sənayesi, xüsusi təyinatlıları, komondosları, dəniz pişikləri, daxili qoşunları, sərhəd xidmətinin qoşunları, 44 gündə arxasında nə qədər xarici dövlətlərin durduğu, silah-sursatla təmin etdiyi Ermənistan ordusunu darmadağın edən Müzəffər ordusu olan Azərbaycandı.*

*88-ci ildə səsi Biləcəridən o tərəfə keçməyən Azərbaycan deyil indi. İndi dünyada söz sahibi olan Azərbaycandır.*

*İndi ölkəyə Vəzirov, Mütəllibov kimi maymaqlar rəhbərlik etmir, indi ölkəyə Ulu Öndər Heydər Əliyevin varisi, dünyanın qəbul etdiyi, sözünün ağası olan Möhtərəm Prezident İlham Əliyev rəhbərlik edir. İndi ölkəyə 200 ildə itirdiyimiz torpaqları azad edən Ali Baş Komandan İlham Əliyev rəhbərlik edir.*

*Vardanyan deyəsən bunları bilmir. O, bu ağılla Rusiyada milyoner olub? Və "Mərkəzi Televiziya" bu ağılda adamı Qarabağa göndərib? Deyəsən, "Mərkəzi Televiziya" da elə Vardanyan ağıldadı.*

## AXIRDA UŞAQLAR MÜƏLLİMLƏRİN BAŞINA ÇIXACAQLAR

**Ayrı söz də yazmaq olardı ”çıxacaqlar”ın yerinə, dedim ayıbdı, onsuz da belə getsə, axırda elə olacaq.**

**Oxuyuram ki, bir müəllim biədəb hərəkət etdiyinə görə uşağa bir şapalaq vurub, ona görə də hörmətli Təhsil Nazirliyimiz müəllimi işdən qovub. Ayıbdı ey, vallah, ilin-günün bu vaxtı nazirlik bir ailəni çörəksiz qoyub, bunu fikirləşməyib. Xəbərdarlıq edə bilərdi, töhmət verə bilərdi, lap şiddətli töhmət verərdi. Və təəssüf ki, bu, birinci hadisə deyil.**

**Bir kişi müəllim də məktəbdən uzaqlaşdırıldı. Gərək müəllim həmin uşağın elədiyini uşağın valideyninə eləyəydi. Valideyn də onu vurardı, mütləq vuracaqdı. Elə tərbiyəsiz uşaq böyüdən valideyn də elə həmin tərbiyədə olacaqdı.**

**Mən də müəllim işləmişəm, düz bir il. Uşaq da döymüşəm, hətta bir dəfə rayon prokurorunun oğlunu necə döymüşdümsə bir həftə dərsə gələ bilmədi. Amma prokuror nə məni tutdurdu, nə də məktəbdən qovdurdu. Əksinə, məni kabinetinə çağırıb məsələni araşdırdı, dedi, oğul, düz etmisən. Belə kişilər olub ey.**

**Dəfələrlə yazmışam, yenə yazıram. Bu maaşla bizim ərköyün uşaqlara dərs deyən müəllimlərin hamısı Milli Qəhrəmanlardı.**

**Deyəsən, elə gücümüz müəllimlərə çatır.**

**Görəsən, Müəllimlərin Həmkarlar Təşkilatı var? Varsa, bu təşkilat niyə işdən qovulan müəllimlərin hüquqlarını müdafiə etmir?**

**Və yaxud həmin məktəbin müəllimləri niyə susurlar? Axı bu hadisə sabah onların da başına gələ bilər.**

**Mərhum telejurnalist Kamil Abdullayev bir ara Ağsu rayonunda müəllim işləmişdi. Və bir şagirdi möhkəm döymüşdü. Məktəbə davaya gələn uşağın anasını necə sakitləşdirmişdi, bu da qalsın birisi günə.**

**Gərək ki, Məhəmməd Peyğəmbər deyib ki, mənə bir hərf öyrədənin qırx il qulu olaram. Amma biz bizə bir hərf deyil, böyük bir elm öyrədən, təhsil verən müəllimlərə qul kimi baxırıq.**

## ALLAH BİLƏN MƏSLƏHƏTDİ!

*Mətbuatda dəhşətli bir şəkil yayılmışdı. Aclıq və səfalət içində yaşayan bir ərəb uşağı təxminən deyir ki, sizdən Allaha şikayət edəcəm.*

*Amma deyəsən, Allah o uşağın şikayətini hələ eşitməyib. Yenə də Afrikada, Ərəb ölkələrində aclıq və səfalət baş alıb gedir. Hazırda dünyada 800 milyon insan aclıq çəkir.*

*Ukrayna dağılır, Suriya dağılır, İraq dağılır, Liviya dağılır, bir azdan Serbiya ilə Kosovoda da qırğın başlayacaq.*

*İlahi, bizlərə yazığın gəlsin.*

*Məşhur bir hədisi təkrarlamaq istəyirəm. Qonşunun oğlu vurur qonşusunun uşağını öldürür. Peyğəmbər (ə.s.) Meraca gedirmiş. Uşağı ölən ata Peyğəmbərin önünü kəsib deyir ki, Allahdan soruş gör mənim oğlumu öldürənin cəzasını nə vaxt verəcək?*



3 yaşlarında Suriyalı bir uşaq vardı.Son nəfəsini verərkən; "Hər şeyi Allaha danışacam" demişdi.Son günlərdə baş verənlərə nəzər salsaq, uşaq bütün şikayətlərini Allaha danışıb.

*Peyğəmbər Meracdan qayıdanda ata soruşur ki, ya Peyğəmbər, Allah nə dedi?*

*Peyğəmbər:*

*- Allah buyurdu ki, qatil qırx ildən sonra cəzasını çəkəcək.*

*Ata:*

*- Allah bilən məsləhətdi.*

*Girir həyətə, arvadı soruşur ki, ay kişi, Peyğəmbər nə xəbər gətirdi?*

*- Allah buyurub ki, oğlumuzu öldürənin cəzasını qırx ildən sonra verəcək.*

*Ana:*

*- Allah bilən məsləhətdi.*

*Kişi girir evə qızı soruşur:*

*- Ata, Peyğəmbər nə xəbər gətirdi?*

*- Dedi qırx ildən sonra.*

*Bacı:*

*- Allah bilən məsləhətdi.*

*Bu vaxt qonşuda hay qopur. Tez-tələsik qonşuya keçirlər, görürlər ki, uşağını öldürən oğlanı ilan vurub.*

*Kişi qaçıb Peyğəmbərə çatır:*

*- Ya Peyğəmbər, sən dedin ki, Allah buyurub oğlumu öldürən qırx ildən sonra cəzasına çatacaq. Amma onu indicə ilan vurub öldürdü.*

*Peyğəmbər deyir:*

*- Mən dedim qırx ildən sonra, sən də dedin ki, Allah bilən məsləhətdi. Buna görə Allah on il götürdü. Girdin həyətə anasına danışdın, ana da dedi Allah bilən məsləhətdi. Allah on il də ona keçdi. Girdin evə qızın soruşdu, sən də dedin qırx ildən sonra. Sənin nişanlı qızın da dedi ki, Allah bilən məsləhətdi. Allah o nişanlı qızı da eşitdi, iyirmi il də ona keçdi.*

*Ya Xudavəndi-aləm, bilirik sənin qırx il səbrin var, biz də deyirik, sən bilən məsləhətdi.*

*Bəlkə acından ölən o uşağın şikayətini eşidəsən, onun xətrinə dünyanı dağıdanları bir az tez cəzalandırasan.*

*İradə TUNCAY*

# FAİQ – üstün, əla, seçmə

**İnsanın öz ovqatını səsi ilə ifadə etmək istəyi zamanla sənətin yaranmağına səbəb olub güman ki... Və inkişaf zamanla vokal sənətin yaranmasına gətirib. Nitq nəğməyə, musiqiyə qarışanda relyefi genişlənir. Sözlərin təsir vasitəsi güclənir. Belə fikir var ki, müasir nitqin yaranmasına melodiyalar rəvac verib. Çünki beyin nəğmə sözlərini daha rahatlıqla həzm edə bilir və bu da folklor janrlarının, xalq yaradıcılığının musiqi ilə bağlı, yanaşı gəlməyinin səbəbini izah edir. Yəni burda yalnız əyləncə elementi deyil vacib olan, həm də informasiyanın gələcəyə ötürülməsidir. Mahnı, nəğmə yaddaşa yardım edir.**

Belə düşünək - fauna üzvlərinin səsi olmasa ətrafımız necə boşluqda qalar?! Quşların civiltisi, ötməsi olmasa orqanizm, onun ayrı-ayrı hissələri hansı ladlara köklənər? Oxumaq, yəni musiqi ifası insan ruhunda rahatlıq yaradan bir nəsnədir. Yalnız rahatlıq yox... Toxluq yaradan... Yəni bizim - insan adlanan canlıların ehtiyacımız var musiqiyə, sözə, MAHNIYA!!! Aclığımız var... İnsan yarandığı gündən nəğmə oxuyur - körpəni yatırdanda oxuyur, məbədlərdə ritualları ifa edəndə oxuyur, təsərrüfat işlərini icra edəndə oxuyur... Kefi yaxşı olanda, kədərli olanda... İnsan oxuyur... Və həm də dinləyir...

Kimə qulaq asırıq bəs ? Təbii ki, bu, zövq məsələsidir. Zövq isə fərqlidir - klassika da var, yenilik də var, xalq musiqisi də var.

Elmdə, sənətdə bəzən məlum qaydalardan, tapdanmış cığırlardan sapmalar olur. Bəyənilirsə, buna orijinallıq deyirlər. Yox, əgər qəbul olunmursa, əllaməlik adlandırırlar. Bu sapmalar olmasaydı, neçə-neçə cərəyanlar, yeniliklər yaranmazdı, kəşflər olmazdı. Uzun illər sovetlərin istehsal etdiyi məhsulları dünya standartlarına uyğun gəlmədiyinə görə dünya bazarında qəbul etmirdilər. Amma bu, sovet hökumətinə qüdrətli dövlət olmağa mane olmurdu.

Demək istədiyim odur ki, gücün çoxaldıqca standart və ölçülərdən kənara çıxa bilərsən, kimsə də sənə "gözün üstə qaşın var" deməyəcək.Tutalım, eyni bir uyğunsuz hərəkəti cəmiyyətdə iki müxtəlif mövqe tutan adamlar edirlər - zənginin hərəkətinə münasibət bir başqa cür olacaq, kasıbınkına bir başqa cür. İkisi də içir - kasıba "alkaş" deyirlər, varlıya "yeyib-içən" oğlan. Xalq arasında bu standarta "yetim qızsan, qıvrıl yat" deyirlər. Və yaxud da görürsən ki, bütöv bir toplum yanlış yol tutub, atılıb-düşürsən ki, belə olmaz.



Onda sənə deyirlər ki, "palaza bürün, elnən sürün". Qanun kitabları deyir ki, qanunlar əsasında yaşa, el deyir ki, "düz düzdə qalar". Maraqlıdır, deyilmi? Yenə ölçülərdən kənara çıxırıq. Hərlənib-fırlanıb o fikrə gəlirik ki,birtəhər başını saxlamaq üçün gördüklərindən-eşitdiklərindən bir ortaq məxrəc tapıb öz standartını yaratmalısan. Elə bir standart ki - nə əzilməyəsən, nə də kimisə əzməyəsən. Ən çətin olanı da budur.

Fərqli olanı dinləyirik, fərqli olanı sevirik. Kimdir fərqli? Həəə, məsələ bu fərqi tapmaqdır... Hamı eyni düşünə bilmir. Hamının düşüncəsinə yaxınlaşa bilirsənsə nə mutlu - deməli, standart yarada bilən birini sevmisən...

Bura qədər olan məsafəni necə gəlib bəs standart yaradan???

Sırf fizioloji tərəfdən baxsaq - yaxşı dediyimiz, geniş ağ ciyərləri olan, qırtlağı olan, səs tellərini gözəl idarə edə bilənlərdi. Gərəkli diapazonu göstərə bilmək üçün bacarığı olan... Sırf fizioloji desək - amma sənət sırf fizioloji yaranmır axı. Ruh dediyimiz anlam var. Yəni bizi ayaqda saxlayan, sağ olduğumuzu göstərən. Ruhu güclü olanlar, içimizə nüfuz edə bilənlər sevilir... İstedad və zəhmətsevərlik... Bax mənim sevdiyim Faiqin portreti yaranır bu iki sözlə.... Adını necə düzgün seçiblər - ÜSTÜN, ƏLA, SEÇMƏ... Bəlkə daha böyük hərflərlə ZƏHMƏT sözünü yazmaq gərəkir... Yəni daxili fəaliyyətini müəyyən etdiyin məqsədə yönəldə bilmək. Yəni Faiqin ifasını dinləyəndə qəbul etdiyimiz müxtəlif parametrlər - ton, ritm, səsin yüksəkliyi və ya həzinliyi... Rahatlıqla alınır... Həzm deyək... Qulaq duyumu deyək...

Repertuarını xatırlayaq ... İndiyə qədər ifa etdiyi əksər mahnılar niyə yadımızda qalıb? Dedim axı musiqi həm də yaddaşdı. Və bu yaddaş bizim zövqümüzü oxşayıb... Faiqin ifası daxili aləminin əks- sədasıdır. Daxili aləm isə deyir ki, zəngindir. Məlumatlıdır, məlumatı düzgün ifadə edə bilir... Yəni yalnız musiqi ilə deyil - həm də informativ. Müsbət enerji ötürə bilir dinləyənlərə... Sevgisini çatdıra bilir. Hətta bu sevginin mövzu çaları müxtəlif ola bilər. Vətən, torpaq, insan...

Faiqi səhnəyə çıxdığı ilk gündən tanıdım və sevdim. Güman edirəm mənim kimi insanların sayı çoxdur. Və o da bizləri məyus etmədi - hər zaman yeni ifaları ilə sevindirdi. Sevinc bəxş edən insan.

**Görkəm... Əsmər bənizli, parlaq gözlü, yaraşıqlı... Yəni istedad insanı olduğundan neçə boy yüksək göstərə bilir. Və hər dəfə bu yüksəlişi görə bilmək də çox xoşdur... Yaradanın qanadları altında olsun hər zaman... Dekabr onun doğulduğu ay... Və yazı da dekabrda yazıldı... Yazını mən yazdım... Narazı olanlar varsa öz sevgilərini ifadə edə bilən sözləri də onlar yazsın...**

# Sahibə Qafarova İsrail səfiri ilə görüşdü

**Milli Məclisin sədri Sahibə Qafarova dekabrın 28-də İsrail Dövlətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Corc Dik ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən Adalet.az-a verilən xəbərə görə, spiker, bu görüşün onun diplomatla parlamentdə ikinci görüşü olduğunu xatırladıb və onun səfir kimi fəaliyyətini yüksək qiymətləndirib.

Cari il noyabrın 18-də Azərbaycan Respublikasının İsrail Dövlətində səfirliyinin açılması haqqında qanunun qəbul edildiyini xatırladan Milli Məclisin sədri deyib ki, Azərbaycanın İsraildə səfirliyinin



açılması qərarı iki ölkə arasında dostluq münasibətlərini daha da möhkəmləndirir. Bu il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünün tamam olduğunu söyləyən Sahibə Qafarovanın sözlərinə görə, bu illər ərzində ölkələrimiz arasında müxtəlif sahələrdə qarşılıqlı etimada və dəstəyə əsaslanan əməkdaşlıq dinamik inkişaf edib. İkitərəfli münasibətlərin inkişafında yüksək səviyyəli səfərlər və görüşlər müstəsna rol oynayır.

Milli Məclisin sədri qeyd edib ki, Azərbaycan-İsrail münasibətlərindən danışarkən, vurğulanmalı olan ən mühüm amillərdən biri də insanlar arasında təmaslardır. Azərbaycanda əsrlər boyu yəhudilər və azərbaycanlılar sülh, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşayıblar və yaşamaqda davam edirlər. İsraildəki Azərbaycan diasporu, İsraildə yaşayan yəhudi əsilli soydaşlarımız da ölkələrimiz arasında əlaqələrin inkişafına böyük töhfə verirlər.

Parlamentlərarası əlaqələrdən danışan spiker Sahibə Qafarova bildirib ki, qanunverici orqanlarımız arasında münasibətlərin daha da genişləndirilməsi üçün yaxşı imkanlar mövcuddur. Milli Məclisin sədri, İsraildə keçirilən sonuncu parlament seçkilərinə qədər hər iki ölkənin parlamentlərində dostluq qruplarının fəaliyyət göstərdiyini, onların müntəzəm təmaslar, dialoq və fikir mübadiləsi ilə parlamentlər arasında körpü rolunu oynadığını bildirib və ümidvar olduğunu diqqətə çatdırıb ki, İsrail parlamentinin yeni tərkibində də Azərbaycanla dostluq qrupu tezliklə yaradılacaq və bu əlaqələr genişlənərək davam edəcək.

Görüşdə hazırda regionda mövcud olan vəziyyət barədə də danışan Milli Məclisin sədri bildirib ki, bu gün də Ermənistanın bu istiqamətdə qanunsuz fəaliyyəti davam edir. Belə ki, Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqları Ermənistan tərəfindən qanunsuz olaraq istismar edilir və Laçın yolundan istifadə etməklə Ermənistana daşınır.

İsrail Dövlətinin Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri Corc Dik səmimi qəbula görə minnətdarlığını bildirərək, səfir kimi ölkəmizdə fəaliyyətə başlayandan sonra - 2020-ci ilin oktyabrında, Vətən müharibəsi günlərində Azərbaycan Milli Məclisində olduğunu və spiker Sahibə Qafarova ilə görüşdüyünü xatırladıb. O, deyib ki, Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsi və İsraildə Azərbaycanın səfirliyinin açılması ilə bağlı arzuları artıq reallaşıb. Diplomat Azərbaycan Respublikasının İsrail Dövlətində səfirliyinin açılması haqqında qanunun bütün deputatların dəstəyi ilə qəbul olunmasının təqdirəlayiq olduğunu bildirib və Milli Məclisin bütün üzvlərinə təşəkkürünü ifadə edib. Səfir bildirib ki, bu, İsraildə də olduqca yüksək qiymətləndirilib. Bu qərarın qəbulu ilə əlaqədar İsrail Prezidenti Azərbaycan Prezidentinə zəng edib, XİN başçıları arasında telefon danışığı olub. Həmçinin, parlamentdə keçirilən müzakirələrdə də təbrik mesajları səsləndirilib. İsrail ictimaiyyəti bu məsələyə çox pozitiv reaksiya göstərib.

O, parlamentlərimiz arasında münasibətlərin də inkişaf etdiyini, hazırda bu ölkənin qanunverici orqanında Azərbaycanla dostluq qrupunun yeni tərkibində yer almaq üçün çoxsaylı müraciətlər olduğunu diqqətə çatdırıb.

Səfir, demək olar ki, Azərbaycanın işğaldan azad olunmuş bütün ərazilərinə səfər etdiyini, Ağalı kəndində görülən işlərlə yerində tanış olduğunu və burada görülən işlərin onda böyük təəssüratlar oyatdığını bildirib.

**Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.**

# Döyüş hazırlığına xüsusi diqqət edilsin - Baş Qərargah rəisindən tapşırıq

**Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev və nazirliyin digər rəhbər heyəti azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi hissələrdə olublar.**

Adalet.az xəbər verir ki, əvvəlcə birliyin idarə heyəti ilə görüşən Baş Qərargah rəisi müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırıqlarını aidiyyəti üzrə şəxsi heyətə çatdırıb. Şəxsi heyətin peşəkarlığı və qoşunların döyüş hazırlığına xüsusi diqqət yetirilməsi, təlimlərin, o cümlədən səhra məşğələlərinin intensivliyinin artırılması barədə tapşırıqlar verib. Sonra döyüş mövqelərində növbətçilik aparan heyətlə görüşən general-polkovnik K.Vəliyev onun döyüş və mənəvi-psixoloji hazırlığını yüksək qiymətləndirib. Daha sonra Azərbaycan Ordusunun Baş Qərargah rəisi bir neçə hərbi hissələri, o cümlədən Komando hərbi hissəsini ziyarət edib, həmçinin



Şuşada xidmət edən hərbi qulluqçularla görüşüb. General-polkovnik K.Vəliyev hərbi hissələrdə şəxsi heyət üçün yaradılan şəraitlə tanış olub, döyüş qabiliyyətinin daha da artırılması və döyüşə hazırolma vəziyyətinin yüksək səviyyədə saxlanılması barədə tapşırıqlar verib. Şəxsi heyətlə görüşlərdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında Orduda aparılan islahatlar çərçivəsində əldə olunmuş nailiyyətlərdən danışan Baş Qərargah rəisi həyata keçirilən tədbirlər nəticəsində Azərbaycan Ordusunun əməliyyat və döyüş imkanlarının xeyli artdığını qeyd edib. Müdafiə nazirinin birinci müavini şəxsi heyətin taktiki-xüsusi hazırlığının və peşəkarlıq səviyyəsinin daim yüksək səviyyədə saxlanılması məqsədilə keçirilən təlim və məşqlərin keyfiyyətinin daha da artırılması, həmçinin qazanılan döyüş təcrübəsinin növbəti ildə keçiriləcək təlimlərdə də geniş tətbiq edilməsi ilə bağlı komandanlıq qarşısında müvafiq tapşırıqlar qoyub.

**Şəxsi heyətlə birlikdə nahar etdikdən sonra Baş Qərargah rəisi hərbi qulluqçuların qayğıları ilə maraqlanıb və Müdafiə Nazirliyinin rəhbərliyi adından onları qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edib.**

# *Azərbaycanda bu dərmanların qiyməti təsdiqləndi*



**Tarif (qiymət) Şurasının bu gün keçirilmiş növbəti iclasında yeni dövlət qeydiyyatına alınmış daha 149 dərman vasitəsinin qiyməti təsdiq edilib.**

Adalet.az bu barədə Şuraya istinadən xəbər verir. Məlumata görə, bundan başqa etibarlı təchizatın təmin olunması məqsədilə Səhiyyə Nazirliyinin rəyi nəzərə alınmaqla 202 dərman vasitəsinin qiymətində Nazirlər Kabinetinin 3 iyun 2015-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi, həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nın 7.1-ci bəndinə, Şuranın 21 iyul 2015-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Dərman vasitələrinin qiymətlərinin hesablanması üsullarına dair Təlimat"ın 4.1-ci bəndinə uyğun olaraq dəyişikliklər olunub. Bununla da, ticarət adı, farmasevtik forması, təsiredici maddəsinin adı, dozası, ticarət qablaşdırması, miqdarı, istehsal ölkəsi nəzərə alınmaqla, qiyməti təsdiq edilmiş dərman vasitələrinin sayı 13 642 olub. Onların tam siyahısı Şuranın internet səhifəsinin "Dərman vasitələri" bölməsində yerləşdirilib.

# Ekoetirazın 4 günü: Xankəndi – Laçın yolundan REPORTAJ - 2

**Olanları yazmaq, ictimaiyyətə bir də öz qələmimlə, öz dilimlə çatdırmaq istəyimi boğa bilmirəm. Təəssüf ki, aksiyaya media nümayəndəsi kimi deyil adi vətəndaş kimi qatıldığım üçün hazırlıqsız, daha doğrusu, fotoaparatsız, noutbuksuz idim. Axı niyə e, niyə burda "Trend", "APA", "Bizim Media", "Yeni Musavat.com, İTV, AZTV, XəzərTV, ARBTV olsun, "Ədalət" olmasın?! Beləliklə, qoşuluram ünlü "xəbərçilər"ə...**

***II gün***

Jurnalist olaraq bu dəfə etiraz meydanını elə jurnalist nəzərləri ilə araşdırmağa başlayırm. Gün ərzində 15-18 saat rütubətli meşənin yanında, üzü- dodağı, ümumiyyətlə, bütün vücudu yalayan şaxtanın, iliyə işləyən soyuğun qarşısında nə yeyirlər, nə içirlər, nə ilə isinirlər?



Yəqin ki, ürəyi burda olub, özü burda olmayanlara bu faktın açılması daha maraqlı gələr?

Odur ki, ərazidə qurulmuş 4 çadırdan birinə- mitinq iştirakçıları üçün yemək və çay verilən yerə yaxınlaşıram. Fotoda gördüyünüz bərdəli Cavadxan əmi məlumat verir ki, burda gün ərzində ekoetirazçılara 5 dəfə müxtəlif növ yeməklər və şorbalar, limitsiz çay, kofe, şirniyyatla təmin edilir.

Haqq işi üçün çarpışanlara xidmət göstərmək ürəyincə olduğunu elə ilk söhbətə başladığımız an hiss edirəm:Mən bura könüllü gəlmişəm ki, bu hərəkata bir xeyrim dəysin. Ürəyim istədi. Sakit durub baxmağı özümə rəva görmədim. Bura gələndən çay qaynatmaq, dəmləmək işini götürmüşəm. İşimi sevə-sevə görürəm. Təki, arzularımız, tələblərimin öz yerini tapsın! Haqq işimizdə qalib gələk! Mən də sevinim ki, vətənim üçün nəsə edə bildim".

Var olun Ağsaqqal! -deyib yeməklər haqqında da danışırıq. Cavadxan əmi deyir ki, yeməklər Bakıda da N:1 hesab olunan , hazırda da filialı Şuşada da yerləşən "Qoç ət" restoranında bişirilir. Menyuya toyuqla aş, mərci şorbası, çörəkarası kabab, çörəkarası kotlet, qiymə ilə qarabaşaq, dovğa və sair daxildir. Hamısı da dadlı- ləzzətli. Ən yaxşı, tədbirli iş odur ki, yeməklər karton materiallı olan birdəfəlik istifadə üçün nəzərdə tutulmuş qablarda verilir. Sağlamlıq üçün yaxşı düşünülüb".



Soyuq havada, şaxtanın qarşısında üşüməmək mümkün deyil. Qeyd edim ki, oradakıların əhval - ruhiyyəsi o qədər yüksəkdir ki, ağrımaq ağıllarına da gəlmir. Amma bu soyuqlamadır, "gəldim" demir, gəlir və qeyri-ixtiyarı gözlər həkim axtarır, dərman gəzir.

Bəli, 2-ci çadır əlləri şəfalı, dilləri şirin, dərmanları acı və turşməzə olan həkimlərimizə məxsusdur. Aksiyada Azərbaycan Könüllü Həkimlər Assosiasiyasının üzvləri olan həkimlər də iştirak edirlər: Kardioloq Mətanət Paşayeva, tanınmış cərrah, tibb üzrə fəlsəfə doktoru Anar Yusibov, manual terapevt Pərvanə həkim, Rafiq həkim həm etirazçılara dəstək göstərir, həm də onların sağlamlıqlarına nəzarət edirlər. Həmsöhbətim manual terapevt Pərvanə xanım bildirdi ki, aksiya iştirakçılarının səhhətində ciddi problem yoxdur: " Amma təzyiqi, şəkəri yuxarı olanlar, soyuğa görə boğazı ağrıyanlar olur. Onlara da lazımı yardımlar göstəririk. Sutka ərzində bizə 50-60 müraciət olub".

Başımda və boynumun arxasında ağrılar olduğunu dedim. Pərvanə həkim təzyiqimi ölçəndən sonra gözlərimə , dilimə baxdı "nimesil" və "teraflu" adlı dərmanları isti suda bir -birinə qatıb mənə içirtdi . Bir də biyan kökündən hazırlanmış , üstündə ilan şəkli olan yapışkan "isindiricini" kürəyimə yapışdırdı. Biləndə ki, ürəyimin, gözlərimin müalicəsini yarımçıq atıb bura gəlmişəm, hətta məni ərkiyanə danladı. Gülümsəməklə cavab verib 2-ci çadırı da tərk edirəm. 3-cü otaq meydanda ayaq üstə durmaqdan yorulmuş etirazçıların təxminən 10-15 dəqiqə oturması, dincəlməsi üçündür. Mən 10-15 dəqiqə deyirəm, gənclərdə elə hövsələ nə gəzir çadırda o qədər otursunlar. Otaq boşdur. Vətənin dar günündə rahat oturmağı seçərlərmi heç?

4-cü çadıra getməyə hazırlaşırdım ki, İctimai televiziyanın çəkiliş qruppasına "yaxalanıram". Çoxdan tanıdığım I Qarabağ müharibəsinin veteranı, İTV-nin tanınmış müxbiri Şöhrət Eyvazov ekoetirazçıların mitinqi ilə bağlı fikirlərimi öyrənmək istəyir.





22 ildən çoxdur, Qarabağ əsas mövzum olduğu üçün həvəslə danışıram.

Rusiyadan xüsusi göndərilmiş Ruben Vardanyan separatçı quruma "dövlət naziri" seçilmədən öncə Qarabağ ermənilərinin Azərbaycan vətəndaşlığını almaq haqqında müraciətləri olduğunu, sülhə meyilləndiklərini qeyd edirəm. Vardanyanın gəlişi isə erməniləri növbəti dəfə separatizmə yönləndirdi. Milyardlarının hesabına Xankəndidə Azərbaycana qarşı 30 minlik mitinq, Qarabağa silah daşınması, bizə məxsus qızıl yataqlarının istismarı və sair separatçı addımlar Vardaniyanın cibini doldurmaq məqsədi ilə xalqını təhlükəyə atmasını kimi qiymətləndiririk.

Söhbətimi bitirib, 4-cü çadıra tərəf gedirəm. Burda öz işinin peşəkarı olan həmkarlarımı görməkdən məmnun oluram: Sevinc Vaqifqızı, Şəbnəm, Şöhrət Eyvazov, Məhəmməd Türkmən, İlqar Mikayıloğlu, Toğrul Allahverdili, Anar Yusifzadə, Mikayıl Həsənli.Elgün Gəncimsoy, Daşqın Abdullayev, Əhməd Məmmədov, Gündüz, İsmayıl, Fəridin və digərlərinin yığışdığı ümumi çadır.

Xankəndi-Laçın yolundakı etiraz aksiyasını işıqlandıran bu jurnalist və operator qrupu, çəkiliş avadanlıqlarının elektrikə olan ehtiyacını bu otaqda götürür, çəkilən şəkilləri, yazılan xəbərləri burda səhmana salıb məxsus olduqları xəbər agentliyinə göndərirlər.

Hamımızın əhval ruhiyyəmiz yüksəkdir. Belə ekstrim vəziyyətdə jurnalistlərin bir-birinə dəstəyi də adamı bir xeyli kefini açır.

Telefonla xəbər yazmağa öyrənmədiyim üçün çox əziyyət çəkirdim: M yazırsan N düşür, S yazırsan D düşür... Səhvləri də düzəltmək xeyli vaxt alır. Həmkarım Şöhrət Eyvazov durumumu görüb, öz şəxsi noutbuku könüllü olaraq ixtiyarıma verir. Sağ olsun! Uzun sözün qısası, çalışırdım ki, hazırlıqsız gəlsəm də saytımızı xəbərsiz , oxucularımı məlumatsız qoymayım.

Yeri gəlmişkən, burada erməni mediasını izləməməmək mümkün deyil. O qədər yalan informasiya paylaşırlar ki... Hətta başlarını itirmiş erməni mediası Hərbiand.az saytının əməkdaşı Mikayıl Həsənlinin Türkiyə Prezidenti R.T. Ərdoğanla olan fotosunda həmkarımızı Ərdoğanın agenti kimi təqdim edib...

Bir az da sizə 6-7 gün bu əraziyə təhkim olunmuş jurnalistlərin gündəlik məsuliyyətli və çətin işi barədə danışım: Bilirsiniz bu aralar Azərbaycanın ürəyi Xankəndi - Laçın yolunda döyünür, diqqətlər ora fokuslanıb. Belə bir ortamda medianın çiynində şərəfli olduğu qədər də ağır bir məsuliyyət var. Nəinki, Azərbaycan xalqını məlumatlandırmalı, həmçini dünya mediasına da həqiqətləri çatdırmalıdır. Üstəgəl, yalan və -böhtan tirajlayan erməni mediasını faktlarla susdurmalıdır. Şaxtalı havaya baxmayaraq gün ərzində 18 saat - 20 çəkilişlər aparan medianın çay içməsi də, nahar etməsi də elə ayaqüstə baş verir. Bu prosesdə media nümayəndələrini əsl qəhrəman adlandırmaq olar. Saat 2 yaxud 3-dən sonra Şuşadakı "Xarıbülbül" otelində təmənnasız , ödəniş etmədən dincəlməyə gedirlər. Təbii ki, yerlərində mütləq növbətçi qoyulur. Səhər saatlarında- 7-də artıq komanda olaraq yenidən ərazidə cəmləşirlər.

İlk gecəni çadırda ayaqüstə keçirən mən, 2-ci gecə ordakı həmkarların məsləhəti ilə otelə gedirəm. Şəxsiyyət vəsiqəmi təqdim edirəm. Administrator kompyüterdə xeyliaxtarış etdikdən sonra bildirir ki, sizin adınız portalda yoxdur: "Sizə otaq düşmür. Amma istəsəniz yaxınlıqda hostel var orada gecələyə bilərsiniz!

Sevincək: Ödənişsizdir?

- Xeyir! Bir gecəsi 60 manatdır, otağa çay-kofe gətirilsə, əlavə 30 manat ödəməlisiniz!

Saata baxıram saat 3. Kədərlə düşüncələrə qapılıram:Məndə o qədər pul nə gəzir? Əgər pulum olsa belə 4 saat dincəlmək üçün 60 manatı necə ödəyim?Ödəməsəm, gecənin 3-də hara gedim, harda qalım?

Qeyri ixtiyarı qapıya tərəf addımlayıram, yox e, ayaqlarımı sürüyürəm. Birdən diqqətimi girişdə- vestübüldə yan-yana düzülmüş divan və kreslolar cəlb edir.

**Tez admistratorun yanına, geri dönürəm: "Bağışlayın, icazə olar, mən 2-3 saat burda oturum, bir balaca gözümün "acı"sını alım, dincəlim? Mənim başqa gedəsi yerim yoxdu!"**

**Administrator üzümə baxır...**

**Əntiqə Rəşid**

*Aqil ABBAS*

# YÜKSƏK VƏZİFƏLİ MƏMURUN BACIOĞLUSU NİYƏ SÖYÜŞ SÖYDÜ?

***2004-cü il. Mən və yüksək vəzifəli bir məmur ailəlikcə İstanbulda eyni oteldə qalırıq. Günortadı, yüksək vəzifəli məmurun otağında çay içirik. Məmurun İstanbulda yaşayan bacıoğlusu da dayısını görməyə gəlib.***

***Az.TV-də "Xəbərlər" proqramı gedir. Bacıoğlu da yüz ilin Azərbaycan həsrətlisi kimi diqqətlə "Xəbərlər" proqramını izləyir.***

***Naxçıvanın Şərur rayonunun bir kəndinin icra nümayəndəsi müsahibə verir, kənd camaatının necə xoşbəxt və firavan yaşadığından danışır və deyir:***

***- Kəndimizi bir nəfər də tərk etməyib.***

***Bacıoğlu qalxır ayağa və otaqdakıları da unudub var gücüylə möhkəm söyüş söyür:***

***- Yalançının...***

***Yazılması mümkün olmayan bir söyüş. Hamımız çaşırıq. Dayı qalxıb bacıoğluna tərs bir şapalaq vurur:***

***- Ə, küçük, qadınların yanında bu nə söyüşdü söyürsən?***

***Bacıoğlunun gözləri dolur, oturur, əlləri ilə üzünü tutub deyir:***

***- Dayı, bağışla, özümü saxlaya bilmədim. Görmürsən bizim kəndin icra nümayəndəsi nə deyir? Deyir ki, kənddən bir nəfər də çıxmayıb. Kəndimiz demək olar ki, köçüb İstanbula. Burda bir kənd salmışıq, öz kəndimizin adını da qoymuşuq. Özün də bilirsən. İndi qıpqırmızı yalan danışır.***

***Sonra da ağlamağa başladı.***

***Görən, İstanbuldakı həmin kənd yenidən doğma Şərura qayıda biləcəkmi və ya camaat qayıtmaq istəyəcəklərmi?***

***Məsələ budur. Yaşayarıq, görərik.***

***Amma bacıoğlu yaman söymüşdü eyy...***

# 20 yanvarda tıxacda qalmaq



**20 yanvarda tıxacda qalmağın bir şeyi yaxşıdır ki, aclıq gəlsə əlini uzatsan qutabdı, dönərdi, halın pisləşsə xəstəxanadı, susasan çayxanadı, işdir ölsən xalq da burdadır, lazım gəlsə heykəl qoyub dahi də elan edəcəklər. Hələ TV də var, çəkib göstərərlər.**



Faiq QİSMƏTOĞLU
faiqqismetoqlu@box.az

# Çox istədiyim adam – Rəşad Məcid!

**...Dünyada elə insanlar var ki, onlarla qohum olmasan da, qohum qədər adama doğmadılar... Onlarla qonşu olmasan da, qonşu qədər adama əzizdilər... Onlarla qardaş olmasan da, qardaş qədər adama yaxındılar... Və elə düşünürsən ki, bu adamlarla uzun müddətli otu-rub-durmusan, çörək kəsmisən, yoldaşlıq, dostluq və qardaşlıq eləmisən. Bu adamlar tək sənin üçün doğma deyillər. O qədə gözəl, o qədər yumşaq xasiyyətləri var ki, ətrafdakılar da onları çox istəyir, xətrini uca tutur və həmişə də özlərinə doğma bilirlər!...**

**...Bax, belələrindən biri də 1990-cı ildən tanıdığım, qardaş qədər, qohum qədər, dost qədər mənə yaxın olan Rəşad Məciddi! Və mənim Rəşad Məcidlə 1990-cı ildən dostluğum yaranıb. Özü də mən hər adamla çörək kəsən, dostluq eləyən və bir yerdə əyləşib dərdini bölüşən adam deyiləm. Bir qədər çətin, həm də qapalı insanam. Amma Rəşad Məcidlə o qədər bir-birimizə yaxınlaşdıq ki, sanki elə bildim mənim doğmamdı, əzizimdi, qardaşımdı. Mən Rəşad Məcidi bir yerdə işləyəndə daha yaxşı tanıdım. Gördüm ki, balam, bu, adi adam deyil ey! Ağayanə, mərd, sözünü deyən, dostluğa, çörəyə sədaqətli olan böyük bir ziyalıdı. O ziyalı ki, həmişə başqalarının mənafeyini özününkündən üstün tutub...**

**Deyirlər ki, Rəşad istedadlı şairdi, yazıçıdı, publisistdi. Mənim buna sözüm yoxdu! Rəşad nə qədər istedadlıdısa, nə qədər savadlıdısa və nə qədər səmimidirsə, ondan da böyük, ondan da uca onun vətənpərvərliyidi. Mən bu adamın Azərbaycanı, Qarabağı, torpaqlarımızı necə sevdiyini heç vaxt yaddan çıxara, unuda bilmirəm. Ona görə unuda bilmirəm ki, 1992-ci ilin mayın 8-də Şuşa erməni və rus birləşmələri tərəfindən işğal olunanda Rəşad işə gələndə doluqsunduğunu gördüm. Qəhər onu o qədər boğmuşdu ki, az qalaydı hönkürüb ağlasın, elə ağladı da! Redaksiyada dedi ki, mən mayın 11-də Laçına gedirəm. Kim getmək istəyirsə, gəlib mənə qoşulsun. 50-60 nəfərin arasından heç kimin səsi çıxmadı!**



**Bir Elşad Hacıyev (indi prokurorluq orqanlarında işləyir), bir də mən dedim ki, biz də sənə qoşulub Laçına gedirik! Gördüm ki, Rəşadın çöhrəsində bayaqkı qəm, kədər bir anlıq yoxa çıxdı və bir təbəssüm yarandı. Sabahı günü Rəşad yenə redaksiyaya gəldi və dedi ki, bəlkə siz getməyəsiz. Vəziyyət çox çətindi, mühasirəyə düşərik, ölə də bilərik!**

**...Amma Rəşad gördü ki, nə Elşad Hacıyev, nə də mən sözümüzdən dönən deyilik. Biz mayın 12-də Rəşadın "Jiquli"si ilə Laçına getdik və yolda Güləbirtdə postda olan əsgərlərimizdən müsahibə aldıq. Dedilər ki, beş dəqiqə bundan əvvəl ermənilərin vertolyotu bizim postu vurmaq istədi. Cəld tərpənib biz onların vertolyotunu vurduq. Ləngimədən üzü Laçına gedirdik və Laçında şəhər mərkəzində qərargaha baş çəkdik. Orda batalyon komandirləri ilə və Rəşadın dayısı Elbrus müəllimlə görüşdük. Hamı məəttəl qalmışdı. Biz "Jiquli" ilə Laçına necə gəlmişdik?! Hansı ki, həmin dövrdə hərbiçilərin özləri tankla, döyüş maşınları ilə aradan çıxırdılar. Hardasa 4-5 saat Laçının mərkəzinədə ləngidik və oranı da ermənilər top mərmisi ilə vurdular. Mərmi gəlib maşınların birinin üstünə düşdü. Bizə dedilər ki, burda dayanmaq olmaz, hər an ölümə bərabərdi. Batalyon komandirlərinin və Rəşadın dayısının təkidi ilə biz şəhərdən çıxmalı olduq. Ancaq eşitdik ki, yol bağlanıb, mühasirədə qalmışıq. Bir neçə saatdan sonra mühasirə yarıldı, ermənilərin mövqeyi darmadağın edildi və biz geri qayıtdıq! Geri qayıdanda Güləbirtdə müsahibə aldığımız əsgərlərin bir neçəsinin şəhid olduğunu eşitdik...**

**Bax, biz Rəşad Məcidlə Vətənin ən ağır, ən çətin günündə Vətənin yanında olmuşuq. Hətta şəhid ola biləcəyimizi bilə-bilə yenə yolumuzdan qalmamışıq, Laçına getmişik və sağ-salamat geri dönmüşük. Onda anam da sağ idi, qardaşlarım da! Nə Rəşadı, nə də Elşadı tək buraxmadım. Dedim, gedəcəyik Bəhmənliyə, bu axşam bizdə qalacağıq! Bəhmənliyə getdik, axşam bizdə qaldıq. Anam və qardaşım bizim Laçından qayıtdığımızı bilib bərk qorxuya düşdülər. Amma dedilər ki, şükür Allaha, sağ-salamat geri dönmüsüz! Anam Rəşadı da, Elşadı da bağrına basıb məni necə öpdüsə, onları da elə əzizlədi və hətta damarı çıxmış əllərini Rəşadın və Elşadın saçlarında gəzdirdi. Dedi ki, elə bilirəm, siz də mənim oğlumsuz...**

**...Kim nə deyir-desin, Rəşad Məcidə hər cür vəzifə yaraşır. Çünki o vəzifəyə gəlməmişdən öncə təpədən-dırnağa vətənpərvər, millətini və xalqını sevən, hətta onun yolunda ölümə getməyə hazır olan böyük bir ziyalıdır. Rəşad Məcid hansı vəzifədə işləyibsə, o vəzifəni şərəfləndirib. Vəzifə Rəşad Məcidə yox, Rəşad Məcid vəzifəyə yaraşıb. Yazıçılar İttifaqının katibi olanda da, müxtəlif vəzifələrdə işləyəndə də, "525-ci qəzet"in təsisçisi və baş redaktoru olanda da, həmin dəyərləri qoruyub saxlayıb. Nə başqaları kimi yerə, göyə sığmayıb, nə də özünü dartıb dağın başına qoymayıb. Mən Rəşad Məcidi 1990-cı ildə bir yerdə işləyəndə necə tanımışamsa, elə indi də elə tanıyıram. Yəni bu adamı şan-şöhrət, vəzifə və tutduğu mövqe heç vaxt dəyişdirməyib; elə həmin sadə, səmimi və gülərüz Rəşad Məciddi!**

**...Bir neçə gün qabaq Azərbaycanın tanınmış ziyalılarından biri olan rəhmətlik Məhəmmədəli müəllimin yas məclisində idik. Qəzetin redaktor müavini Yusif Rzayevlə qarşı-qarşıya əyləşmişdik. Rəşadı soruşdum. Dedi ki, görmədin, arxa tərəfdə əyləşib?! Amma mən Rəşadı görməmişdim. Gəlib əyləşmişdim Yusifin, Nizaminin və Nicatın yanında. Bir müddətdən sonra gördüm ki, Rəşad Məcid bizim masaya yaxınlaşdı, mənimlə hal-əhval tutdu və əl görüşdü. Bir daha yəqin etdim ki, Məcid kişinin oğlu Rəşadı heç bir vəzifə dəyişdirə bilməyib... Bir daha yəqin etdim ki, Rəşad Məcid indiki vəzifədən də yüksək yerlərə layiqdi... Bir daha yəqin etdim ki, onun çöhrəsindəki təbəssüm, hərəkətindəki ağayanalıq heç də elə-belə deyil... Bunlar kökdən və gendən gələn xüsusiyyətlərdi... Bunlar Allah-Təalanın hər insana bəxş etmədiyi çox müqəddəs və qeyri-adi dəyərlərdi... Və mən elə ona görə də Rəşad Məcidi çox istəmişəm, çox istəyirəm və çox istəyəcəm də!..**

**...Mən hər hansı bir yazımı qələmə alan kimi onun elektron variantını Azərbaycanın üç böyük ziyalısına - BDU-nun jurnalistika fakültəsinin kafedra müdiri, professor, mənim müəllimim və gözəl insan Cahangir Məmmədliyə, "525-ci qəzet"in təsisçisi və Yazıçılar İttifaqının katibi, Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcidə, tələbə dostum, dostluqda və yoldaşlıqda sədaqəti ilə seçilən, çox böyük televiziya mütəxəssisi, professor, Əməkdar jurnalist Qulu Məhərrəmliyə göndərirəm. Onlar da vaxtlarının az olmasına baxmayaraq, 5-10 dəqiqə keçməmiş yazıya baxırlar və bəzən də fikirlərini söyləyirlər. Bax, ondan sonra mən o yazıları saytda yerləşdirirəm və oxucular arasında paylaşıram. Bu böyük ziyalıların zamanı çox azdır. Amma hər birinə mənə vaxt ayırdıqlarına görə fürsətdən istifadə edib bir daha təşəkkürümü bildirirəm. Ən azından ona görə ki, onlar hər üçü ustaddır və bu böyük yazarların fikirləri mənim üçün çox dəyərlidir.**

**Mənim bu dünyada çox istədiyim adamlar barmaqla sayıla bilər və o barmaqla sayılan böyük ziyalılardan biri də dostum, qardaşım və həmişə istedadına, sadəliyinə və zəhmətkeşliyinə böyük hörmət bəslədiyim Rəşad Məciddi. Bu yazını çoxdan qələmə almaq istəyirdim. Amma baxırdım ki, nəsə çatışmır. Bəlkə də yenə nəsə çatışmır. Buna baxmayaraq, ürəyimin səsini eşitdim və ürəyimdə nə varsa, hamısını oxucularla bölüşdüm. Bu cür böyük ziyalılar tək mənim dostum deyil, bu xalqın, bu millətin işığı, nuru və sabahıdır. Onlar kimi aydınlar nə qədər çox olsa, millətimiz və xalqımız qaranlıqdan işığa çıxar, haqqı nahaqdan ayırar və işığa doğru addımlayar...**

# "TURAN QAPISI" NAXÇIVAN

## Bu strateji bölgəmizə qayıdışı necə təmin etməli?



*Elxan Şükürlü*

**Prezident İlham Əliyevin öz ata-baba yurdu, gözəl Şahbuzdan çıxan Fuad Nəcəfli kimi təmiz reputasiyalı, savadlı, hər hansı bir qruplaşmaya və ya oliqarxa bağlantısı olmayan, nisbətən cavan bir kadrı Naxçıvan Muxtar Respublikasında özünün səlahiyyətli nümayəndəsi təyin etməsi bütövlükdə bölgənin gələcəyi ilə bağlı atılacaq addımları da indidən proqnozlaşdırmağa imkan verir.**

Görünən odur ki, son 27 ildə sürətlə boşalan Naxçıvanın həyatında artıq yeni bir mərhələ başlayır və inşallah, bu mərhələ əhalinin kütləvi köçünün dayandırılması, bölgəyə yenidən qayıdışın təmin edilməsi, sosial həyatın canlandırılması və sürətli tərəqqi dövrü olacaq.

Hər kəs yaxşı bilir ki, Naxçıvandan əhalinin kütləvi köçünə əsas səbəb dözülməz dərəcədə sərt inzibati idarəçilik, monopoliya, işsizlik və gənclərin sosial həyatının yoxluğu olub.

Muxtar Respublikanın yeni rəhbərliyi də, ilk növbədə, bölgəyə qayıdışı təşviq edən addımlara daha çox diqqət yetirməlidir və yəqin ki, belə də olacaq. Çünki "Turan qapısı" Naxçıvana əhalinin kütləvi dönüşünü təmin etmək və böyük güclərin əsas diqqət mərkəzində olan bu strateji məkanı yad təsirlərdən qorumaq indi Qarabağa, Şərqi Zəngəzura qayıdışı təmin etmək qədər önəmli vəzifədir.

Bu gözəl yurdlarımızı biz zamanında doldurmazsaq, başqa güclər "yadlar"la dolduracaq, ora sahiblənəcək - necə ki, bu siyasət tarixən və indi də digər ölkələrdə həyata keçirilir!

Əlbəttə, Fuad Nəcəfli xalqdan çıxan, bölgənin problemlərinə yaxşı bələd, savadlı və prinsipial şəxs olsa da, ilk ayların onun üçün çox çətin keçəcəyini də nəzərə almalı və fəaliyyətinin dərhal deyil, zamanla, nəticəylə qiymətləndirilməsinə daha çox üstünlük verməliyik. Çünki o, bir tərəfdən, kritik bir dönəmdə və olduqca strateji bir bölgədə həm siyasi sabitliyin qorunub saxlanmasını təmin etməli, həm 27 il ərzində sıxışdırılıb güncə sıxılmış, haqqı tapdanmış, malı-mülkü əlindən alınmış, ah-naləsi indiyədək eşidilməmiş əhalinin üst-üstə qalaqlanan sayısız şikayətlərini dinləyib araşdırmalı, onların ədalətli həllinə nail omalı, o biri tərəfdən də, kütləvi şəkildə Naxçıvanı tərk etmiş insanların bölgəyə qayıdışına gətirib çıxaracaq layihələr həyata keçirməlidir.



2019-cu ildən bu yana həyata keçirilən kadr islahatlarının təcrübəsi göstərir ki, postundan uzaqlaşdırılan "köhnələr" "yenilər"in işbilməz, özlərinin isə əvəzedilməz olduqlarını nümayiş etdirmək üçün müxtəlif şayiə və dezinformasiyalarla, çirkli pullarla zamanında xaricə yerləşdirdikləri və bəslədikləri şəxslər vasitəsi ilə onları əvəzləmiş kadrları ləkələməyə, gözdən salmağa çalışır, görülən ən yaxşı işləri belə, qəsdən sabotaj edirlər.

Böyük ehtimalla, həm Talıbovun 27 il ərzində bölgədə formalaşdırdığı və Muxtar Respublikanın bütün iqtisadiyyatını, sərvətini əlində cəmləmiş klan, həm də Talıbovun yerinə öz namizədini keçirmək istəyən, ancaq bu istəyinə çata bilməyən Bakıdakı naxçıvanəsilli oliqarxlar çalışacaqlar ki, ənənəvi metodlarını indi Fuad Nəcəfliyə qarşı da tətbiq etsinlər...

Sözsüz ki, belə situasiyadan çıxışın ən yaxşı yolu təcrübəli, yüksək intellektual hazırlığa və enerjiyə malik, Muxtar Respublikanın hər bir rayon və kəndinin camaatının, nəsillərin xarakterik xüsusiyyətlərini bilən nüfuzlu şəxslərdən ibarət idarəetmə komandasının formalaşdırılmasıdırsa, digəri də yeni rəhbərin özünün xalqla davamlı təması, vətəndaşlarla birbaşa ünsiyyət imkanlarını artırması, müntəzəm şəkildə xalqın içərisində olmasıdır.

Həyat sübut edir ki, insanlar eşitdiklərinə yox, gördüklərinə daha çox inanırlar və öncə xalqın inamını qazanmaq üçün də Fuad Nəcəfli özünün üstün keyfiyyətlərini, Talıbov idarəetməsindən fərqli bir idarəetmənin artıq Naxçıvana gəlib çatdığını camaatımıza əyani şəkildə göstərməyi bacarmalıdır.

Əlbəttə, çox yaxşı olardı ki, ilk məzmunlu və ümidverici çağırışlardan biri Talıbovların sıxışdırıb Naxçıvandan məqsədli şəkildə uzaqlaşdırdıqları nüfuzlu adamlara, xüsusilə də Naxçıvanəsilli biznesmenlərə olsun.

Son 30 ildə istər Azərbaycanda, istərsə də Azərbaycandan kənarda əslən Naxçıvandan olan xeyli varlı adamlar ortaya çıxsalar da, onlar yerli camaatın sevgisini və hörmətini qazanmasınlar deyə, Talıbovlar onları Naxçıvana buraxmırdılar. İndi bu qadağanı götürmək və hər hansı təmənna güdməyən naxçıvanlılara rayonlarını, kəndlərini dirçəltmək, bölgəyə kapital yatırmaq, iş yerləri açmaq və Azərbaycanın və dünyanın müxtəlif yerlərinə səpələnmiş qohum-əqrabalarını yenidən o boşalmış müqəddəs yurd yerlərimizə qaytarmaq imkanlarının yaradılması vaxtıdır...

Naxçıvanımızı qızdıran, isidən Günəş gözəl təbiətə, olduqca saf və zəhmətkeş əhaliyə malik əzəmətli Şahbuz dağlarından doğur. Mən çox istərdim ki, bizim gözəl və ucqar Kolanı kənd müəllimlərinin yetirməsi olan Fuad Nəcəflinin adı da Naxçıvanımızın ən islahatçı və qurucu, ən ədalətli, zəhmətiylə tükənməz xalq sevgisini qazanmış ən bacarıqlı rəhbərlərindən biri kimi tarixə düşsün!

Çünki o, indi təkcə bir ailəni, bir nəsli yox, həm də uzun illər gözdən-könüldən uzaq saxlanılmış gözəl bir kəndi, qədim bir el-obanı, bir rayonu, dünyaya yenidən Günəş kimi doğa biləcək bir bölgəni təmsil edir!

Mən bütün vicdanlı və qeyrətli naxçıvanlılarımızı bu mərhələdə Fuad Nəcəfliyə dəstək verməyə, "Turan qapısı"nı qorumaqda və Cənnətə aparan yola çevirməkdə ona yardımçı olmağa, yırtıcılar qarşısında tək qoymamağa çağırıram!

**Allah köməyi, qədəmləri isə məmləkətimizə uğurlu olsun!**

# *Anası Vətən uğrunda iflic oldu, gözlərini itirdi...*

***Qazi Mustafa Kamal Paşa 27 yanvar 1923-cü ildə İzmir Karşıyakada anasının məzarını ziyarət edərkən belə bir çıxış edir:***

***"Zavallı anam cəsədini bütün xalq üçün idealı olan müqəddəs İzmir torpağına verib.***

***Dostlar, ölüm yaradılışın ən təbii qanunudur. Ancaq belə olsa da, bəzən nə qədər acınacaqlı mənzərə baş verir. Burada yatan anam bütün xalqı fəlakətə sürükləyən özbaşına idarəçiliyin qurbanı olub. Bunu izah etməyə icazə versəniz, onun ağrılı həyatının bir neçə konkret məqamını təqdim edərdim:***

***Əbdülhəmidin dövründə idi. 1905-ci ildə mən qərargah kapitanı kimi məktəbi təzəcə tərk etmişdim. Həyatda ilk addımı atırdım. Amma bu addımməni zindana aparıb çıxardı.Doğrudan da, bir gün məni aparıbrepressiyaidarəsinin zindanına saldılar.Aylarla orada qaldım. Anam bundan ancaq həbsdən çıxandan sonra xəbər tutdu. Və dərhal məni görməyə qaçdı və İstanbula gəldi. Amma mən onunla orada cəmi üç-beş gün görüşə bildim. Çünki repressiya idarəsinin casusları və cəlladları qaldığımız evi mühasirəyə alıb məni apardılar.***



***Anam ağlaya-ağlaya arxamca gəldi. Məni sürgün yerinə aparacaq bərəyəmindirilərkən mənimlə görüşməsinəmaneə törədilənanam Sirkeci estakadasında göz yaşları və kədər içində qaldı.***

***Qürbətdə yaşadığım təhlükələr onun həyatının ağrı-acı içində, göz yaşları içində keçməsinə səbəb oldu.***

***Başqa bir məqam: Mübarizə zamanı Anadoluya keçəndə anamı İstanbulda ağrılı vəziyyətdə qoyub getməli oldum. Xəlifənin və sultanın mənim haqqımda verdiyi ölüm hökmünün yerinə yetdiyini zənn etdi və bu fikir onu iflic etdi.***

***Bundan sonra onun bütün mübarizə illərində ömrü ağrı-acı içində keçib. Qaldığı evə basqın edilib, axtarış aparılıb, səbəb və bəhanələrlə narahat edilib.***

***Anam üç il yarım gecə-gündüz göz yaşları içində keçirdi.***

***Bu göz yaşları onun gözlərini itirməsinə səbəb oldu.***

***Nəhayət, çox yaxınlarda onu İstanbuldan xilas edə bildim. Mən onunla görüşə bildim;o, artıqmaddi cəhətdən ölü idi, yalnız ruhən yaşayırdı.***

***Şübhəsiz ki, anamı itirdiyim üçün çox kədərlənirəm. Ancaq məni bu kədərdən qurtaran, təsəlli verən bir məsələ var ki, o da vətənimizin viran qalmasına səbəb olan idarənin bir daha qayıtmamaq üçün yoxluq məzarına aparıldığını görməkdir. Anam bu torpağın altındadır, amma milli hakimiyyətəbədi qalsın.***

***Anamın məzarı önündə və Allahın hüzurunda and içirəm ki, millətin bu qədər qan tökərək qazandığı və saxladığı hökmranlığı qorumaq və müdafiə etmək üçün lazım olsa anamın yanına getməkdən heç vaxt çəkinməyəcəyəm.***

***Milli suverenlik naminə canımı vermək mənim üçün vicdan və şərəf borcu olsun!".***

***Oxuduğunuz kimi Atatürk silahdaşları ilə birlikdə millətin suverenliyi uğrunda mübarizə apararkən anası insult keçirib, ağlamaqdan gözlərini itirib.***

***Eminquey***

# Eyvazov: «Bu onu göstərir ki, Azərbaycan mediası erməni mediası üzərində qələbə çalır»

**Hava şəraitinin soyuq olmasına baxmayaraq, Şuşa-Xankəndi yolunda keçirilən etiraz aksiyası nikbin ruhda davam edir.**

Adalet.az xəbər verir ki, İctimai TV əməkdaşı, Qarabağ müharibəsi veteranı Şöhrət Eyvazov artıq 5 gündür fasiləsiz olaraq aksiyanı işıqlandırır.

Həmkarımız Ş.Eyvazov bildirdi ki, sosial şəbəkə hesabımızda ekoetirazçıların Xankəndi - Laçın yolundan- hadisənin mərkəzindən çəkilişlərimiz fasiləsiz və bir başa yayımlanır:"Baxış sayından və sosial istifadəçi rəylərindən anlamaq olur ki, Azərbaycan ictimaiyyətin nəinki gözü bu ərazilərdədi, hətta ürəyi də bizimlədir. Azərbaycan ordusunun ekoetirazçıların təhlükəsizliyini diqqətlə qoruması, aksiyadakı iştirakçıların həmrəyliyi, sanki bir ailənin üzvləri kimi bir -birinə qarşı qayğı göstərməsi, vətənpərvər soydaşlarımızın onları zəriri ehtiyaclarının(yemək, isti çay, şirniyyat, qalın geyim, iynə-dərman) ödəməsi izləyicilərin diqqətindən yayınmayıb.

Bəli, 5 gündür .Azərbaycan mediası nəinki öz soydaşlarımıza , eyni zamanda bütün dünyaya sübut edir ki, Xankəndi-Laçın yolunda baş tutan etiraz aksiyası ermənilərin dünyaya sırımaq istədiyi böhtan və yalanlarla heç bir əlaqəsi yoxdu.



Ermənistan rəsmilərinin, eləcə də Qarabağdakı separatçı qurumun "Azərbaycan Qarabağ ermənilərinə təzyiq göstərir" yalanlarını tirajlasa da, çəkilən videolar bunun əksini göstərir. Fikrimizdə yanılmadığımızın sübutu da odur ki, You-Tube səhifəmizdə birbaşa -canlı paylaşılan videoların rəy bölümündə tək azərbaycanlılar yox, bir çox xalqların nümayəndələri rəy bildirir. Azərbaycan gerçəkliklərini heç bir şərh, təbliğat aparılmadan verilməsi xarici ölkələrinin vətəndaşlarında əməlli-başlı fikir dəyişikliyi yaradıb. Nə vaxtsa erməni yalanlarına uyub, Azərbaycana qarşı fikir səsləndirənlər hazırda etiraf edirlər ki, onlar Azərbaycanın haqq mübarizəsini düzgün qiymətləndirə bilməyiblər. Bütün dünya 5 gündür görür ki, Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan Şuşa-Xankəndi yolunda QHT nümayəndələri, ekofəallar və könüllülərin iştirakı ilə keçirilən etiraz aksiyası dinc aksiydır və haqlı bir prosesdir. Bu gün xeyli sayda başqa ölkələrin nümayəndələrinin hadisələr haqqında düzgün şərh verməsi birbaşa Azərbaycan mediasının Ermənistan mediası üzərində qələbəsi də deməkdir".

Qeyd edək ki, bunadək ekofəallar Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərimizdə yerləşən "Qızılbulaq" və "Dəmirli" yataqlarının qanunsuz istifadəsinin qarşısının alınmasını və həmin yataqlarda monitorinqlərin aparılmasını tələb edirdilər.

**Əntiqə Rəşid**

# *Avtobuslar mikrob mənbəyidir*



**Bunu biz demirik ey, infeksionist həkimlərdən biri bildirib. Deyib ki, avtobuslar o qədər çirkli saxlanılır ki, orda müxtəlif viruslar özünə münbit şərait yaradır. Hepatitlər, Spid virusları və eləcə də koronavirus bu cür çirkli avtobuslarda baş alıb gedir. Çünki bu viruslar natəmiz mühitdə inkişaf edir, yayılır və böyük təhlükə törədir. Sözün düzü bu məlumatı oxuyandan sonra heç elə də təəccüblənmədik. Ən azından ona görə ki, bizim əksər avtobusların salonları və oturacaq yerləri heç ayda bir dəfə yuyulub təmizlənmir və dezinfeksiya olunmur.**

Məsələn, metronun "Neftçilər" stansiyasından Yeni Günəşliyə hərəkət edən 250 nömrəli marşrutda sərnişin daşıyan avtobusların əksəriyyətinin oturacaqları elə çirklənib ki, heç onu sabunla yusan belə, o çirk təmizlənən deyil. Təbii ki, belə çirkli avtobuslarda mənzil başına getmək çox təhlükəlidir. Ən azından gərək onda maska taxmadan bu cür avtobuslara minməyəsən. Bax, belə olanda adam mütəxəssisin dediyi və səsləndirdiyi fikirə inanmaya bilmir və düşünürsən ki, yeganə çıxış yolu avtobusa minəndə özünü qorumaqdan ibarətdi. Yəni maska taxmalısan, işə gedəndə və evə qayıdanda əllərini sabunla yumalısan!

# *Konqressmen saxtakarlıq etdiyini dedi*

**"Demokratiyanın beşiyi" ABŞ-da, nümayəndələr palatasının Hyu-Yorkda respublikaçılar partiyasından deputat seçilmiş Corc Santos etiraf edib ki, təqdim etdiyi rezyumedə təhsili və əmək fəaliyyəti barədə yalan məlumat verib.**



Konqressmen, qəzetin onun bioqtafiyasını araşdırması ilə bağlı yalanını şəhr edərkən bildirib ki, əslində heç bir universiteti bitirməyib: "Mən utanıram və təəssüf edirəm ki, rezyumemi yalandan bəzəmişəm". Bundan başqa Santos ailə vəziyyəti barədə də, seçki kompaniyası zamanı saytda güya anasının yəhudi olması, valideynlərinin İkinci Dünya müharibəsi zamanı nasistlərin əlindən qaçaraq ABŞ -a gəlmələri barədə də yalanlar uydurduğunu etiraf edib. Bunjnla yanaşı Santos bəyan edib ki, New York Timesin onu ifşa etməsindən sonra istefa vermək fikiri yoxdur. Konqressmenin fikirincə, özü haqqında verdiyi məlumatların saxta olması, onun nümayəndələ palatasındakı fəaliyyətinə mane olmayıb.

**Nə deyə bilərik, DEMOKRATİK ÖLKƏNİN "DEMOKRAT" VƏTƏNDAŞIDIR...**

**Rüstəm Hacıyev**

# ABŞ pezidenti Co Bayden qocaldığını etiraf etməlidir

**ABŞ-ın ahıl prezidenti Co Bayden ikinci dəfə prezidentliyə namizədliyini irəli sürmək iddiasından əl çəkərək artıq qocalıq dövrünü yaşadığını anlamalıdır.**

Xəbər verildiyi kimi, Milad bayram günləri ərəfəsində ABŞ-ı bürüyən təbii fəlakət - güclü qar çovğunları ilə bağlı minlərlə avia reyslər təxirə salınıb. Bayram günlərini qeyd etmək məqsədilə avia səfərlərə hazırlaşan vətəndaşlar arzularına çata bilməyiblər.



ABŞ -ın avia şirkətləri sərnişinlərin təhlükəsizliyi ilə bağlı minlərlə avia reysləri təxirə salmaq məcburiyyətində qalıblar. Onların gördükləri bu təhlükəsizlik tədbirləri prezident Baydeni özündən çıxarıb və o, amerikan avia şirkətlərini cəzalandıracağı ilə bağlı təhdid edib. Bayden bu barədə özünün Twitter səhifəsində yazıb.

Amerikan lideri qeyd edub ki, milad bayramı günləri ərəfəsində onun administrasiyası reysləri təxirə salan avia şirkətlərin buna cavab verməsi üzərində çalışır. "Bizim administrasiya avia şirkətlərin buna cavab verməsi üzərində işləyir"- deyə bildirib. ABŞ -da güclü qar covğunlarının tüğyan etdiyi bir vaxtda hətta qatarların belə reyslərini təxirə saldığı bir zamanda, təyyarələrin sərnişinlərin həyatlarını qorumaq üçün uçuşları təxirə salmasını dərk etməyən qoca Baydenin, dünyaya ağalıq etmək iddiasında olan bir dövləti necə idarə etməsi doğrudan da "cox maraqlıdır". Flight Aware portalının 27 dekabrda yaydığı məlumatında bildirilir ki, kəskin hava şəraiti ilə əlaqədar, Birləşmiş Ştatlarda 16 mindən çox avia reys təxirə salınıb. NBC News telekanalının məlumatına görə, ölkədə tüğyan edən qar çovğunu nəticəsində, ABŞ-ın müxtəlif ştatlarında ölənlərin sayı 63 nəfərə çatıb. Ən çox ölüm hadisəsi - 33 nəfər, Nyu-York ştatının Buffalo şəhərində qeydə alınıb. Bundan başqa ABŞ -ın 11 ştatında çovğun nəticəsində də həlak olanlar qeydə alınıb. Telekanalın məlumatına görə, Nyu-Yorkun qərbində güclü qar yağması ilə bağlı ölənlərin sayı arta bilər.

**Avia şirkətlər qoca Baydenin ağlıyla hərəkət etsəydilər, yəqin ki, həlak olan insanların sayı minlərlə ölçülərdi.**

**Rüstəm Hacıyev**

# *Bizim sürücülər qışa hazır deyillər*



**Əksər sürücüləri qar yağanda və yollar buz bağlayanda Allah saxlayır. Amma Allah da həmişə bir bəndəsini müdafiə edə bilmir. Çünki qurban olduğum Allahın milyardlarla bəndəsi var. Onları da qorumalıdır! Bizim sürücülər isə qarlı və şaxtalı havada avtomobilləri qış mövsümünə uyğun hazırlamır, "keçəl təkər"lərlə yollara çıxırlar. Daha doğrusu, qarlı və şaxtalı yollarda hərəkətə başlayırlar. Bu vaxtı avtomobil sürüşür və gedib ya yolda beton, yaxud dəmir arakəsməyə dəyir, ya da başqa avtomobillə toqquşur!**

Amma görünən odur ki, sürücülər qışa hazır olmalıdılar. Artıq dağlıq və dağətəyi rayonlara qar yağıb. Ona görə də bütün sürücülər avtomobillərin təkərlərini dəyişməli, qış mövsümünə uyğun şinlər taxmalı və digər texniki göstəriciləri də qaydaya salmalıdır. Maşının yağ sistemi dəyişdirilməli, qabaq şüşələrin siləcəkləri keyfiyyətli olmalıdır. Köhnə və nasaz siləcəklərdən istifadə olunmamalıdır.

Bu cür texniki göstəricilərdən sonra hər bir sürücü hava şəraitinə uyğun sürət həddi seçməli, qarlı və şaxtalı havada ara məsafəsi saxlamalı, bir sözlə, meteroloji durumu nəzərə almalıdır.

**Emil FAİQOĞLU**

# *Türkiyə ordusu 8 terrorçunu məhv etdi*

**Türkiyə ordusu Suriyanın şimalında 8 PKK terrorçusunu zərərsizləşdirib.**

Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat yayıb.

Məlumata görə, terrorçular "Zeytun budağı" və "Fərat qalxanı" əməliyyat bölgələrinə hücum edərkən məhv edilib.

# Ölümünə inanmadığımız dostlarımız

**...Dünyada ən ağır və kədərli xəbərlərdən biri yaxın dostunun, qohumunun ölüm xəbərini eşitməkdi. Məncə, bundan ağır, bundan kədərli və bundan sıxıntılı anlar yoxdu... Kədərli də olsa biz belə xəbərləri çox eşidirik; eşidirik ki, filan dostumuz Allahın dərgahına qovuşub... Eşidirik ki, yaxın qohumumuz dünyasını dəyişib... Eşidirik ki, uzun müddət qonşuluq elədiyimiz insan rəhmətə gedib... Bütün bunlar həyatımızın yaşam tərzidir. Amma elə dostlar, elə qohumlar və elə qonşular var ki, onların ölümünü sakitliklə qarşılaya bilmirsən və daha doğrusu, o insanların ölümünə inanmırsan...**









...Bizim də uzun müddət dostluq elədiyimiz, çörək kəsdiyimiz və hətta ən ağır gündə bir yerdə olduğumuz dostlarımız dünyasını dəyişiblər. Bu xəbərlər əlbəttə, istər-istəməz ürəyimizə, qəlbimizə bir kədər gətirib. Ən ağır anlarda və çətin məqamlarda həmin dostlarımızı itirdiyimizə görə, uzun müddət özümüzə gələ bilməmişik. O dostlar ki, biz onlarla nə az, nə çox, 20 il bir yerdə işləmişik, çörəyimizi yarı bölmüşük, xeyirimizdə, şərimizdə bir-birimizi tək buraxmamışıq...

O dostlarımızın adını və soyadını bir daha xatırlamaq istəyirəm: Nazim Ağamirov - uzun müddət "Ədalət" qəzetinin baş redaktorunun birinci müavini işləyib, sonra Həmkarlar İttifaqı Konfederasiyasında Mətbuat Xidmətinin rəhbəri olub. Məhəmmədəli Mustafa - düz 20 ilə yaxın qəzetimizdə elm və təhsil şöbəsinin müdiri vəzifəsində çalışıb. Sonradan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutunda baş elmi işçi vəzifəsində işləyib. Filologiya elmləri doktou, professoru idi. Lətif Süleymanlı - qəzetimizdə məktublar şöbəsinin müdiri olub, filologiya elmləri namizədi və eləcə də tanınmış jurnalist idi. Sonradan özü qəzet təsis etdi və onun redaktoru oldu. Qələndər Xaçınçaylı - şair-publisist, qəzetimizdə şöbə müdiri vəzifəsində çalışıb. Bizdən ayrılandan sonra "Həftəiçi" qəzetində şöbə müdiri idi və "Tərəqqi" medalına layiq görülmüşdü.

Biz bu dostları tək olum və ölüm günündə yox, həmişə xatırlamışıq və bu gün də xatırlayırıq! Məhəmmədəli Mustafanın qardaşı, elmlər namizədi və kolleclərin birində məsul vəzifədə çalışan Azər Mustafayev bizi - daha doğrusu Məhəmmədəli müəllimin dostlarını arayıb-axtarıb və bir süfrə arxasına yığıb. Bizim ilk görüşümüz Məhəmmədəli müəllimin ildönümü tamam olmamışdan öncə olmuşdu. O görüşdə Asif Talıboğlu, Lətif Novruzov və bu sətirlərin müəllifi iştirak eləmişdi. Bu görüşdən də əvvəl Məhəmmədəli müəllimlə biz üçümüz "Neftçilər" metrostansiyasının yaxınlıqdakı kafedə görüşmüşdük, bir tikə çörək kəsmişdik və demişdik ki, Tovuza gedərik, Lətif Süleymanlının məzarını ziyarət edərik. Amma 10 gün keçmədi ki, Məhəmmədəli qardaşımız qəflətən dünyasını dəyişdi. Yəni, o dərd yaddan çıxdı, bu dərdlə güləşməli olduq. Azər müəllimlə üçüncü dəfə idi ki, bir süfrə arxasında əyləşirdik. Sözümüzün əvvəli də, axırı da onun qardaşı Məhəmmədəli müəllim, Nazim müəllim, Lətif müəllim və Qələndər müəllimlə bağlı oldu. Onlarla əlaqədar xatirələrimizi yada saldıq, bir az kövrəldik, bir az doluxsunduq və bir az da sakitlik tapdıq. İnsan öz əzizlərini yada salmaqla, xatırlamaqla həm də bir təsəlli tapır. Azər müəllimin son görüşümüzdə dediyi bir söz heç vaxt yadımdan çıxmır və çıxmayacaq. Azər müəllim dedi ki, məndən soruşsalar dost necə olar? Deyərdim ki, dost Faiq Qismətoğlu kimi, Asif Talıboğlu kimi, Lətif Novruzov kimi olar. Çünki bu dostlar mənim ağır günümdə düz 40 gün bizdə oldular, dərdimizə şərik çıxdılar. Mən onları görəndə qardaşım Məhəmmədəli müəllimin qoxusunu alıram. Bax, bu gün də söhbətimizin əvvəli də, axırı da rəhmətə gedən dostlarla bağlı olur. Bir daha aydın olur ki, doğrudan da adını çəkdiyim qardaşımın bu dostları çox sədaqətli, çörəyə hörmətlə yanaşan, ağır gündə insanları tək buraxmayan böyük ürək sahibləridir.

Deyirlər ki, heç bir insan dünyasını dəyişsə də, ölmür. O vaxta qədər ki, ölmür, onu axırıncı xatırlayan sağ qalır. Bu dostları isə nəinki biz, bütün qohum-əqrəbası, yaxınları, əzizləri yada salırlar. Mən çox qardaş görmüşəm, amma Məhəmmədəli müəllimin qardaşı Azər Mustafayev kimi etibarlı qardaş az-az görmüşəm. Bu bir daha təsdiq edir ki, Mustafayevlər ailəsi zəngin tarixə və qədim bir keçmişə malikdir. Hətta onların babasının həyəti ocaq kimi ziyarətə çevrilibmiş. Deməli, bu nəsildə etibar, sədaqət, duz-çörəyə hörmət kökdən gəlir.

**Rəhmətə getmiş dostlarımız haqqında bir qədər ətraflı danışmaq istəyirik. Ağamirov Nazim İsmayıl oğlu çox böyük bir ziyalı idi.** Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsini bitirmişdi. Bir müddət Ərəb ölkələrində tərcüməçi işləmişdi. 1990-cı ildə bizim qəzetdə məsul vəzifədə çalışırdı. Sonradan baş redaktorun birinci müavini təyin edildi. O, bu vəzifəyə təyin ediləndə yaxın dostlarımızdan biri Lətif Süleymanlı dedi ki, Nazim müəllim bu işi bacarmaz. Amma Nazim müəllim bu vəzifəyə keçən kimi sübut etdi ki, o idarəetməni, kollektivdə sağlam mühit yaratmağı çox gözəl bilir. Sonradan Lətif müəllim gəldi onun yanına, dedi bağışla, sənin haqqında səhv eləmişəm. Nazim müəllim də özünəməxsus bir hərəkətlə gülümsədi. Dedi ki, Allah bağışlasın! Ümumiyyətlə, Nazim müəllim bu vəzifədə olanda öz ağayanalığı, gözütoxluğu, ləyaqəti və şərəfi ilə uca bir mövqe tutdu. Oturuşu da, duruşu da, bəy kimi idi. Heç kimin qabağında əyilməz və heç kimin qarşı da ədalətsizlik eləməzdi. Hamını öz dilində danışdırmağı bacaran adam idi. Xəbərçi adamlardan, yaltaqlardan zəhləsi gedərdi və ona görə də hansısa adam onun yanına gedib kimisə "baqaja" qoya bilməzdi. Bir sözlə, o, kişi ömrü yaşadı və kişi kimi də Allahın dərgahına qovuşdu!..

**Mustafayev Məhəmmədəli Bayram oğlu isə tam başqa dünyanın adamı idi. Özünəməxsus şirinliyi, yumoru və qeyri-adi xasiyyəti vardı.** Qəzetimizə gəlməmişdən öncə hansısa jurnalda işləyirdi və 25 yaşında müdafiə edərək filologiya elmləri namizədi olmuşdu. Qəzetimizin ən çətin, ən ağır günlərində çiynini o yükün altına vermişdi. O qədər sadə, səmimi adam idi ki, hamımız onu çox istəyirdik. Onunla mən 1990-cı ildən dostluq eləyirdim. Evimə, ailəmin yanına mən heç kimi aparmazdım, ancaq onunla gedərdim. O da başını qaldırıb bir qadına belə baxmazdı. Anam rəhmətlik deyərdi ki, bala, bu sənin dostun çox namuslu adamdı, onunla axıra qədər dostluq elə! Və biz axıra qədər də dostluq elədik, nə az, nə çox 30-40 dəfə Füzulidə, Bəhmənlidə olduq. Mən də onların evlərinə, ocaqlarına gedirdim. Böyük bacısı Bacıxanım çox ziyalı qadındı. O da elmlər namizədidi. Biz onlara gedib xəngəl yeyərdik. Xəngəl də elə-belə xəngəl deyildi ey! Hərəyə bir sini xəngəl bişirərdilər. Biz də onu gözümüzə təpərdik! Sonradan Məhəmmədəli müəllim Akademiyada işə düzəldi, elmlər doktoru oldu, professor vəzifəsinə seçildi. Elə gün olmazdı ki, onunla telefonla danışmayaq. Bir sözlə, o tək bir evdən yox, həm də məndən getdi!..

**Süleymanlı Lətif Adil oğlu. Onunla da çox yaxın dostu olmuşuq. Qəzetimizdə şöbə müdiri işləyib.** Tənqidi yazılarımıza görə, dəfələrlə bizə hücum ediblər, hətta şillə-təpik atıblar, hətta həmin şillə-təpik atanları elə susdurmuşuq ki, dədələrinin toyu yadlarına düşüb. Çünki biz nədən, necə yazmağı yaxşı bilirdik. Lətif həm də filologiya elmləri namizədi idi.

1990-cı ildə Qarabağda vəziyyət gərginləşəndə dəfələrlə Gədəbəydən, Qazaxdan, Tovuzdan, Ağstafadan reportajlar, zarisovkalar və müxtəlif məqalələr yazmışdı. Özü də indikilər kimi gedib şəkil çəkdirməyib və özünü reklam eləməyib. Lətif Süleymanlı Azərbaycan mətbuatı tarixində mülki işlərdən yazmağı bacaran ən yaxşı jurnalistlərdən biri idi. Mənim özüm əvvəllər mübahisəli mülkü məsələlərdən yazmağa cəsarət eləmirdim. Amma Lətifinköməkliyi ilə öyrəndim və yavaş-yavaş o yazıları da yazdım. Qızı Leyla ilə tez-tez əlaqə yaradırıq. Görürəm ki, hər dəfə danışanda gözləri dolur. Deyir ki, atamın yerini heç kəs verə bilmir. Oğlum Məhəmməd, qızım Aytac həmişə onu axtarırlar. Nə yaxşı ki, heç olmasa siz hərdənbir bizə zəng edirsiz. Elə atamın qoxusunu səndən alıram! Bir sözlə, Lətif Süleymanlı çox mərd, işini bilən və heç kəsin qarşısında əyilməyən cəsarətli bir jurnalist idi.

**Xaçınçaylı Qələndər İslam oğlu çox istedadlı şair, publisist və jurnalist idi. Çoxlu sayda kitabları çıxmışdı.** Mən dünyada onun qədər əzabkeş, zəhmətkeş, cəfakeş adam tanımıram. Çünki qardaşı rəhmətə gedəndən sonra onun da ailəsini Qələndər dolandırardı. Bir dəfə otaqda əyləşmişdik, Lətif Süleymanlı da orda idi. Gördüm ki, Qələndər gəldi və gözü dolmuş halda yanımızda əyləşdi. Dedi ki, çox əziyyət çəkirəm. Ayaqqabısını çıxarıb, ayaqlarının qabarını göstərdi. Piyada gəzməkdən və ora-bura qaçmaqdan ayaqlarım bu günə düşüb. Lətif Süleymanlı onun ayaqlarına baxıb kövrəldi və çıxarıb cibinə pul qoydu ki, apar, qardaşın balalarına xərclə! Aqil Abbas da həmişə Qələndərə arxa dururdu və maddi cəhətdən çox köməklik göstərirdi. Və Qələndər də özünəməxsus bir şirinliklə deyərdi: "Sizi verənə şükür!". Qələndər Xaçınçaylı ən gözəl şeirlər yazırdı. Onun şeirlərindən iki misrası hələ də yadımdan çıxmayıb:

*Sapanda qoyulmuş bir daş kimiyik,*
*Bizi hara gəldi atıblar, qardaş!...*

Şeirləri kimi özü də sadə və səmimi idi...

**...Nə isə... Allah hər dörd dostumuzun günahını bağışlasın və məzarları nurla dolsun! Bu xatırlamalar həm də Yeni il qabağı dostlarımızın ruhunun sevinməsi deməkdir. Heç kim ruh haqqında tam təsəvvürə malik deyil. Ancaq müqəddəs "Qurani-Kərim"də buyurulur ki, ruh var və onun haqqında Allah-Təala Peyğəmbərimizə az bilgi verib. Biz varıqsa, dostlar varsa, qohumlar varsa, Nazim Ağamirov da yaşayacaq... Məhəmmədəli Mustafa da yaşayacaq... Lətif Süleymanlı da yaşayacaq... Qələndər Xaçınçaylı da yaşayacaq... Yazımızı dostumuz və qardaşımız, istedadlı şair Asif Talıboğlunun bir şeiri ilə bitirmək istəyirik:**

*Kamil insan, xəyala dal,*
*Taleyinlə baş-başa qal.*
*Külüng çaldın misqal-misqal,*
*Nə qopardın bu dünyadan?!*
*Nə qopardın bu dünyadan?!*

*Yalandandı hayı-huyu,*
*Gülə-gülə tutur toyu.*
*Axtarsaydın ömrün boyu,*
*Nə tapardın bu dünyadan?!*
*Nə tapardın bu dünyadan?!*

*Gəl atını əylə görüm,*
*Getmə belə göylə görüm.*
*Talıboğlu, söylə görüm?!*
*Nə apardın bu dünyadan?!*
*Nə apardın bu dünyadan?!*

**Faiq QİSMƏTOĞLU**

---

*Rüstəm Hacıyev*



## Dünyanın bəlasına çevrilmiş narkotik həblər

*Aprel ayının sonlarında Səudiyyə Ərəbistanının daxili işlər nazirliyi, içərisində ailə üzvləri qalan evini yandıran 20 yaşlı kişini həbs edib. Tamamilə yanıb külə dönən evdə onun arvadı, kiçik oğlu və qızı diri -diri yanaraq tanınmaz hala düşüblər. Onlar həmin vaxt oyaq olublar və kişinin onların yatdıqları otağın qapısını necə bağladığını, evin divarlarına benzin tökdüyünü və sonra necə od viraraq yandırdlğını eşidiblər. Bütün bu vaxt ərzində ailə üzvləri nə qədər qışqıraraq köməyə çağırsalar da, onların imdadına yetişən olmayıb. Onların cəsədləri yanaraq tanınmaz hala düşüb.*

*20 yaşlı kişinin bu hadisəni törətməsi səbəbinə tezliklə aydınlıq gətirilib. Səudiyyə Ərəbistanı Şərqi əyalət polisinə ilkin araşdırmalardan sonra məlum olub ki, kişi hadisəni törədərkən güclü metamfetamin və yaxud "Şabu" adlanan narkotik dərmanın təsiri altında olub.*

*Ölkənin KİV-ləri narkotikdən istifadə edənlərin sayının günbəgün artmasından marahatlıq keçirərək həyacan təbili çalmaqdadırlar.*

*Narkotik kontrabandaçılarının mərkəzi sayılan İordaniya və Suriya ilə sərhədlər Ərəb Krallığının baş ağrısına çevrilib. Məhz bu sərhədlərdən ölkəyə külli miqdarda narkotik vasitələr keçirilir Kondrabandaçılar Suruiyada yetişən narkotik vasitələri "Nəsib" sərhəd keçid məntəqəsindən İordaniyaya, ordan isə Yaxın Şərq ölkələrinə keçirirlər. Suriyada istehsal olunan narkotiklər, Yaxın Şərqin qarşısıalınmaz probleminə çevrilib.*

*Waşhington İnstitute araşdırmaçıların gəldiyi qənaətə görə, narkotika istehsalının arxasında Suriya, İran rəhbərliyi və "Hizbullah" terror təşkilatı dayanıb. Təkcə 2020-ildə Suriyanın Əfqanıstan, İran, İsrail və Livan vasitəsi ilə Yaxın Şərqə daşıdıqları narkotiklərin dəyəri 3,46 milyard dollar səviyyəsində olub.*

*Suriyada istehsal olunan, narkotik maddə sayılan "kapiton" həbləri artıq Avropa Birliyi ölkələrinə də ayaq açmaqdadır. Beləki Rumıniya hökuməti 2020-ci ildə ümumilikdə 751 kq, yəni 4 milyondan çox "kapiton" həblərini müsadirə edib. Bu il isə İtaliya narkotacirlərdən milyard dollar dəyərində "kapiton" həbləri müsadirə edib. Fevral ayında Yunanıstan hökuməti də "kapiton" həbləri daşıyan gəmini saxladıqları barədə məlumat verib. İtalya və Yunanıstan hakimiyyəti güman edirlər ki, İŞİD terror təşkilatı digər dövlətlərə narkotik daşınmasından küllü miqdarda vəsait əldə edirlər. Bildirilir ki, narkotik ticarətinə rəhbərlik edənlər, əsasən Suriya və İran hakimiyyətləridir. İordaniya Hərbi Qüvvələrinin tibb departamentinin direktoru Mustafa əl- Hiyari təsdiq edir ki, ölkə ərazisindən keçən narkotrafikə Suriya və İran hərbi qruplaşmaları nəzarət edirlər.*

*Hərbi analitik, İstefada olan general mayor Fəyaz Dveyri bildirir ki, narkotik ticarətinə "Hizbullah" təşkilatı nəzarət edir və bundan yaxşı gəlir əldə edirlər. Generalın fikirincə, ABŞ İran üçün maliyə sıxıntıları yaratdığına görə, "onlar başqa gəlir mənbələri axtarmaqla məşğuldular".*

*İordaniya Hərbi Qüvvələrinin polkovniki Zayd əd-Dabbas BBC News-ə verdiyi müsahibəsində qeyd edib ki, hazırda, ən azı 160 kontrabanda qrupu narkotik daşımaları ilə məşğul olur və hətta bunun üçün dronlardan da istifadə edirlər.*

*Hərbiçilər də etiraf edirlər ki, narkotik kontrabandaçıları ilə mübarizə aparmaq getdikcə daha da çətinləşir. Görünən odur ki, narkotik istehsalçılarına, alverçilərinə, istifadəçilərinə qaşı ölüm hökmü çıxarılmayana qədər, "ağ ölüm" gətirən narkotikanın qarşısını almaq münkün olmayacaq.*

*"Lenta.ru" saytının materiallarından istifadə olunub*

---



*Asəf Quliyev*

## RUSİYA AZƏRBAYCANA GÜC GÖSTƏRİR

### BUNUN CAVABI VERİLMƏLİDİR

*Bu gün Xankəndi şəhərində təşkil olunan mitinq əslində Rusiyanın Azərbaycana güc nümayişi kimi qəbul edilməlidir. Səslənən bəyanatlar, aksiyanın lideri deməyə əsas verir ki, Rusiya Azərbaycanın Laçın-Xankəndi yolunda keçirdiyi dinc aksiyanı özünə qarşı Azərbaycanın demarşı hesab edir və buna cavab verir. Əslində Rusiya Qarabağ ermənilərini bu məqsəd üçün istifadə edir.*

*Azərbaycan dərhal Rusiyaya nota verməli. Buna əsas kimi bu ilin fevralında imzalanmış müttəfiqlik bəyanatına istinad etməlidir. Rusiya vətəndaşlığndan çıxardılmış Ruben Vardanyanın Qarabağda separatçı hərəkata başçılıq etməsi birmənalı qiymətləndirilməli və Rusiyadan Azərbaycanın ərazi bütövlüyünə təhdid olan bu şəxsin dərhal zərərsizləşdirilməsi (həbsi və ən yüngül halda Qarabağdan çıxarılması) tələbi qoyulmalıdır.*

*Bununla yanaşı Azərbaycan Ruben Vardanyanla bağlı Beynəlxalq platformalarda (İnterpol və sairə) hüquqi təqib proseduru başlamalıdır. Azərbaycan Respublikası Baş Prokurorluğu separatizmə çağırış və dəstək ittihamları irəli sürməli və bununla bağlı əlaqədar beynəlxalq strukturlara müraciət etməlidir.*

*Rusiyaya qarşı yerli mətbuat orqanlarında ciddi mövqe ortaya qoyulmalı, Rusiyanın Azərbaycanda mövcud iqtisadi maraqlarını təmin edən strukturlarla bağlı təzyiq mexanizmləri müzakirəyə çıxarılmalıdır.*

*Rusiyadakı diaspora və səfirlik aktivləşdirilməlidir.*

---

## *Co Bayden: "Ukrayna Rusiya ilə dialoqa hazırdır"*

**ABŞ prezidenti Co Bayden Ukrayna prezidenti Volodimir Zelenskiylə körüşdən sonra keçirilən mətbuat konfransında bəyan edib ki, Ukrayna Rusiya ilə sülh dialoquna açıqdır.**

Bununla yanaşı Bayden qeyd edib ki, Rusiya prezidenti "müharibəni dayandırmaq niyyətində deyil". "Ona görə də, ABŞ cəsur ukraynalıların özünü müdafiə etməsi üçün lazımi köməklikləri edəcək".

Ukrayna lideri Zelenski çıxışı zamanı bildirib ki, ABŞ prezidenti ilə görüşə daha əvvəl gəlmək istəyirdu. Lakin ölkəsindəki çətin vəziyyət buna imkan vermirdi. Bu səfərin baş tutması, ABŞ və Qərb tərəfindən Ukraynaya göstərilən hərbi dəstək nəticəsində, bir sıra işğal olunmuş ərazilərə nəzarətin ələ keçirilməsindən sonra baş tutub.

Ukrayna prezidenti bəyan edib ki, vətəninə "möcüzəli xəbərlərlə" qayıdacaq. "Birləşmiş Ştatlarla əməkdaşlığın yeni mərhələsi başlayır. ötən 300 gün dövlətlərimiz arasında əsl əməkdaşlığa çevrilib".

Bundan başqa Zelenski, ABŞ Konqressinin Ukraynaya ayrıkacaq 45 milyard dollar vəsaiti təsdiq edəcəyinə ümid etdiyini bildirib.

**Rüstəm Hacıyev**

---

## "ABŞ müharibədə iştirak etmir?" Kimi aldadırsınız?

**Rusiyanın birinci telekanalının "Bolşaya iqra" verilişinə müsahibə verən xarici işlər naziri Sergey Lavrov bildirib ki, Rusiya ABŞ -dan Vaşinqtonun Moskvaya qarşı açıq müharibə aparmayacağı, həmçinin Ukraynaya verdikləri "Patriot" zenit raket komplekslərini idarə edə bilən mütəxəsislərini göndərməyəcəyi barədə rəsmi məlumat alıb.**

**"Hazırda biz Vaşinqtondakı şəfirliyimizin kanalları vasitəsi ilə maraqlandıq. "Patriot" zenit raket komplekslərinin çətin idarə olunmasını nəzərə alaraq, əminik ki, amerikan mütəxəsləri olmadan onlardan istifadə etmək mümkün olmayacaq. Bizə aydın şəkildə izah olundu ki, amerikanlar bir başa Rusiya ilə müharibəyə girməyəcək"- deyə nazir bilditib. Maraqlıdır, görəsən hər iki hegemon dövlətin yüksək çinli məmurları özlərinin söylədikləri yalanlara inanırlarmı? Rusiya- Ukrayna meharibəsini yaxından izləyən hər bir kəs bilir ki, ABŞ və Qərb bu müharibədə açıqdan-açığa iştirak edir. Bunu "ABŞ Ukrayna ilə müharibədə Rusiyaya qarşı döyüşlərdə iştirak etməyəcək" deyən Sergey Lavrov elə müsahibəsinin davamında öz sözlərini təkzib edir. "ABŞ-ın Kiyevdəki hərbi attaşesinin onlarla əməkdaşı Ukraynaya hərbi məsləhətlər verir, yüzlərlə hərbiçisi müharibədə iştirak edir" - deyə rusiyalı diplomat qeyd edib.**



**Nəzərə alsaq ki, NATO-ya üzv dövlətlərin də hərbi mütəxəsisləri Ukraynada "məslətlərini verir" və eyni zamanda Lavrovun da müsahibəsində bildirdiyi kimi, "ABŞ-ın Mərkəzi Kəşviyyat İdarəsinin əməkdaşları Ukraynanın Təhlükəsizik Xidmətinin binasının bir mərtəbəsini tutub", onda türklər demiş, bunun nərəsi "müharibədə iştirak etməməkdir"?**

**ABŞ Konqtessinin "Ukraynada amerika silahlarına nəzarət edilməlidir" tələbinə Pentaqonun rəsmisi "Biz çoxdan oradayıq və hər şeyə nəzarət edirik"- deyə cavab verib.**

**Bu da ABŞ -ın Rusiyaya verdiyi sözün bir çürük qoz dəyərində olmadığının göstəricisidir. Görünən odur ki, Rusiya XİN-nin rəhbəri Sergey Lavrov da yaxşı bilir ki, ABŞ və NATO Ukraynadadır və müharibədə birbaşa iştirak edir. Sadəcə ictimai fikri başqa səmtə yönəltmək istəyir.**

**Rüstəm Hacıyev**

---



*Əhməd Orucoğlu*

## Bu qız elə bil XX əsrdən qalmışdı

*Hər axşam metroda qatar yaxınlaşanda başlanır dartma, yaxam cırıldı.*

*Kimi düyməsini, kimi eynəyini, kimisi*

*ayaqqabısının bir tayını itirir. Bir ayaqqabı olsaydı, dərd yarıydı. Arvadını, ərini itirənlər də olurdu. Kişi vaqona minir, arvad qalır və ya əksinə, arvad minir, kişi qalır.*

*Mən də özümü birtəhər içəri salmışdım ki, 150 kiloluq bir gombul qadın ayağımı tapdaladı. Ağrıdan gözüm yaşarsa da, bir təhər dözdüm. Qapılar bağlandı, qatar yola düşdü. Ətrafa göz gəzdirdim, oturanlara paxıllığım tuturdu. Hərənin əlində bir telefon oyun oynayırdılar, təkcə bir qızdan savayı. O, ktab oxuyurdu. Yadıma ötən günlər düşdü. O vaxtlar mobil telefon yox idi. Metroda kimi qəzet oxuyardı, kimi kitab. Bu qız elə bil XX əsrdən qalmışdı. Qızın metroda kitab oxuması təkcə məni yox, hamını təəccübləndirmişdi. Bəziləri qıza birtəhər baxırdılar. Rəhmətlik nənəm deyərdi ki, belə yerdə ala qarğa bala çıxartmaz. Ayağımın ağrısı məni öldürürdü. Yanımdakına baxdım gördüm o məndən də bərk ufuldayır. Gombul arvad onun da ayağını tapdalayıbmış. Sən demə gombul arvad tapdalaya-tapdalaya yerində fırlanırdı.*

*Qatar növbəti stansiyada dayandı. Bir nəfər eynəkli oğlan bir təhər özünü içəri saldı. O, ətrafa göz gəzdirib, kitab oxuyan qızı görəndə gülümsədi. Adamları itələyə-itələyə ona yaxınlaşıb, özünü təqdim etdi.*

*- Mən "Kitabsevənlər" klubunun əməkdaşıyam. Bizim klubun əməkdaşları neçə gündür ki, metroda monitorinq aparırlar. Kitab oxuyan adamları axtarırlar. Nəhayət, metroda bir nəfər kitab oxuyanı tapmaq mənə nəsib oldu. Bağışlayın siz hansi kitabı oxuyursuz?Qız kitabı bağlayıb, üz qabığını ona göstərdi.*

*-Nizami Gəncəvi Xəmsə. Çox gözəl. İcazənizlə "Kitabsevənlər" klubunun təsis etdiyi hədiyyəni sizə təqdim edim.*

*Qızın ətarfında dayanan sərnişinləri kitabsevərlər klubunun əməkdaşının qıza verdiyi hədiyyə cox maraqlandırırdı. Oğlan hədiyyə qutusunu qıza verib ondan hədiyyə ilə şəkil çəkdirməyi xahiş etdi. Qız hədiyyəni qutudan çıxardıb oğlanla şəkil çəkdirəndə ətrafdakılar hədiyyəni görüb gözləri bərələ qaldı. "Kitabsevərlər" klubunun əməkdaşı qıza mobil telefon hədiyyə etmişdi.*

---

## İranda 5 məhkum edam edildi

**İranın Kərəc şəhər və Şirazın Adilabad həbsxanalarında "adam öldürmək" və "narkotik maddə alveri"ndə ittiham olunan 5 məhkum edam edilib.**

Həmidrza Nicati, Möhsün Nicati, Davud Yusifi, İbrahim Əcəli Kərəc şəhər həbsxanasında, Əfqanıstan vətəndaşı olan Davud Rəhməti isə Şiraz həbsxanasında dar ağacından asılıb.

---

*Elgün Gəncimsoy*



## Oğul itirənlər burada çiyin-çiyinə

*"Sizə Xankəndi-Laçın yolunda durub kölgəsini böyük hesab edən fillərə qənim kəsilən əbabillərimizdən bir neçə kəlimə danışacağam. Əbəs yerə belə bənzətmə eləmədim. Oradakılar hamısı gəncdir, həm də dəli qanlı... İçərisində çəlimsiz, lap elə bir üfürcəklik canı olmayanlar da az deyil. Ona görə mən həmin o Qəhrəman Vətən övladlarını əbabil adlandırıram. Çünki onlar sözün əsl mənasında fillərə qənim kəsiliblər...*

*Aksiya kənardan yaxşı görünmür. Gözlərinə pəlmə gəlmiş, xisləti xarab olanlar oranı dumanlı görür. Keçmişi məlum, yaxın gələcəyi abort edən həkimlərdə keçən kəslər isə oradakı aktivislərə dil uzadıb qarayaxma kampaniyası ilə məşğuldur. Mən hələ bir faktı misal çəkdim. O qədər faktlar danışaram ki, Nəsimi kimi məni dəri-cıvrıq edib darda qoyarsız. Amma haqqı, düz olanı təəssüflə qeyd edirəm. Bəli, Xankəndi-Laçın yolu çox dumanlıdır. Oranı yaxşı görmək üçün ya dövlət siyasətini yaxşı bilməli, izləməli, dəstək olmalısan, ya da erməninin həmin aksiyaya qarşı yaratdığı kompaniyanın iştirakçılarına cevrilməlisən. Mənəviyyatı olmayanlar bunu anlamır. Ermeniyə dəstək olurlar... Ora lağlağı yeri deyil, dinc aksiya meydanıdır. Həm də silahsız - soyuq döyüş mövqeyi...*

*Oğul itirənlərlə oğullar burada çiyin-çiyinə savaşır...*

*İkinci gündən onuncu günə qədər orada oldum. Yenə növbəm çatsın qayıdacam. Vətəndaş kimi aksiyaçı, media mənsubu kimi carçı olub haqq səsini yayacam Azərbaycanın...*

*Belə baxıram, orada nəyin baş verdiyindən xəbərsiz olanlar keçmişdə beş dəqiqəsini 15 manata kirayə verdikləri ağızlarına yiyəlik edə bilmirlər. Belələri gələcək zəfərlərdə də danışacaq... Çünki həyası satılmışlar, qeyrət professoru qismində çıxış edir həmişə. Özü də Dövlətin bu vaxtında. Sonra da çıxıb mən də varam deyirlər. Erməni necə istəyirsə, tapşırıqsız ona əməl edirlər qızıl gül analığın dahi simaları...*

*Bu gün aksiyanın növbəti günüdür. Əziz və azad Şuşanın səmasında doğan günəş, dağ zirvələrini qət edib növbəti dəfə nurlandıracaq oradakı qardaş-bacıların ağ olan üzünü... Himn oxuyub, təhlükəsizlik görevinə düzülən Azərbaycan polisinin və əsgərinin növbə dəyişməsini alqışlayıb, sonra sayğı duruşunda himn oxuyacaqlar. Hələ bir də dan yeri sökülüb zülmət işığa məğlub olanda Poladın "Gəl ey səhər"i əsl qəhrəmanlara yeni günün motivasiyasını verəcək. Silahsız igidlərin qarşısında silahla duran ruslar da öyrəşib - Günə belə başlayıb, dahi Üzeyir bəyin "Uvertüra"sı ilə davam etməyə...*

*Bir məsəl var, deyir, nənəm bicdir kündəni balaca yapır, dədəm də bicdir iki-iki yeyir. Burada Azərbaycanın eko-aktivisləri və vətəndaş cəmiyyətinin nümayəndələri beynəlxalq arenalardan ağızını ayıran hamı üçün kündə yapır. Amma nədənsə danışmaq və yeməkdən başqa ağzından qazanc məqsədi üçün istifadə edən kirayəçilər üçün nəsə hazırlamaq mümkün deyil. Onu isə bu gənclik öz məqsədlərinə çatandan sonra hazırlayıb verəcək... Sözün hər mənasında...*

*Hələlik çox şey danışmıram, amma gələcəkdə buna söz də vermirəm... O qədər işıqlı yazacam ki, kimin hansı obrazda erməni separatçılarına necə dəstək olduğunu anlayasınız. Bunu mütləq edəcəm...*

*Sadəcə buradan, Xankəndi yolunun üzərində məğrur durub Dövlətinin haqqını tələb edən əqidə qardaş-bacılarımı salmayır, onlara alqış deyirəm.*

*P.S: Oranı görmədən heç nə deməyin, sonra çox peşman olacaqsınız. Bu ən yaxın gələcəkdə baş verəcəkdir...Yaşasın Azərbaycan!"*



*Elman Eldaroğlu*

# İlin son yazısı...

**Yeni ilin ilk günündə, çox vaxt baş qarışıq olur, kimisi qonaq gedir, kimisinə qonaq gəlir, kimisi də dünənin yorğunluğunu çıxarmağa çalışır. Necə deyərlər, hər kəs öz işgücündə...**

Şair, publisist Əbülfət Mədətoğlu da 1959-cu ilin yanvar ayının 1-də dünyaya gəlib. Qarabağlıdır, Xocavənd rayonunun Tuğ kəndində böyüyüb boya-başa çatıb. Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsində ali təhsilə yiyələnib. Eyni zamanda Jurnalist Sənətkarlığı İnstitutunu bitirib. Elə o vaxtdan da müxtəlif mətbu orqanlarında çalışıb. Hazırda "Ədalət" qəzetinin baş redaktor müavinidir. Ötən müddət ərzində bir sıra ədəbi mükafatlarla yanaşı, "Əməkdar Jurnalist" fəxri adına da layiq görülüb...

Köhnə kişilərə xas olan təmkinlə ad günündən başlayaraq ilin son günündək sonsuz ümidlərlə addımlayır. Hər yeni ilin gəlişi ilə bir yaş böyüyür, bir yaş da ucalır. Onun bir şair kimi yaratdıqlarından danışmaq fikrim yoxdur, çünki dövri mətbuatda bu barədə mütəxəssislərin kifayət qədər təhlili və şərhi var. Mən onun bir publisist, bir insan kimi fəaliyyətindən söhbət açmaq istəyirəm...

Deyir ki,- "Əlifbanı tanıyandan mütaliəni sevmişəm. Bizim kənd kitabxanamız çox zəngin olub. Kəndimiz işğal olunanadək evimizdə özümün də böyük kitabxanam var idi. Və kənddə bunu hamı bilirdi. Mən onların təqribən 3 min nüsxəsini kənddən çıxara bildim. Bu gün də Masazırdakı evimdə ayrıca bir kitabxanam var. Bu mənada mütaliə mənim işimə həmişə kömək olub. Həm qəzetdə, həm poeziyada. Ad çəkmədən deyim ki, dövri mətbuatda, o cümlədən sosial şəbəkələrdə yayımlanan şeir nümunələrinin hamısını oxumağa çalışıram. Ruhuma doğma olan şairlərimizin bir çoxunun kitabları masamın üstündədi. Tez-tez onlara üz tuturam. Allah dünyasını dəyişənlərə rəhmət etsin, yaşayanlara ömür versin!.."



Adətən biz "səxavətlidir" ifadəsini xeyriyyə işlərinə maddi vəsait ayıranlara şamil edirik, amma insanları xoş sözlə sevindirmək, kiməsə dəyər vermək özü də səxavət nümunəsidir. Əbülfət Mədətoğlu bu baxımdan böyük ürəkli adamdır. Əsərlərini təhlil edərək, o qədər müəllifə səxavət göstərib ki, say-hesabını bəlkə də çoxdan itirib

"Mən ədəbi gəncliyi daim izləyirəm, onlarla səmimi münasibətim var. "Ədalət" qəzetində ədəbi gəncliyə kifayət qədər yer ayrılıb və mən sevinirəm ki, bu gənclərin hansısa bir yazısının "Ədalət"in oxucularına təqdim olunmasında kiçik də olsa xidmətim olub. Mən Aysel Əlizadənin, Seymur Baycanın, Xuraman Hüseynzadənin, Elnur Aslanbəylinin, Qan Turalının, Aqşinin, Kənan Hacının, Cəlil Cavanşirinin, İradə Aytelin, Kəramət Böyükçölün, Həyat Şəminin, Nuranə Nurun, Zəka Vilayətoğlunun və digərlərinin yazılarını, bütövlükdə isə mətbuatda işıq üzü görən hər bir yazını oxumağa, izləməyə çalışıram."- söyləyir.

Çox çətinliklərlə üz-üzə gəlib, həyatı boyu heç nəyi asanlıqla əldə etməyib. Nə qazanıbsa, necə deyərlər, dişlə, dırnaqla, ağır zəhmətlə əldə edib.

Dünyanın ən yüngül işi sandığından heç kimə məsləhət verməyi xoşlamır. Ona görə də həmin o yüngül işi hər kəsin öz ixtiyarına buraxır. Düşünür ki, kim necə bacarırsa, hansı yolu seçibsə o yolla xalqımıza, ədəbiyyatımıza xidmət etməlidir...

Deyir ki,- "Həyatda elə yaşamlar var ki, onu sözlə ifadə etmək mümkün deyil. Lap elə qaçqınlığı götürək. Qaçqın olmayana bütün üreyini də, bütün maddi sərvətini də bağışlasan belə, onun içində qırılıb çiləklənən, ölən, yaddaşında ağrı-acı yaşayan kimi qalan nəsnələri nə dəyişə bilməzsən, nə də unutdura bilməzsən. Göstərilən qayğı sadəcə diqqətdi. Yaşamağa ipucudu. Bu mənada 30 il ancaq xəyal etdiyin, ancaq yuxuda gördüyün kəndinə, evinə qayıtmaq bu gündən keçmişə dönüş deməkdir. Aradakı 30 il isə itirilən, əlindən zorla alınan ömürdü.

Ona görə mən kəndimə səfər edəndə filmlərdəki kimi yuxuda keçmişə getmiş kimi oldum və o keçmiş mənə çox acıları təkrar yaşatdı. Çünki kəndimin yalnız coğrafi mənzərəsi yadımda qalmışdı. Mənim uşaqlığımın da, gəncliyimin də izləri, xatirələri güllələnmişdi. Evimin yerində qaratikan bitmişdi. Mənimlə orda danışan ancaq kədər idi, ağrı-acı idi. Çünki qarşılayanlar onlar idi məni..."

Bədii yaradıcılığa orta məktəbdə oxuyarkən başlayıb. Əvvəlcə qəzet və jurnallara yazılar ünvanlayıb. Haqsızlıqlar, biganəliklərlə çox qarşılaşsa da həyatda ona dəstək verən, əlindən tutan, yol göstərən insanlar da olub. Onları böyük minnətdarlıq hissi ilə xatırlayır. Yazıçılardan Əlisəfa Məmmədovun, Əlfi Qasımovun, şairlərdən- xalq şairi Bəxtiyar Vahabzadənin, Çingiz Əlioğlunun, Sabir Rüstəmxanlının, Nüsrət Kəsəmənlinin, Abbas Abdullanın, Məmməd İsmayılın, Vaqif Nəsib Sərhüseyn oğlunun, Zülfüqar Şahsevənlinin, Vaqif İbrahimin və digərlərinin zamanında xeyir-dua verdiyini də gətirir. Məhz həmin xeyirxahların tələbkar qayğısı onu bugünkü yazarlara qayğı, diqqət göstərməyə yönəldib. Xüsusilə maraqlı, istedadlı, dəstəyə ehtiyacı olan gənclər onun üçün çox önəmlidir...

"Əlimdən tutublar, mən də təbii ki, gücüm daxilində əldən tutmağa çalışıram. Hər gün yazmaq, hər gün hay-küy salmaq və yaxud özünü hansısa qrupda təbliğ etmək mənə görə istedadın göstəricisi sayıla bilməz. Ad çəkmədən deyə bilərəm, elə gənclərimiz var ki, başını salıb aşağı heç bir qruplaşmaya qoşulmadan sözün fəhləliyini edir, özünə yol açmağa çalışırlar. Amma bəziləri də öz aralarında "işbirliyi" yaradır, bir-birini gündəmə daşımaqla məşğuldular. Çox istərdim ki, Allahın verdiyi istedadı böyük SÖZün xidmətində görək həmişə..."- söyləyir.

Qələm adamlarının qruplaşmasından çox narahatdır. İstəyir ki, ciddi əsərlərin sayı çoxalsın və azərbaycanlı müəlliflərin əsərləri ümumbəşəri əhəmiyyət daşısın. Yazarlarımız dünyada tanınsınlar. Necə deyərlər, "Nobel" mükafatının ayağı Azərbaycana da açılsın...

**Bəli, yanvarın 1-də haqqında söhbət açdığım şair, publisist, əməkdar jurnalist Əbülfət Mədətoğlunun növbəti ad günüdür. Onu bu münasibətlə təbrik edir, möhkəm can sağlığı və yaradıcılıq uğurları arzulayıram. Çox yaşasın!**



*Seyfəddin Altaylı*

# TÜRKİYƏ MƏTBUAT və NƏŞRİYYATINDA ƏHMƏD CAVAD

**Əhməd Cavad Gəncədə Mehrili kəndində dünyaya gəlmiş (5 Mayıs 1892), ilk təhsilini atası Məhəmmədəli vermiş, Gəncə Ruhani Seminariyasında təhsilini davam etdirmişdir. Türkiyənin Qazi universitetində təhsil alan Zəminə Ziyayeva Əhməd Cavadla bağlı hazırladığı dissertasiyada "Əhməd Cavadın müəllimi Hüseyn Cavidin onunla bağlı olaraq Əhməd Cavad həzin və ahənkdar şeirlər oxudu" dediyini və onun gözəl bir şair olduğunu vurğulamışdır.**

Əhməd Cavad haqqında danışmazdan əvvəl 1928-ci ildə İstanbulda Orxaniyə mətbəəsində ərəb əlifbası ilə çap olunmuş "İstiqlal Uğrunda" adlı kitabın giriş hissəsini oxuyaq:

"Həm bir çox Azərbaycanlılar tərəfindən vaqiə bulan mütəddid müraciətlərdə təyid olunan ruhi pək böyük bir ehtiyacı tətmin eyləmək, həm də istiqlal uğrunda dönməz əzmlə qüdsi bir cidal səhnəsinə atılan bir Türk ilinin ruhundakı hürriyət və istiqlal eşqini qardaş bir mühitə tanıtmaq məqsədi ilə mətbua və qeyri-mətbu müxtəlif zamanlarda yazılan və müxtəlif səhifələrdə mündəric olunan millə nəşidələrin bir arada tab nəşrini ötədən bəri düşünürdük.

Bu kərə təlifini vətəndaşımız Kəmal Bəyə təvdi etdigimiz işbu məcmuənin nəşrinə tasdi (əziyyət vərmə) etməklə millə Azərbaycan gəncliginiə ruhi ehtiyacını və eyni zamanda bu mübariz ruhuə əsli və fariq (fərqli) sifətlərini bilmək istəyən dostlarıə tədqiq məraqını bir az olsun tatmin edəbildiksə kəndimizi məsud add idəriz."

Bu nadidə əsəri mənə 1979-cu ildə eyni yatqxanada qaldığımız və bir-birimizə həddən artıq, qardaşcasına yaxın olduğumuz Kərküklü qardaşım Prof. Dr. Çoban Xıdır Bəşirli ərməğan etdi. O indi Bağdad Universitetində müəllim işləyir və daimi olaraq görüşürük.

Mərhum şəhidimiz Əhməd Cavad Türklük ideyasına və Turan Davasına səmimi qəlbdən inanmış bir ziyalımızdır. Məlum olduğu üzrə may ayının 5-ci günü 1892-ci ildə Şəmkirin Mehrili kəndində doğulmuş oktyabr ayının 12-si 1937-ci il tarixində Rus imperializmi tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir.

Altı yaşında yetim qalan Əhmədi Gəncəyə aparan anası onun təlimi ilə maraqlanmış, ruhani müəllim məktəbini burada başa vuraraq Anadoluda davam edən döyüşlərdə iştirak etmək üzrə könüllülər dəstəsilə İstanbula getmiş və Türkiyəli qardaşları ilə çiyin-çiyinə döyüşmüş, ölkəyə qayıtdıqda Xeyriyyə Cəmiyyətinin səflərində hərbdən ziyan görmüş ailələrlə yetim və öksüz qalmış uşaqlara yardım etmiş, Dağıstan və Gürcüstandan Türkiyənin Qars, Ardahan və Ərzurum vilayətlərinə yolladığı məqalələri Qafqazya qəzetində çap olunmuş (1914-15), yaranan ilk Demokratik Azərbaycan Cümhuriyyətinin qurulmasını alqışlamış, 27 Nisan (aprəl) 1920-ci ildə Azərbaycanın Qızılordu tərəfindən işğalıyla Qusarın Huluq kəndində, 1930-cu ildən sonra da Gəncədə Kənd Təsərrüfatı İnstitutunda müəllimlik etmiş, Rus və Gürcü ədəbiyyatından tərcümələr etmiş və axırda imperializmin əliylə şəhadət mərtəbəsinə yüksəlmişdir.

Türkiyə ictimaiyyəti Əhməd Cavadı daha çox bəstələnən "Çırpınırdı Qara Dəniz" şeiri ilə tanıyır. Bu şeir xüsusilə 1960-1980-ci illər arasında Türkiyədə gəmi azıya almış sağ-sol, millətçi-kommunist kimi bir-birindən fərqli düşüncələrə sahib insanlar arasında gedən mübarizədə millətçilərin milli himni kimi qəbul edilmişdi və hər bir tədbirdə kütləvi şəkildə oxunmuşdur.

"İstiqlal Uğrunda" məcmüəsində Əhməd Cavadın "Milli Bayrağımız", "Al Bayrağa", "Nədən Yarandın", "Göy Göl", "Bismillah", "Qalq", "Sən Ağlama", "Bir Gül Əkdim", "Bir Gün" "Azərbaycan" "Ay Ellər", "Yazma" adlı şeirləri çap olunmuşdur. Bu məcmüədə mənə ən çox təsir edən şeir mərhum şəhidimizin 1918-ci ildə Bakının Ermə-ni-Rus birləşmələrindən xilas edilməsində şəhid olan Anadoludan qardaş köməyinə gəlmiş əsgərlərin sentiyabrın 16-cı günü dəfn mərasimində oxuduğu və Anadolulu şəhid və qazilərə həsr etdiyi "Qalq" adlı şeirdir.

*"Qalq, qalq sarmaşıqlı məzar altından*
*Gəlmiş ziyarətə qızlar-gəlinlər.*
*Ey karvan keçidi yollar üstündə*
*Hər gələn yolçuya yol soran əsgər!*

*Qovduqlarıə səniə yabancı xanlar*
*Qurtardı ölkəmi dökdügüə qanlar.*
*Baq nasıl öpməkdə tozlar, dumanlar*
*Qərib məzarıəı bəndə bərabər.*

*Sənin qanıədanmı düzlərdə böylə*
*Qüdrət bitirmişdir sayılmaz laləə*
*Dost elindən qopdu bir yanıq nalə*
*Yoqsa o nalənin ruhumu söylərə!*

*Keçərkən göklərdən bir qatar durna*
*Ağlar bırakdımı gözləri sorma!*
*Baq doğru çıqmaqda gördügün röya*
*Bəslədigiə əməl bu gün gülümsər*

*Çarıqlı qardaşıə sadədil köylü*
*Yaləız məzarıəa bir örük ördü;*
*Toplanıb baş-başa hər üçü-dördü*
*Hər gün köylü qızlar dərdiəi diələr..."*

Əhməd Cavadla bağlı olaraq Türkiyənin universitetlərində dissertasiyalar hazırlanmış, elmi məqalələr yazılmışdır. Örnək olaraq 1997-ci ildə Gazi Ünivərsitəsi Fən-Ədəbiyat Fakültəsi Türk Dili və Ədəbiyatı Bölümündə təhsil alan Zəminə Ziyanın "Ahmət Cəvat" adlı dissertasiyanı göstərə bilərik.

Türkiyədəki nəşriyat və yayım orqanlarına gəldikdə "Türk Dünyası Ədəbiyatçıları Ansiklopədisi"nin üçüncü cildində Əhməd Cavadla bağlı məlumatlar




yer tutmuşdur. Tələbə yoldaşım Sərvət Gürcan

"Çırpınırdı Karadeniz-I", "Dalğa" adıyla onun şeirlərini çap etmişdir. Ondan başqa İrfan Murat Yıldırım "Səlam Türkün Bayrağına" adlı, yenə bir başqa tələbə yoldaşım yazıçı Müslüm Oğuz

"Nisan Ağlar Mayısa" adlı bir roman yazmışdır. Azərbaycanda ziyalı ictimaiyyətin yaxından tanıdığı Prof. Dr. Yavuz Akpınar Dərgah nəşriyyatı tərəfindən çap olunan "Azəri Ədəbiyatı Araştırmaları (XX. yy. Azəri Ədəbiyatı)

adlı əsərində Əhməd Cavad haqqında geniş məlumat vermişdir. Prof. Dr. Marifə Hacıyeva Samsunda çap ettirdiyi "20 Asır Azərbaycan Ədəbiyatı" adlı əsərində, İrfan Ünvər Nasrattınoğlu

"Çağdaş Kuzey Azərbaycan Şiir Antolojisi" , Doç. Dr. Zeynəlabidin Makas Başbakanlık Basıməvi tərəfindən çap olunan "Çağdaş Azərbaycan Şiir Antolojisi"

əsərində, Bəngü Yayınları tərəfindən çap olunan "Çağdaş Azərbaycan Şiir Antolojisi" Əhməd Cavadın şeirlərindən örnəklər dərc etdirmişdir. Dərgah yayınları tərəfindən çap olunan "Türk Dili və Ədəbiyatı Ansiklopedisi" adlı əsərdə, mərhum alimimiz Prof. Dr. Samir Kazımoğlunun "Türk Toplulukları Ədəbiyatı", Azərbaycan Milli Mərkəzinin bir vaxtlar sədrliyini yeritdiyi Kərim Odərin Boğaziçi yayınları tərəfindən çap olunan "Azərbaycan" adlı əsərində, Türkiyədə Başnazirlik Qurumunda işləyən Cəm Əndər Aslanoğlu ilə İsmail Kayabalı tərəfindən hazırlanan və 1977-ci ildə çap olunan "Azərbaycan Türkləri Kültür Tarihinin Ana Hatları" adlı əsərdə, mərhum ziyalı Əhməd Kabaklı tərəfindən hazırlanan "Türk Ədəbiyatı"

adlı əsərin üçüncü cildində, Azərbaycanın Qırmızı ordu tərəfindən işğalından sonra Türkiyəyə pənah aparan "Azərbaycan Cümhuriyyəti Mili Əmniyyət Təşkilatı"nın rəhbəri Naki Keykurunun 1964-cü ildə çap olunan "Azərbaycan İstiklal Mücadələsindən Hatıralar" əsərində, Milli Əgitim Basıməvi tərəfindən çap etdirilən

"İslam Ansiklopədisi"nin ikinci cildində mərhum şairimizlə bağlı geniş məlumatlar yer tutmuş, onun Azərbaycan ədəbiyyatındakı və azadlıq mübarizəsindəki yeri ilə bağlı fikirlər şərh edilmişdir. İskiklal Uğrunda, Milli Kültür, Türk Yurdu, Şəbnəm, Azərbaycan Kültür Dərnəyinin nəşriyyat orqanı "Azərbaycan" jurnalında hər ilin müəyyən dönəmlərində müxtəlif məqalələr və şeirləri dərc olunmuşdur.

Hər il Əhməd Cavad ilə bağlı müxtəlif nəşriyyat orqanlarında məqalələr çap olunur. "Yenidən Ərgənəkon" adlı jurnalın saytında 2008-ci ilin iyun ayının 4-ündə "Özgürlük və Kahramanlık Şairi" adıyla gözəl bir məqalə dərc olunmuşdur. "Dünya" qəzeti mərhum şairimizin anadan olmasının 128-ci ili münasibətilə məqalə çap etmişdir. Bu il may ayının 5-ci günü Sabah qəzetində "Çırpınırdı Karadəniz Şairi Ahmət Cəvat doğumunun 130. Yılında" adıyla bir məqalə çap olunmuşdur. Yəsəvi Universiteti tərəfindən çap etdirilən "Türk Ədəbiyatı İsimlər Sözlüğü" adlı əsərdə onunla bağlı məlumat yer tutmuşdur. 2013-cü ildə Yəsəvi Maturidi Otağı adlı nəşriyyat orqanında "Ahmət Cavad Kimdir" adlı məqalə çap olunmuşdur. Yenə bu il "Kırmızılar" adlı dərgidə Əhməd Cavad ilə bağlı samballı bir məqalə dərc olunmuşdur.

Türkiyənin milli qurumu "Anadolu Agentliyi" tərəfindən yayılan xəbərin anons səhifəsinə fikir verilsin:

Nəticə olaraq deyə bilərik ki, Türkiyədə hər il Azərbaycan dövlətinin yarandığı 28 May günü mütləq Əhməd Cavad ilə bağlı məlumatlar qəzet və jurnallarda yer tutur. Türk dünyası və Azərbaycan ədəbiyyatı ilə bağlı çap olunan hər bir əsərdə mütləq Əhməd Cavad ilə bağlı hərtərəfli məlumatlar və onun millətçiliyi, dövlətçiliyi, türklüyə vurğun fikirləri dərc edilir, yeni nəsillərə tanıdılır. Bütün bunlar Türk Birliyinə gedən yolda hər bir Türk övladının şəhid şairimiz Əhməd Cavadın milli düşüncə xəttinin nə olduğunu başa düşərək öz öhdəsinə düşən vəzifələri layığınca yerinə yetirməsinin ən vacib və müqəddəs bir məsələ olduğunu vurğulayır.

# Təbiətlə Tarixin Möhtəşəm Uyğunluğu, Efeler diyarı Aydın

**Aydında başınızı hara çevirsəniz, keçmişdən bir salam alacaqsınız və o cəlbedici mənzərələrə girdiyiniz zaman şəhərin təbiətinə, mədəni fakturasına heyran olacaqsınız. Aydın, yamaclarında Efes dastanlarının danışıldığı bu bənzərsiz qarışığa qatılmaq üçün səyahət etsəniz!**

"Tanrının səması altında ən gözəl yer" (Herodot)

Adalet.az xəbər verir ki, münasib iqlim şəraiti və münbit torpaqları ilə "Sivilizasiyalar Vadisi" adlandırılan Böyük




Menderes hövzəsi tarixin hər dövründə intensiv mədəni inkişafa şahidlik etmişdir. Bu mədəni prosesdə Aydının mühüm yeri var. Şəhərdə əldə edilən keramika tapıntılarına görə, yaşayış yerinin tarixi e.ə. 4500 il əvvələ gedib çıxır. Aydının ilk tarixi məlumatlarına Het mənbələrində rast gəlindiyi izah edilir. Memarlar və həkimlər şəhəri, yer üzündə ilk musiqi notlarından biri olan "Seikilosun ağısı" şəhəri Tralleis Aydının qədim yaşayış məskənidir.

Bölgədə Tralleis, Afrodisias, Miletos, Alinda, Alabanda, Nysa, Magnesia, Amyzon, Panionion, Neopolis, Mastaura, Antiokya, Gerga, Akharaka, Harpasa, Piginda, Orthosia, Phygela kimi mühüm antik şəhərlər yaradılmışdır. Aydın müasir şəhər olsa da, mədəni və təbii sərvətləri ilə açıq səma altında muzeyə bənzəyir. Yerləşdiyi yerə görə tarix boyu bir çox sivilizasiyaları qucaqlamış və keçmişdən günümüzə tarixin izlərini görə biləcəyiniz əhəmiyyətli turizm şəhərlərindən biridir.

Möhtəşəm təbiəti və dənizinin mədəni və arxeoloji dəyərlərlə harmoniya təşkil etdiyi Aydın, Ege Bölgəsində mütləq görülməli olan unikal turizm şəhəridir.

# Misir Qasımlını «günahkar» çıxardanlar, «Arsen Avakov mafiyası»nı da qınayın...

**Sosial şəbəkələrdə qızgın müzakirələr gedir. İstifadəçiləri bir-birinə düşürən mövzu isə Vətən Müharibəsi qazisi, "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif olunan, 29 yaşlı soydaşımız Misir Qasımlının və onun dostu Sübhan Quliyevin Ukrayna məhkəməsi tərəfindən 8 il müddətinə həbs edilməsidir.**

Məlumat yayılan dəqiqələrdən sosial şəbəkə istifadəçiləri "Misir Qasımlı tərəfdarları" və "Misir Qasımlı əleyhdarları" olaraq 2 qrupa bölünüblər. Maraqlıdır ki, məsələlərin kökünə işıq sala bilməyən, ( işıq salmaq istəməyən - red-Ə.R) amma cəmiyyətdə xüsusi çəkisi olan simalar da var ki, savadı, məsələ haqqında bilgisi olmayan, məsələ ilə bağlı heç bir araşdırma aparmaq imkanı olmayan insanlar kimitatuslar yazır, Misiri günahkar çıxarır, və cəmiyyəti çaşdırırlar. Belə şəxslərin qərib ölkədə həbsə məhkum olan soydaşına qarşı "günahkar çıxartma" münasibəti nəinki, təəccüblüdür, hətta deyərdim ki, xəyanətdir.

Eynən! 2004-cü ilin yanvarında igid eloğlumuz, hərbçi Ramil Səfərov Macarıstanda hərbi təlimdə olarkən, baş verən hadisə zamanı bəzi soydaşlarımızın Ramilə göstərdiyi münasibət! Yadınızdadırsa, Ramil erməni leytenant Qurgen Markaryanı Azərbaycan bayrağını təhqir etdiyi üçün qətlə yetirmişdi. Buna görə soydaşlarımızın xeyli hissəsi az qala Ramil Səfərova qarşı "səlib yürüşünə" start vermişdi. Sonra nə oldu?Onun barəsində ömürlük həbs qərarı çıxarıldı. 8 il sonra - 2012-ci il avqustun 31-də Azərbaycan Prezidentinin səyi ilə Budapeşt şəhərindəki həbsxanadan çıxarılaraq Bakıya gətirildi. Daha sonra Prezidenti İlham Əliyevin sərəncamı ilə əfv olundu. Bunun ardınca Azərbaycan Silahlı Qüvvələrində xidmətə bərpa olunan Ramil Səfərova müdafiə nazirinin əmri ilə mayor rütbəsi verilib. Eyni zamanda ona hər bir şəraiti olan 3 otaqlı mənzil də bağışlandı. Həmçinin ona Müdafiə Nazirliyi həbsdə olduğu 8 il müddətində toplanmış əməkhaqqı verildi.

### *Misir Qasımlı cinayətkardı, yoxsa, ortada bir qisasçılıq ssenarisi var?*

Əvvəlcə bir araşdırma aparaq, görək, doğurdanmı, M.Qasımlı həqiqətənmi "adam oğurluğu" ilə məşğul olub, yoxsa, özünü, ətrafının, eyni zamanda vəkilinin dediyi kimi bu bir şər və böhtandır.

Ukrayna dost ölkədir. Azərbaycanlılar orda Ukraynanı dəstəkləyir və bu ölkə uğrunda Rusiyaya qarşı döyüşür. 40-dan çox Azərbaycan əsilli döyüşçü həlak olub. (Yeri gəlmişkən, I Qarabağ və yaxud Vətən müharibəsində bizim sıralarımızda heç olmasa 10 ukraynalı gördünüzmü? Azərbaycan dövləti və xalqı fevral ayından bu günə qədər(baxmayaraqki, qarşısında Rusiya kimi məkrli, səhvi bağışlamayan bir hegemon durub) maddi və mənəvi dəstəyini Ukraynadan əskiltməyib. Eynisini biz 30 ildə gördükmü? Bunu da deyim ürəyimdə qalmasın: Ukrayna səhiyyə nazirinin müavini, baş sanitar həkim Viktor Lyaşko müsahibələrinin birində qeyd etdi ki, pandemiya başlayanda Ukraynaya yardım əli uzadan ilk ölkələrdən biri Azərbaycan olub. Bu ilin avqustun 3-də Bakıdan və Gəncədən Ukraynaya ərzaqdan ibarət ümumilikdə 101 tonluq humanitar yardım göndərilib. Ölkəmiz daha əvvəl Ukraynaya dərman, tibbi avadanlıq, tibbi ləvazimat, ərzaq və uşaq yeməyindən ibarət 807 ton humanitar yardım göndərib.

Demək ki, hər iki halda o dostluq, mehribançılıq, həmrəylik dəstək məhz biz azərbaycanlılar tərəfindən yaranıb və qorunub. Yenə də deyirəm, bütün hallarda Ukrayna dost ölkədir.

### *İndi keçək, bu ölkədə ermənilərin fəaliyyətinə*

Ukrayna ən çox erməni yaşayan 5 ölkədən biridir. Burada 2001 -ci ilin siyahıyaalınmasına görə, erməni əhalisinin sayı 100000-ə yaxındır, daha dəqiq, 99,894 nəfər təşkil edir.

Ermənilər ən az sayda olduqları ölkələrdə necə böyük diaspora və digər güclü təşkilatlar yaratdığını bilirsiniz. Ən məsul vəzifələrə öz soydaşlarını necə yerləşdirdiyi də sizə məlumdur. Məsələn, Kiyev Vilayət Dövlət Administrasiyasının rəhbəri

Mixail Bno-Ayriyan Kiyev Vilayət Dövlət Administrasiyasının rəhbəri, Arsen Avakov(Avakyan)Daxili işlər naziri(2014-2021) vəzifələrində olarkən azərbaybaycanlılara qarşı çox qərəzli yanaşıb. Azərbaycan əsilli ukraynalılara səlahiyyət imkanları daxilində Avakov daha çox zərbə vurub. Bir faktı yadınıza salım: 2016-cı ilin aprel döyüşlərindəki uğurdan sonra Ukraynada çalışan azərbaycanlı iş adamlarına qarşı kriminal hadisələr intensivləşdi.

Həmin ili Azərbaycanlılara məxsus 12 iri restoran yandırıldı, 6 bahalı avtomobil qaçırıldı. 2014-cü ilin mayında "Ukrayna Azərbaycanlıları Konqresi"nin və "Ukrayna Millətlər Məclisi"nin sədri Rövşən Tağıyevə qarşı sui-qəsdlər, Kremençik şəhər bələdiyyəsinin sədri Oleq Tağıye-



vin öldürülməsi, iş adamı Xızır Məmmədov, Təbriz Ələkbərov və adlarının çəkilməsini istəməyən yüzlərlə azərbaycanlının polis tərəfindən soyulmasının arxasında "Avakov mafiyası"nın olması artıq kimsəyə sirr deyil.2016-cı ilin sentyabrında soydaşlarımız Daxili İşlər Nazirliyi qarşısında etiraz aksiyası keçirdilər. Azərbaycan ictimaiyyəti və dövləti də bildi ki, həm oliqarx, həm də mafiyoz olan Arsen Avakov 2014-cü ildən vəzifəsinə başlayandan yəni 2 il ərzində 20-dən çox azərbaycanlı iş adamı və iş adamlarının övladları oğurlandı, tanınmış azərbaycanlılara sui-qəsdlər təşkil edildi. Lakin bu cinayətlərin üstü hələ də açılmayıb, heç kim cinayət məsuliyyətinə cəlb edilməyib.

Hətta 2020-ci ilin iyununda cəmiyyətdən gələn narazılıqlar nəzərə alınaraq Arsen Avakovun istefası məsələsi Ukrayna Ali Radasına da çıxarıldı və o 2021-ci ildə istefa verdi. Yeri gəlmişkən, "Yeni Müsavat" qəzetinin keçmiş əməkdaşı, o dönəmdə Ukraynanın Odessa şəhərində yaşayan Anar Natiqoğlu Avakovun istefasına "Vətən savaşında qələbədən sonra aldığı ən xoş xəbər" şəklində reaksiya verib. Anar Natiqoğlu deyib ki, Avakov vəzifədə olduğu dönəmdə erməni lobbisinin təsiri altında olub: "Özünü daha çox erməni lobbisinin Ukraynadakı rezidenti kimi aparırdı..."

Anar Natiqoğlu onu da qeyd etmişdi ki, Arsen Avakovun açıq şəkildə erməni təəssübkeşliyi olduqca dözülməz hal almışdı: "Xüsusən 2020-ci ildə Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi Avakovun azərbaycanlılara qarşı bütün mahiyyətini ortaya çıxardı. Hər bir imkanda Ukraynada yaşayan azərbaycanlılara qarşı addım atırdı. Kriminalist-ekspert İlqar Altayın ötən il verdiyi açıqlamaya nəzər salaq: Azərbaycanlılara qarşı törədilən qətllərin arxasında Ukraynadakı ermənipərəst qüvvələrin "əl"i var. "Xüsusən də bu işlərin arxasında Ukraynanın erməni əsilli daxili işlər naziri Avakov durur. Avakov normal insan deyil. Mafiozun biridir. Dövlətdə, silahlı qruplaşmalarda və kriminal aləmdə dayaqları var. Ona görə də ona təsir edə bilmirlər".

Maraqlıdır, görəsən Misir Qasımlıda günah axtaran soydaşlarımız bilirmi ki, 7 il Ukrayna kimi böyük bir dövlətin DİN olmuş, oliqarx, mafioz , erməni xislətli milyarder onun xalqına məğlubiyyət yaşatmış bir giziri, bir vətənpərvər döyüşçünü rahat buraxarmı? Nə olsun ki, hazırda o mafioz yüksək vəzifədə deyil, amma kim zəmanət verə bilər ki, Ukrayna dövlət və hökümət orqanlarında onun əmrinə, puluna, silahlı qruplaşmasına xidmət etməyən ukraynalı yoxdur?Yəni, mənim soydaşlarım o qədər sadəlövh deyil ki, 7 il DİN-i işləmiş bir milyarderin gücsüz olduğunu, adi bir rayon məhkəməsinə hökmü çatmadığını düşünsün ...

### *Ukraynadakı fürsətçil erməniəsilli məmurlar - kor ilanlar*

Bir faktıda unutmadım: Ermənistanın Ukraynadakı səfiri Tiqran Seyranyan 2019-cu ildə səfirliyin sosial şəbəkələrdəki rəsmi səhifəsində Qarabağa qanunsuz səfər etdi. Erməni səfirin təxribatı Ukrayna XİN ölkə vətəndaşlarını Dağlıq Qarabağ, Cənubi Osetiya və Abxaziyaya səfər etməməklə bağlı çağırışından sonra həyata keçirildi. Seyranyanın cəzasız qalması Avakovun "krişalığı" sayəsində baş tutmadımı?

Bəlkə elə düşünürsünüz ki, Ukrayna parlamentində oturan erməniəsilli deputatlar Ukrayna xalqını çox sevir? Ukryanadakı "Erməni Birliyi" təşkilatının sədri , deputat Vilen Şatvoryan parlamentdə "Erməni soyqırımı" qurbanlarının xatirəsinə ehtiram göstərilməsinə dair Ukrayna hökümətinə qanun qəbul edilməsini təklif edərkən, sizcə, onda erməni yoxsa ukraynalı duyğuları qabarmışdı? Daha sonra məhz müxalifət partiyasının üzvü Qeo Leros (əsil adı Gevorq Baqratoviç Kurexyan) Ukrayna Azərbaycanı dəstəklədiyini bildirəndən sonra aqresivləşdi və iclasda iştirak edən ölkə başçısı Vladimir Zelenskiyə orta barmağını göstərərək təhqir etdi.

Ukraynada erməni birliyinə, rifahına, xalqına, dövlətinə xidmət edən o qədər erməniəsilli, yüksək çinli məmur, mafioz, oliqarx terrorçu var ki, günlərim o faktları yazıb qurtarmağa bəs eləməz!

"Qəhrəman, məğlubedilməz erməni" mifini 44 gündə yerlə yeksan edən igidlərimizə qarşı hələ qarşıda nəinki Ukraynada, həm də bir çox ölkələrdə tələlər qurulacaq, cinayət ssenariləri yazılacaq, həbsxanalar, məzarlıqlar dolacaq! Buna əminəm, çünki o qəhrəmanların arxasında duracaq olan soydaşları sizin kimi (ən yüngül formada) sadəlövh və hücumçusunuz!

Obuxov rayon məhkəməsindən başqa rəsmi olaraq kim dedi ki, Misir cinayətkardır?

Ukraynaya təyin olunmuş səfirimiz, Allaha şükür ki, fevral ayından Bakıdadır. (Özü təsdiqləmişdi). Qazinin Ukrayna DİN tərəfindən saxlanılmasından 2 ilə qədər vaxt keçməsinə baxmayaraq, ötən gün nəhayət Pravda.az-ın əməkdaşının sorğusuna cavab olaraq xanım səfir bildirib ki, Misir Qasımlının məsələsi ilə bağlı səfirlik nə lazımdırsa edib: "Axırı yaxşı olacaq. Səfirlik yenə də nə lazımdırsa, edəcək. Amma məhkəmə işlərinə biz qarışa bilmirik…"

O, daha sonra qeyd edib ki, bu sual Xarici İşlər Nazirliyinə, Azərbaycanın Ukraynadakı müvəqqəti işlər vəkili Sabir Rzayevə ünvanlasa, daha münasib olar…

### *Deyəsən çox danışdım...*

Əziz soydaşlarım, əmin olmadığınız, faktlarını görmədiyiniz bir olaya, bir soydaşımızın taleyinə belə aqressiv yanaşmayın! Axı, Misirin və Sübhanın ispaniyalını döyməsi ilə bağlı hansı faktlar (video, foto, şahid) var? Niyə o faktlar yayınlanmayıb?

Son olaraq: Tovuz rayonunun Dondar Quşçu kəndi sakini 2009 təvəllüdlü Nərmin Quliyevanın öldürülməsi hadisəsinə nəzər salın! Nərmin Quliyeva 21 noyabr 2019 tarixində qaçırılmış, 45 gün sonra yanvarın 6-da ölü bədəni yandırılmış şəkildə tapılmışdır. Qətli isə İlkin Süleymanov adlı özünü müdafiə etməkdə güclük çəkən günahsız birinin boynunda qalıb. Adi məktəbli də anlayır ki, İmpotent və əqli sağlığında problemi olan biri bu cinayəti nəinki törətməz, hətta onu zormış olsa belə, 45 gün Nərmini gizlətmək, onu yandırmaq ağlına da gəlməzdi. Eləcə də, 2017 -ci ildə "Tərtər cinayətləri" işində "vətən xaini", "satqın" adlandırılaraq öldürülən hərbiçilərin bir hissəsi bəraət aldı, 19 nəfər hərbçi isə günahsız olduqları üçün həbsdən azad edildi.

Ədalət gec bərqərar olar, amma mütləq olar! O zaman çalışın, vaxtıilə günahlandırdığınız günahsız soydaşlarınınızın gözünün içinə baxanda utanıb- qızarmayasınız.

***P.S.* Misir Qasımlı , eləcə də qazilər haqqında qərəzli danışanlar, xahiş edirəm, "od püskürməyə", "günahlandırmağa" başlamamışdan əvvəl yadınıza salın, görün, bu xalq, bu dövlət, bu vətən üçün nə etmisiniz? Necə deyərlər, "tanrı tərəzi"sinə bir daş qoya bilmisinizmi? Doğrudan da əgər hansısa qazinin günahı, varsa, imkan verin onu haqqı olanlar, məsələn qazi qardaşları qınasın, dövlət də müəyyən ölçülər götürsün! Siz Allah susun!***

**Əntiqə Rəşid**

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

# Səhəri xeyirə açılan yurd yeri

**Hər dəfə Füzuliyə gedəndə yeni bir tikintinin, yeni bir layihənin icrasının şahidi oluram. Şahidi oluram ki, Füzuli rayonunun 1994-cü ildə işğaldan azad olunmuş 22 kəndində və Horadiz şəhərində çox möhtəşəm quruculuq, abadlıq, inşaat işləri görülüb. Bu da təsadüfi deyildir. Çünki Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyev həmişə cəbhə bölgəsi kimi bu rayona xüsusi qayğı göstərib, köməklik edib və ədalət naminə deyək ki, Füzuli camaatı da bu diqqəti və dəstəyi heç vaxt yadından çıxarmayıb.**

Əlbəttə, 1994-cü ilin yanvar ayından sonra rayonun 22 kəndini və 1 şəhərini bərpa etmək elə də asan deyildi. Çünki yağı düşmən bu yerlərdə və bu yurdlarda daşı daş üstünə qoymamış, bütün yaşayış binalarını, məktəbləri, xəstəxanaları, uşaq bağçalarını yandırmışdı. Dünyanın heç bir yerində müharibə edən ölkə kəndləri-kəsəkləri, şəhərləri yandırmır. Amma ermənilər bu alçaqlığı da eləmişdilər. Düşünürdülər ki, hər şey yanandan sonra onu bərpa edə bilməyəcəyik və bərpa etsək də uzun müddət vaxt lazım olacaq. Amma onlar həmişə olduğu kimi, yenə yanılmışdılar. Füzuli rayonunun 22 kəndi və Horadiz şəhəri dediyimiz kimi, Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin rəhbərliyi və köməkliyi sayəsində bir neçə ildə yenidən tikildi, bərpa edildi və dağılmış, yerlə-yeksan olmuş kəndlər möhtəşəm bir görkəm aldı.

Təbii ki, bütün bu işləri görmək, gerçəkləşdirmək elə də asan olmadı. Atalarınbir sözü var: "El bir olsa, dağ oynadar yerindən". Bəli, Füzuli camaatı Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin ətrafında möhkəm birləşdilər, rayonda quruculuq, abadlıq və yenidənqurma işlərində yaxından iştirak etdilər. Daha doğrusu, hər bir Füzuli sakini zəhmətə qatlaşaraq özünün həyatını yenidən qurmağı bacardı. Ümumiyyətlə, bir fikri demək istəyirik ki, hər şey insanın öz əlindən, zəhmətindən asılıdır. Əgər insan istəsə, səhrada da gülüstan yarada bilər. Bax, ermənilər də Füzulini səhradan da betər günə qoymuşdular. Amma bu, eli, obanı ruhdan salmadı, əksinə, ən ağır gündə bu el, oba bir-birinə arxa durdu və böyük quruculuq işlərinə başladı.



Artıq çətin günlər arxada qalıb. İndi Füzulinin 22 kəndi və eləcə də Horadiz şəhəri tamamilə dəyişib. Hətta ermənilər İkinci Qarabağ savaşında deyirdilər ki, biz Horadizi yenidən işğal edəcəyik, oranın daşını-daş üstünə qoymayacağıq. Ancaq düşmənin niyyəti gözündə qaldı. Özləri darmadağın edildi, iti qovan kimi nəinki Füzulidən, işğal altında olan bütün rayonlarımızdan qovuldular. İndi də it kimi hərdənbir hürüşürlər. Bu da gec-tez onlara baha başa gələcək. Onların arxasında kimin durmasından asılı olmayaraq, hər zaman, hər an öz paylarını alacaqlar. Bir az o yan, bu yan eləsələr, Xankəndindən də rədd olub gedəcəklər. Bir balaca səbirlik olsaq, hər şeyi tezliklə görəcəyik!

Bu gün Horadizi Paris şəhərinə bənzədirlər. Burda heç bir mübaliğə, heç bir şişirtmə yoxdur. Horadiz doğurdan da bir Avropa şəhərinə oxşayır. Horadizin həm gündüzü, həm də gecəsi sanki nağıllar aləminə bənzəyir. Bir-birindən gözəl parklar, xiyabanlar, sosial obyektlər... şəhərə bir gözəllik gətirir. Üstəlik də, son vaxtlar Horadizdə 100 minə yaxın müxtəlif növ ağaclar əkilib və bu ağaclar şəhərə yayın istisində xüsusi bir sərinlik gətirir. Heydər Əliyev parkı, Bayraq meydanı, mən deyərdim ki, respublikamızın ən gözəl guşələrindən biri sayılır. Elə ki, Heydər Əliyev parkına gəlirsən, ordakı gülləri, çiçəkləri, yaşıl çəmənləri görürsən, adama ləzzət eləyir. Hər gülün, hər çiçəyin bir ətri var. Özü də bu ağaclara, güllərə, çiçəklərə Füzuli rayonunun Mənzil Kommunal Təsərrüfatının işçiləri öz balaları kimi baxırlar. Hər fəsilə uyğun onlar becərmə işləri aparır, qışda və payızda qurumuş ağacların budaqlarını kəsir, yayda isə fasiləsiz olaraq gündə 3 dəfə su verirlər. Hələ üstəlik də, bu ağaclar vaxtaşırı olaraq dərmanlanır. Bunu da ona görə edirlər ki, küknar, şam ağaclarını, eləcə də çinar ağaclarını müxtəlif xəstəliklər məhv eləməsin.

Təkcə Bayraq meydanına çıxmaq və ordan şəhərə tamaşa etmək nəyə desən dəyər. Çünki Bayraq meydanı Horadizin ən hündür yüksəkliyində tikilib. Burda da minlərlə eldar şamı əkilib və bu ağaclar mütəmadi olaraq becərilir, xidmət göstərilir və su verilir. Mənzil Kommunal Təsərrüfatı Birliyinin rəisi elə Teymur müəllimlə də dəfələrlə bu gözəl və möhtəşəm parkda görüşmüşük. Teymur müəllim deyir ki, hər gün səhər saat 6-dan biz Horadizin küçələrini, prospektləri təmizləyir və eyni zamanda əməkdaşlarımızla birlikdə parklarda, xiyabanlarda əkilmiş güllərə, çiçəklərə xidmət göstəririk. Elə bir gün, elə bir saat olmaz ki, biz işimizi yarımçıq qoyaq və tapşırılmış işi görməyək və bizim əməkdaşlar da gördükləri işdən zövq alırlar.

Teymur müəllim onu da deyir ki, noyabr ayında Horadiz şəhərində və eləcə də Bakı-Horadiz avtomobil yolunun şəhər istiqamətində yüzlərlə yeni yaşıl ağaclar, bəzək kolları və güllər əkmişik. Təbii ki, bu əkdiyimiz ağaclar qulluq və qayğı sevir. Onlara bir gün, bir həftə xidmət etməsən, inkişaf etməz, quruyar və müxtəlif xəstəliklərə tutular. Ona görə də hər həftə biz bu ağaclara lazım olan qulluğu və xidməti göstəririk. Aydındır ki, hər gün şəhərimizə və eləcə də Cəbrayıl, Qubadlı istiqamətinə bu yolla minlərlə insan gedir. Onlar da bu gözəllikləri görəndə istər-istəməz sevinir və bundan zövq alırlar. Çünki artıq



Cəbrayılda, Qubadlıda, Zəngilanda da böyük ağacəkmə kompaniyaları davam edir.

**Füzulinin digər rayonlara bənzəməyən və oxşamayan bir yadda qalan, unikal gözəlliyi də var. Bu da ondan ibarətdir ki, Bakı-Horadiz yolunun Füzulinin girəcəyindən başlamış düz Cəbrayıla qədər olan yerində, yolun sağında və solunda 10 il bundan qabaq çinar ağacları əkilib və bu çinar ağacları əvvəllər balaca olsa da, indi hamısı çox möhtəşəm və böyük görünür. Tək çinar ağacları bu istiqamətdə əkilməyib. Füzuli rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyevin təşəbbüsü ilə və Füzuli camaatının gücü ilə azad olunmuş bütün kəndlərdə və yeni salınmış qəsəbələrdə, yolun sağında və solunda çinar ağacları əkilib. İnanın, bu ağaclar o qədər zəngin, o qədər möhtəşəm görünür ki, adam yayın istisində onun kölgəsində oturmaqdan və dincəlməkdən zövq alır. Böyük Bəhmənlinin girəcəyində əkilmiş çinar ağacları isə bir qədər də möhtəşəmdir. Yolun hər iki tərəfindən boylanan bu ağaclar artıq bir-biri ilə birləşib sanki bir tunel yaranıb. Hər dəfə bu mənzərəni görəndə düşünürəm ki, bir vaxtlar Göyçayda, Zəngilanda çinar ağaclarının möhtəşəmliyindən danışırdılar. Amma indi də Füzuli rayonuna bir yaraşıq verən bu çinar ağaclarından nə qədər desən xoş söz danışmaq olar. Çinar ağacları axı həm uzun ömürlüdür, həm də digər ağaclardan daha hündürdür. Qoy yurdumuz həmişə belə ucalıqda olsun, bu torpağa, bu ocağa gələnlər Füzulidə görülmüş möhtəşəm quruculuq və abadlıq işlərindən zövq alsınlar.**

**Faiq QİSMƏTOĞLU**

**AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ**



*Şahmar Əkbərzadə*

### AYIRAR BU DÜNYA BİZİ NƏ VAXTSA

Burax inadını, ay ömrüm, günüm
Çəkilər göylərə harayım, ünüm.
Dolaşar qəfildən ömür düyünüm,
Ayırar bu dünya bizi nə vaxtsa.

Dağlayar qəlbini, dağlayar dağ-dağ,
Sinəmdə əcəlin çatdığı ocaq.
Tüstüsü gözünü yandırar ancaq,
Üşüdər qəlbini közü nə vaxtsa.

Ha səslən, dağılmaz əbədi yuxum,
Burnunun ucunu göynədər qoxum.
Çarpaz dağlar çəkər sənə yoxluğum,
Çiləyər yarana duzu nə vaxtsa.

Düşər xatirələr yadına bir-bir,
Yanarsan günlərin oduna bir-bir.
Əsər əsim-əsim, titrəyər tir-tir,
Sınar qürurunun dizi nə vaxtsa.

Bəxtin gözlənilməz günlə rastlaşar,
Odun da, közün də Şahmarsızlaşar,
Dadın da, duzun da Şahmarsızlaşar,
Ayırar bu dünya bizi nə vaxtsa.

### SƏNİ

Arzumun yoluna çıxan həyatsan,
Dönmərəm köksümdə tonqal da çatsan...
Bilsəm ki, yandırıb-yaxsan bir odsan
Yenə gözüm üstə qoyaram səni

Gülüm, könlüm hara, şikayət hara?
Sevinər çəkdiyin çarpaz dağlara
Gündə baxışından alsam min yara
Xeyirxah mələyim sayaram səni.

Ölüncə yanında əsir qalaram
Verdiyin əzaba layla çalaram,
Vaxt gələr çevrilib torpaq olaram
Gəlsən hənirtindən duyaram səni.

### YOLLAR

Ayaqla torpağın öpüşməsindən
Doğulub böyüyür yollar həyatda.
Tapdana-tapdana min illər boyu,
Ömür qazanıbdır ayaqlar altda.

Gəlimli-gedimli yol nəsillərin,
ölməz abidəsi, əmanətdir.
Tapdanmaq - insanın şərəfsizliyi,
Tapdanmaq - yolların ləyaqətidir.

İnsan qədəminə tamarzı qalmaq,
Yolların bağrına çəkilən dağdır.
Dünyada ayaqlar altda yaşamaq,
Bircə yollar üçün alçalmamaqdır.

### ÖZÜN ÖZGƏNİN

Sənin tilsimindən çıxa bilmirəm,
Neyləyim bu eşqi boğa bilmirəm,
Yolundan gözümü yığa bilmirəm,
Gözdağın mənimdir, gözün özgənin.

Öz sevdan özünü qarğışa salıb,
Ömrün qara qalıb, yağışa qalıb,
Taleyin tüstünlə baş-başa qalıb,
Tüstün mənimkidir, közün özgənin.

Şahmara vəfandan cəfan nurludur,
Baharın şaxtalı, yayın qarlıdır,
Həsrətin özündən etibarlıdır,
Həsrətin mənimdir, özün özgənin.

### ÜŞÜDÜ

Sənsiz salamımı almadı dağlar,
Həmdəmim, həyanım olmadı dağlar,
Elə köks ötürdü gülgəz yaylaqlar
Yamaclar üşüdü, qaşlar üşüdü.

Məni sənsiz görüb süsən saraldı,
Nərgiz pörşələndi, lalə qaraldı,
Göyü bulud basdı, yeri qar aldı,
Dərələr ah çəkdi, döşlər üşüdü.

Məni sənsiz görüb ürpəşdi otlar
Əsdi titim-titim titrəşdi otlar,
Bəyaz yaylığını sıxdı buludlar,
Məni sənsiz görüb quşlar üşüdü.

Üzümə baxmadı gədiklər, gülüm,
Mələşdi talada əliklər, gülüm,
Elə oxudu ki, kəkliklər, gülüm,
Qayalar səksəndi, daşlar üşüdü.

Məni sənsiz görüb çağladı bulaq,
Könlümü min yerdən dağladı bulaq,
Körpə cüyür kimi ağladı bulaq,
Gözümün içində yaşlar üşüdü.

### BİTMƏSİN

Apar məni o günlərə,o aya
Göz baxmaqdan,üz yanmaqdan doymaya,
Əllərimi əlin yaxin qoymaya,
Nəfəsimdə də nəfəsinə yetməsin,
Bu sevdamın ömrü-günü bitməsin!

Apar məni ilk görüşə,üşənim,
O görüşün ayaqina döşənim,
Biraz gecik,üşüm-üşüm üşüyüm,
Qoy ürəyim titim-titim titrəsin
Bu sevdamın ömrü günü bitməsin!

Apar məni o bahara gəl,gülüm,
Cicək olum əllərinlə üzülülm,
Bircə-bircə tellərinə düzülüm,
Xəyalimdan özgə xəyal ötməsin,
Bu sevdamın ömrü-günü bitməsin!

Apar məni o yerlərə,gəzək bir.
Anan səni şişə cəksin,dözək bir,
Bəhanə tap,inciyək bir,küsək bir.
Durub gedim,ayaqlarim getməsin,
Bu sevdamın ömrü-günü bitməsin!

Apar məni o günümə baxim mən,
Qizillari yandirim mən,yaxim mən,
Öz eşqimi barmaqina taxim mən,
Bir üzüyə yenə gücüm yetməsin,
Bu sevdamın ömrü-günü bitməsin!

Daş-qaş nədir, sən qüdrətdən süslüsən,
Göydən enməz mələklərin mislisən,
Bu dünyada bir od mənəm,bir od sən,
Alov varmi, mənə qibtə etməsin?
Bu sevdamın ömrü-günü bitməsin!

### KİRPİYİMİ QƏDƏMİNƏ SƏRİM QOY!

Məndən küsmə, gül nəfəsin töyşüyər,
Səni görüb bənövşələr pörşüyər,
Dayan gülüm, ayaqların üşüyər,
Kirpiyimi qədəminə sərim qoy!

Əl verirəm, əsdirirsən əlimi
Gül verirəm, küsdürürsən gülümü,
Yavaş yeri, yel dağıtmış telini
Ürəyimin tellərinə hörüm qoy!

Həsrətimin çiçəkləri xallanıb,
Ədaların şan bağlayıb, ballanıb,
Dodağında küsüşmələr barlanıb,
O barları dodağımla dərim qoy!

Heç bilmirəm ulduz nədir, Ay nədir!
Bürcüm nə bürc, günüm nə gün, ay nədir?
Baxışların taleyimə aynadır
Ayaq saxla, taleyimi görüm qoy!

Şahmar yazıq hardan alsın dözümü?
Nazın , qəmzən sındırıbdır dizimi.
Yana-yana kül elədim özümü,
Sürmə olum, gözlərinə girim qoy!

### HANI

Xoş gördük a yerlər a göylər salam
Gəldim o yerlərdən bir salam alam.
Danış bənövşəli, laləli talam
Ölüb dirildiyim o anım hanı.

İlk eşqin qisməti gətirməyirsə
Talada görməsin günahı kimsə
Andına eşqinə dönük mənəmsə
Bəs əhdinə vəfalı olanım hanı.

Tutulub göylərin qaşı qabağı
Dindirə bilmirəm şahid qovağı
Soruşa bilmirəm ayrılıq çağı
Arxamca gözləri dolanım hanı.

Sənsiz bu yerlərdə şirin avazam
Kövrələ-kövrələ axan Arazam
"Yanıq Kərəm"yə köklənmiş sazam
Dindirənim hanı, çalanım hanı.

### QARABAĞSIZ QARABAĞLI

Utanım yerinə ay bulud sənin,
Allahın altında ağ eyləyirsən..
Alışır ciyəri çölün, çəmənin,
Yağışı dənizə səpələyirsən..

Utanım yerinə sənin, ay dəniz,
Susuzlar qoynunda yetmir kamına..
Çayların başını kəsib tər-təmiz,
Dönmüsən suların qəbristanına..

Bu da ki, min illik Türk qəbristanı,
Analar kor oldu ağı deməkdən..
Utanım yerinə, Türk yatağanı,
Gözlərin doymadı Türkü yeməkdən..

Utanım yerinə Misri qilincım,
Tufəng çıxan kimi qınına girdin..
Utanıb-qızarıb sənə güvəncim,
Sən öz qanımıza yerikləyirdin..

Utanım yerinə qoç Koroğlu, din!
Düşmənin kimiydi? - Həsən paşaydı..
"Leş bir yana, baş bir yana" -deyirdin,
Qalağa vurduğun qardaş başıydı..

Utanım yerinə Əmir Teymurum,
Əzdin Bəyazidi, qırdın Tatarı..
Sənin zəfərinlə sındı qürurum,
Yadlara qul oldu yurd balaları..

Şah babam Xətayi, ey Sultan Səlim,
"Çaldıran" deyəndə odlanıram mən..
Əsrlər keçsə də düzəlmir belim,
Sizin yerinizə utanıram mən..

Utanım yerinə ey insan oğlu,
Bir yandan əcəldən fəryad edirsən..
O biri yandan da zirehli, zağlı,
Ölüm silahları icad edirsən..

Bir utanc qurumu qurardım hökmən,
Əgər olmasaydı məni qınayan..
Yerlərdən, göylərdən utanıram mən,
Utanım yerinə, ay utanmayan..!

### TƏZƏ NAĞARA

Sitəm görəcəksən ulduzlar sanı,
Bir azdan başına od ələnəcək.
Dodaqlar öpəcək qara zurnanı,
Səninsə sifətin sillələnəcək.

Hələ təpər topla, dözüm yığ hələ,
Qanları coşdurub qaynatmalısan.
Üzünə çırpılan sillələr ilə
Toya gələnləri oynatmalısan.

Bir azdan üstünə düşəcək əllər,
Səni nağaraçı yesir edəcək.
Ağrından həzz alıb süzən gözəllər
Fəryadın üstündə yallı gedəcək.

Bu alın yazındı, nə küs, nə inci,
Çırtma çatlayacaq qaşında sənin.
Dərdə bax, hamının toyu, sevinci
Qapaza dönəcək başında sənin.

Alın yazısından qaçmayıb heç kim,
Sitəmə sinə gər, qəmə qələm çək!
Yediyin sillələr qorxma əzizim,
Şəninə əskiklik gətirməyəcək.

Qoşa şapalağa dözəcək dərin,
Nalən musiqiyə dönəcək hökmən,
Qəm yemə, nağara, döyülənlərin
Bütün yer üzündə xoşbəxti sənsən.

Bəxtəvər başına, sillələn nə qəm,
Sillələr ömrünə nur ələyəcək.
Dərd mənim dərdimdir, sabah bilmirəm
Kimlər taleyimi silləleyəcək!

### ÖLÜ TORPAQLARA MƏZAR QAZILMIR

Allah, bu torpağın kəsilib başı,
Quran oxumağa mollası yoxdur!
Kəfən axtarmağa qohum-qardaşı,
Şivən qoparmağa anası yoxdur!

Ana torpaq dedik axı ona biz.
Yığışın ay ellər, anamız ölüb!
Bizə öz qoynunda yer verənimiz,
Ruzular yetirən dünyamız ölüb!

Yerlərə, göylərə sığmaz bu günah,
Qatil özümüzük, müsibətə bax!
Öləni torpağa gömərlər, Allah,
Bəs ölmüş torpağı harda basdıraq?

### 48 ÖLÇÜLÜ QADIN PALTARI

Geyimlər görəndə ana, hər dönə
48 ölçüdə qalar gözlərim,
Cibim pullarımın qəbrinə dönər
Titrəyər dizlərim, dolar gözlərim

48 ölçüdə paltar geyərdin,
Kəsər şaxta məni, döyər qar məni.
48 ölçüyə çevrilib dərdin
Vitrindən boylanıb yandırar məni.

İmkanım hər dəfə imkansızlaşar
Baxar 48-lər arxamca dost-dost,
Hamısı əyninə gözəl yaraşar
Niyə birini də alammıram bəs?

Qalıb gözlərimdə murazım mənim
Təsəllim bir şirin gümana qalıb,
Sevinmək qismətim qızım Zöhrənin
Ölçüsü 48 olana qalıb.

Düşər boy- buxunun yadıma hər gün
Boyun gedər-gəlməz yolcusu olub.
Gör neçə ildir ki ,əyin-baş ölçün
Dönüb həstərimin ölçüsü olub.

Yazbaşı qar yağar ilk nübarıma ,
Mən səni yazbaşı itirdim, ana
Əyin-başın üçün yığdıqlarıma
Səni son mənzilə ötürdüm, ana

O vaxtdan payım nə, töhfələrim nə?
Oğul yox, ürəyi daş olmuşam mən!
Paltar əvəzinə, sənin əyninə
48 ölçüdə daş almışam mən

48 ölçüdə görsəm hər nəyi,
Nəbzim 48-ə enər anbaan
Uçunub yerindən qopar ürəyim
Sürünər müqəddəs torpağınacan

48 ölüçülü qadın paltarı
Tüstümü təpəmdən qalxızar göyə
Gələrəm, üstündə bitən otları
Gözümün yaşıyla əmizdirməyə

Geyimlər-keçimlər gəlməz eyninə ,
Biganə qalmısan, ana hər şeyə.
Vətən torpağını geyib əyninə
Çoxdan qovuşmusan ölçüsüzlüyə.

Geyimlər görəndə ana, hər dönə
48 ölçüdə qalar gözlərim,
Cibim pullarımın qəbrinə dönər
Titrəyər dizlərim, dolar gözlərim

### ALLAH AMANDIR

Adamlar itirir adamlığını,
Adam təlxək olur, Allah amandır!
Kələklə gələnlər küləklə getmir,
Kələk pələng olur, Allah amandır!

Sürülər mələşir, qoçlar hələşir
Çaqqal qurda dönür, tülkü şirləşir
Cüllüt qartallaşır, milçək filləşir,
Fillər milçək olur, Allah amandır!

Bülbülün yurduna quzğun tökülür,
Güllərin gözünə millər çəkilir,
Qədim gülüstana sitəm əkilir,
Sitəm çələng olur, Allah amandır!

Səyi bəy eyləyən dastançıya bax,
Bostan tanımayan bostançıya bax,
Pulla böhtan deyən böhtançıya bax,
Böhtan çörək olur, Allah amandır!

Quru didişmədə vaxt batıb gedir,
Hamı xalq-xalq deyir, xalq batıb gedir,
Haqsızın əlində haqq batıb gedir,
Haqlı "xərçəng"olur, Allah amandır!

Hesab çəkiləndə əyri düz çıxır,
Üzü üzlər görən qarı qiz çıxır,
Həqiqət bir anda dönüb fıs çıxır,
Yalan gerçək olur, Allah amandır!

Namərdlər birləşir, mərdlər əyişir,
İmanlar, məbədlər, pirlər dəyişir,
Məqamlar dəyişir, yerlər dəyişir,
İblis mələk olur, Allah amandır!

Aqil ABBAS

# "QARABAĞ"I BİR FUTBOLÇUNUN AYAĞINA BAĞLAMAYIN

*Kadi Borgez Rusiyanın "Krasnodar" klubuna getmək istəyir. Gedəni saxlamaq olmaz, yolu açıq olsun, Tanrı da köməyi. Yaxşı futbolçuydu, danmaq olmaz.*

*Amma indi oxuyuram ki, "Ay "Qarabağ" dağılır", "Veşoviç də gedir", "Onlarsız "Qarabağ" necə olacaq", "Qurban Qurbanov onlarsız neyləyəcək"?*

*"Qarabağ"ı bir futbolçunun ayağına bağlamayın, "Qarabağ" komando şəklində oynayır. Komando da bir futbolçunun gedişi ilə özünü itirməz. Kadi gedər, nə bilim onu Musa Qurbanlı əvəz edər. Yəni Kadi əvəzsiz futbolçu deyil, Messi deyil, Mbappe deyil, Ronaldo heç deyil. Sadəcə olaraq, Azərbaycan çempionatında Kadidir.*

*Yeri gəlmişkən, Molla Nəsrəddin kuzəni verir oğluna ki, get su gətir. Bir dənə də şapalaq vurur ki, kuzəni salıb qırma. Mollaya irad tuturlar ki, uşağı niyə vurursan, o hələ su gətirməyə getməyib ki, kuzəni qıra.*

*- Su gətirəndə kuzəni qırsa ondan sonra onu vurmağın nə xeyri?*

*Deyirəm indi Qurban Qurbanov oyundan əvvəl Zubirə babat bir şapalaq vura ki, topu vaxtında ötür. Oyundan sonra danlamağın xeyiri yoxdu. Bu da bir zarafatdı.*

*Kadinin gedişini dərd eləməyin, Qurban xocanın "B" planı var, biz bilmirik. O da nəyi nə vaxt etməyi, kimi harda oynatmağı və necə oynatmağı hər halda hamıdan yaxşı bilir.*



Eminquey

# Ədəbiyyatı "vosmoy bazarı"na çevirməyin!

**Bir yığın adam var, bu valədüzinalar ədəbiyyatdan o qədər çirkin məqsədlər uğrunda istifadə edirlər ki, bir də görürsən, pıçıldayır yıxılan, duran - "şairlər, yazıçılar düzgün adam deyillər, filan şair sürtükdü, filan yazıçı hamıya yazır" və s.**

**Bəli, təəssüf ki bu belədir və bu bir çox sahələrdə də belədir. Amma elə adamlar var, onlar həqiqətən də bu deyilənlərin ən iyrənc formasını yaşayırlar, yaşadırlar. Məsələn, özünə "yazıçı, şair" deyən elə adamlar var ki, bir kitabı haqda, beş-üç şeiri haqda xoş söz yazan adamlardan, xüsusən də xanımlardan özünə fanat, aşiq, hətta özünə sevgili belə düzəldəcək qafadadırlar.**

**Təsəvvür edin, bir adam onu oxuyan əksər xanımlara sürtüklənir. Hətta bununla yetinmir, özü-özünə türklər demiş, "gəlin-güvey" olur.**

**Elə bilir ki, yazdığı mesajlara hörmətlə, mədəniyyətlə təşəkkür edən hər kəsin əslində ona gizlin məhəbbəti zadı var. Elə bilir ki, kimsə beş-on cümləlik öz içindən buna nəsə danışırsa deməli buna aşiqdir. Elə bilir ki, bütün xanım izləyiciləri bunun dərdindən ölür. Bir adam nə qədər psix, nə qədər şərəfsiz, nə qədər özünə hörmət etməyən biri olmalıdır ki, sadəcə dərdləşdiyi, həmsöhbət olduğu insanla özünə olmayan bir dünya qursun.**

**Can, ay yazıqlar, yoxluğunuza Məleykəm ağlasın! Almısız əlinizə "şeir"inizi, cızmaqara hekayələrinizi, romanlarınızı düşmüsünüz sosial şəbəkənin, təqdimatların, tədbirlərin canına.**

**Baxmırsınız kim kimdir, ağzınızın suyu tökülür, peysərliklə əhdi-peyman bağlamısınız.**

**Sonra da çıxıb yekə-yekə danışırsız ki, prezident niyə ədəbiyyata dəyər vermir? Xalq niyə ədəbiyyatdan uzaq düşüb? Niyə bizə hörmət eləmir, dəyər vermir? Xalq sizi "şeir"inizdən asmayıb, şükür edin!**

## "Bakcell" jurnalistlər üçün seminar keçirdi

**"Bakcell" şirkəti jurnalistlər və blogerlər üçün "Mobil telekommunikasiya: son nailiyyətlər və yeni texnologiyalar" mövzusunda iki günlük seminar təşkil edib.**

Adalet.az xəbər verir ki, mobil rabitəyə həsr olunmuş bu ənənəvi seminarın əsas məqsədi telekommunikasiya sahəsinin əsasları, müasir texnologiyalar, rəqəmsallaşdırma, innovasiyalar və son tendensiyalar barədə mətbuat nümayəndələrinin və blogerlərin məlumatlılığını artırmaqdır.

Tədbirdə ölkənin bir çox aparıcı media qurumlarını təmsil edən 30-dan çox jurnalist və bloger iştirak edib.

"Bakcell" əməkdaşlarının iştirakı ilə seminar çərçivəsində "eSIM texnologiyası", "B2B ekosistemi və onun bazara təsiri", "VoLTE texnologiyası", "Mobil rabitə şəbəkəsinin iş prinsipi", "Qarabağda Bakcell" şəbəkəsinin qurulması və genişlənməsi", "Qlobal telekommunikasiya trendləri: süni intellekt", "Korporativ sosial məsuliyyət strategiyası və onun cəmiyyətə faydası" kimi mövzular üzrə təqdimatlar və interaktiv sessiyalar keçirilib.

Şirkət nümayəndələri jurnalistlərin telekommunikasiya sənayesi və yeni texnologiyalara aid suallarını cavablandırıb, fikir mübadilələri və müzakirələr aparıblar.

Qeyd edək ki, "Bakcell" 2015-ci ildən başlayaraq hər il davamlı olaraq mətbuat üçün mobil telekommunikasiyaya həsr olunmuş seminarlar təşkil edir.

## İki beynəlxalq Türk təşkilatı bir arada

**Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva Qazaxıstana rəsmi səfəri çərçivəsində Beynəlxalq Türk Akademiyasını ziyarət edib və təşkilatın yeni təyin olunmuş prezidenti Şahin Mustafayevlə görüşüb.**

Adalet.az xəbər verir ki, görüşdə türk xalqlarının qədim tarixə söykənən dostluq və qardaşlıq bağlarından, müasir dövrdə qarşılıqlı münasibətlərindən bəhs olunub. Türk dövlətlərinin hərtərəfli əməkdaşlığının inkişaf etdirilməsinin əhəmiyyəti vurğulanıb.

Tərəflər Türk Dünyasında inteqrasiya proseslərinin gücləndirilməsi yönündə Türk Əməkdaşlıq Təşkilatlarının roluna və fəaliyyətlərinə diqqəti çəkərək, rəhbərlik etdikləri təşkilatlar arasında tərəfdaşlıq əlaqələrinin möhkəmləndirilməsi istiqamətində birgə atılacaq addımları dəyərləndiriblər.

Görüş Fond və Akademiya arasında əməkdaşlığın genişləndirilməsinin gələcək perspektivləri ətrafında fikir mübadilələri ilə davam edib.

# Aynur Zurufçu: "... qərib kimiyəm"

*- İllər əvvəl: "Böyüklər, böyüklər hörür çəpəri,*
*Uşaqlar, uşaqlar sökür çəpəri.*
*İnandım: hər uşaq bir od parçası!*
*İnandım: səngiməz bu od, bu ocaq!*
*Təbrizlə Naxçıvan arasındakı*
*Çəpəri yıxan da bunlar olacaq..."*

mısraları çıxan qələm 1989-cu ildə:

***"Sərhəd çəpərləri sökülür, Allah!***
***Bu necə yuxudu,***
***Bu necə haqdı!***
***Zaman öz hökmünü qandallayacaq,***
***Tarix öz yoluna qayıdacaqdı"***

- yazdı.

**Aynur xanım, Yaqub Zurufçu ilə bağlı müsahibəmizə ilk suala Məmməd Arazın şeiri ilə başlamağımın səbəbini duymamış deyilsiniz. Qarşıdan 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü gəlir. Bu tarixdə haqqı olanlardan biri Yaqub Zurufçudur. Şairin təbirincə desək, çəpərin - sərhəd dirəklərinin sökülməsi azərbaycanlıların əsrlərlə gözlədiyi gün idi. Arzusu həyata keçən Məmməd Araz həmin vaxt:**

***Özümdən-özümə muştuluq yetər,***
***Gözlərim, sizin də gözünüz aydın!***
***Qəlbimdən birbaşa Təbrizə gedən,***
***Bir yol cilovladım, bir tel ayırdım.***

**- deyə özünə gözaydınlığı verib.**

**Mən də bu əziz gün münasibətilə xalqımızı, sizi təbrik edirəm.**

- Çox təşəkkür edirəm, Pərvanə xanım. Sizi, müsahibəni oxuyan bütün soydaşlarımızı bu şərəfli gün münasibətilə təbrik edir, Azərbaycan naminə hər zaman həmrəy olmamızı diləyirəm.

Belə önəmli gündə haqlı olaraq, Yaqub Zurufçunu xatırlamısınız. Yaqub bəy Dünya Azərbaycanlılarının Həmrəyliyinə sanki bir körpü salıb.

Güneylə Quzey Azərbaycanın birləşməsi ideyalarını təkcə sözdə deyil, musiqilərində də hər zaman xalqımıza çatdırmağa çalışıb. Onun Azərbaycana bağlı olmasının daha bir sübutu 1989-cu ildə Azərbaycan Müstəqillik Hərəkatındakı iştirakı, çıxışları olub. Bilirsiniz ki, Yaqub Zurufçu vətəninin müstəqillik yolunda apardığı mübarizədə cani-könüldən iştirak edib və o dövrün ən parlaq simasılarından olub. Azadlıq meydanındakı çıxışlarının ona həyati təhlükə yaratmasından belə çəkinməyib.

**- "Dumanlı Təbriz" "Gələcək gün"də "Azad" olacaqmı?**

- Təbrizin timsalında Güney Azərbaycanın azad olacağına inanıram. Bu çox mürəkkəb, olduqca həssas mövzudur. Saatlarca danışmaq, yaxşı-pis tərəfə yozmaq olar. Amma bu barədə Yaqub Zurufçunun fikirlərini səsləndirmək daha adil olar deyə düşünürəm. Yaqub bəy, Azərbaycanı həmişə bütöv görürdü. Birliyimizi həm arzu edib, həm də reallaşacağına inanıb və Azadlıq meydanında milyonların qarşısında deyib;

***Vətən ara, divar olmaz!***
***O tay olmaz, bu tay olmaz!***
***Dədə-baba qaydasıdır,***
***İstək olsa, "olmaz" olmaz!***

**- Söhbətə vətən mövzusuyla başladımsa bir fikrimi də əlavə edim. Yaqub Zurufçu vətən eşqinə, yurda bağlılığına görə Adam Azərbaycan sanılan vətəndaşdır, ona görə də bilmək istəyirəm, Aynur xanımı indi vətənsiz hesab etmək olarmı?**

- Bu ifadəni necə gözəl və yerində seçmisiniz. Adam Azərbaycan! Doğrudan da, Yaqub Zurufçu adam Azərbaycandır!

Bizi birləşdirən ən böyük vasitə də Azərbaycan olub.

O məni Azərbaycanda görüb, Azərbaycanda sevib və Azərbaycanda ailə qurub. Onun vətən sevgisinə, millətpərəstliyinə heyran olmuşam. Ondan çox şey öyrənmişəm. O da dediyinə görə məni vətənimə bağlı olduğum üçün daha çox sevib.

İndi Azərbaycanda - doğulduğum ölkədə vətənsiz deməzdim, amma qərib kimiyəm...

**- Qərib kimi ifadəsi duyğunuzu olduğu kimi çatdırır. Y.Zurufçu yalançı vətənpərvərlikdən uzaq idi, Vətən eşqi məktəbinin əlaçı yetirməsi olaraq, çoxunun arzuladığı xarici ölkədən Azərbaycana qayıtdı. Qayıtmağıyla şəxsi həyatında da yenilik oldu.**

- Bəli. Çoxlarının can atdığı Avropa, Amerika Birləşmiş Ştatlarından Azərbaycana qayıtdı. Özünün gəlməsi bir



yana, neçə-neçə dost, tanışlarını da Bakıya gəlməyə sövq etdi. "Bura Vətəndir. - dedi. - Yaxşısı da, pisi də bizimdir!" Mən dəfələrlə demişəm; nə yaxşı ki gəldi. Ailə qurduq, bütövləşdik, Atillamız oldu.

**- Sevginin gecikəni xoşbəxtlik gətirir, ya əksini?**

- Xoşbəxtlik mücərrəd anlayışdır. Amma bəxtəvər o kəslərdir ki, heç olmasa bir dəfə də olsun xoşbəxtliyi yaşayır. Biz xoşbəxtliyimizi nə gec, nə də tez tapmışıq. Lap vaxtında idi.

Çünki zamanı bir az o tərəf-bu tərəfə çəksəydik, bəlkə də, rastlaşmaya bilərdik.

Amma nə gözəl ki, biz bir-birimizi tanımışıq, nə yaxşı ki, bu bərabərlik var. Bəli, cismani olaraq daha çox birlikdə ola bilərdik. Amma mən onun qəlbində idim, o da mən var olduğum müddətcə məndə olacaq!

**- Baharı saxlamaq olurmu?**

- Bahar! Bu fəsil Yaqub bəyin ən sevdiyi fəsildi. Özü də baharda doğulub deyə (aprelin 8-i) mənə də doğmadı. Yaqub bəy bahara aşiq idi. Fəsillərin şahı deyirdi bahara. Heyf ki, ömrü az olur baharın...

**- Səs tonundan, danışıq tərzindən həlimlik duyulan Yaqub Zurufçu Aynur xanıma iş başında hansı sərtliyi edib?**

- Yaqub bəy o qədər həlim, o qədər nəzakətli idi ki, ona yalnız qibtə etmək olar. Bir insan bu qədərmi alicənab olar?! Sözün əsl mənasında insan kimi insan. O ki, qaldı sərtliyinə. Biz bir yerdə çalışdığımız zamanlar dəfələrlə bu sətrliyin şahidi olmuşam. İş zamanı olurdu. Məsələn; bu sujet bu cür hazırlanmalıdı. Mən də gənc idim, çılğınlığım olurdu bəzən. Öz bildiyim kimi etmək istəyirdim. Amma sonra görürdüm ki, o düz deyir.

**- Nəyi deyə bilmədiniz ona?**

- Bir insan sevdiyi adama nə deyə bilərdisə, yüz qatını demişəm Yaqub bəyə. Hər gün on dəfə "SƏNİ SEVİRƏM!" deyirdim. "ÖLÜRƏM SƏNİN ÜÇÜN!" deyirdim. "SƏNSİZ YOXAM!" deyirdim. Bu gün də deyirəm...

**- Bəs o sizə nəyisə deməkdən çəkinirdimi?**

- Bizim çox səmimi bir evliliyimiz olub. Hisslərimizi ifadə etməkdən çəkinməmişik. Nə də duyğularımızı paylaşarkən söz qıtlığı yaşamamışıq. Mükəmməl bir cütlük, nümunəvi ailə olmuşuq.

**- Yaqub Zurufçusuz həyat maraqsızdır, ya mübarizə?**

- Həyatın marağını da, gözəlliyini də, ömrümüzün müəyyən mərhələlərində yaşamağın mübarizəyə çevrildiyini də Yaqub Zurufçu ilə duymuşam.

**- Sevginizi alqışlayıram. Yaş fərqi önəmli deyil, əsas ruh, qəlb yaxınlığıdır. Poeziyada gecikmiş sevgi anlayışı var. Şairlərin əksəriyyəti bu mövzuda yazıb, mən də həmin şeirləri təhlil etmişəm. Sizin sevginizə də vurğunam. Hətta bu barədə paylaşımım olmuşdu. Gecikən sevginin hikməti, ya düsturu varmı?**

- Mənim Yaqub Zurufçuya olan hisslərim yaş fərqi tanımır. Biz heç bir zaman belə bir problem yaşamadıq. Yəni bu münasibəti qətiyyən yaşla əlaqələndirmək olmaz! Bu ruh birliyidir. Hansı yaşdan danışa bilərik ki, bu gün də mən onunla yaşayıram. Ürəyimin tamamını bürüyüb Yaqub Zurufçu.

**- İstədiyim cavabı aldım. Bəli, bu ruhun eyniliyidir. Atillanı atasının ideyalarını yaşatmaq üçün böyüdürsünüz, yoxsa öz yolu olan biri kimi?**

- Atilla sevgi övladıdır. Mən inanmaq istəyirəm ki, ən təmiz duyğulardan doğulmuş, ən nümunəvi ailə ortamında böyümüş Yaqub Zurufçu yadigarı Atilla özünə doğru yol tapacaq. Könül istər ki, o doğru yol elə Yaqub Zurufçu yolu olsun. Mən balama doğru yol arzulayıram.

**- Yaqub Zurufçu yolu. Bu ifadəniz də ürəyimdən oldu. Boynunuzda ana olmaqdan başqa hansı məsuliyyət var?**

- Yaqub Zurufçunun həyat yoldaşı, xanımı olmaq kimi bir məsuliyyətim var. Bundan qürur duyuram. Digər tərəfdən Atilla Zurufçunu böyüdürəm. Bu da başqa bir məsuliyyət, sevimli bir öhdəlikdir. Ömür vəfa etsin, mən bu vəzifəni şərəflə yerinə yetirə bilim.

**- Balanızın layiqli vətən övladı olacağı ümidilə hələlik xudahafizləşək. Nəzərinizə çatdırım ki, cavablarınız gözlədiklərim idi. Düşüncələrinizdə həmrəyik.**

- Çox sağ olun! Mən sizə təşəkkür edirəm! Ürəyimi açmağa vəsilə olduğunuz üçün minnətdaram!

Pərvanə Bayramqızı

# Dünyanın müxtəlif Yeni il süfrələri

**Xristian dünyasında Yeni il yeməyi deyilən xüsusi yemək yoxdur.Onlar bu son yeməyi daha təvazökarlıqla keçirlər. Milad günü xüsusi yeməklər hazırlayırlar.**



Amma o günün menyusunda hind toyuğu da yoxdur. Hind toyuğu "Şükran Günü"ndə süfrələrdə öz yerini axtarır. Həmin günün dini etiqadla heç bir əlaqəsi yoxdur. Bu, yerli amerikalıların Amerikanın sahillərinə gələn ac, səfil avropalı mühacirlərə hind toyuğu ilə təşəkkür günüdür. Amma yenə də ilin son günündə süfrələr digər günlərdən bir qədər zəngin və bir az fərqli olur. Yeyilən qidalara xüsusi mənalar verilir.

Rusiyada içki o axşam yeməkdən daha vacibdir. Araqlar soyuducudan çıxarılır, qədəhlər doldurulur, gecə yarısına qədər dayanmadan araq içilir. Araq ön plana çıxanda süfrəyə onu müşayiət edəcək qablar da qoyulur. Məsələn, müxtəlif turşular, çoxlu kürü, rus salatı, kartof salatı, qurudulmuş soyuq ət və balıq, karides, qara çörək dilimləri, yabanı göbələklər. Əgər isti yemək istəyirsinizsə, çox seçim yoxdur. Ya bütöv kələm dolması, ya da yan tərəfində kartof püresi ilə qızardılmış toyuq. Onsuz da o boyda araqdan sonra nə yediyini anlamaq çətin məsələdir.

Yaponiyada Yeni il gecəsinin ən vacib yeməyi Soba adlı əriştə şorbasıdır. Bulyonda qaynadılmış əriştə üzərinə dəniz yosunu çəkilərək hazırlanır.İstər isti yeyin, istərsə də soyuq, təki yemək yeyərkən, taxta çubuqların arasına sıxdığınız əriştəni qırmamağa diqqət edin. Ağzınıza nə qədər əriştə qoysanız, ömrünüz bir o qədər uzun olar. Beləliklə, bu şorbanı içmək bir növ ulduz falına baxmaq kimidir.

Çində Yeni il süfrələrində bir az daha çox çeşid var. Ancaq hər yeməyin bir mənası var. Ən vacib yemək düyü tortudur. Bu xüsusi tort 3000 ildir ki, yeni il süfrələrinin dəyişməz yeməyidir. Bu yemək bərəkətli il arzusu ilə yeyilir.

Balıq da vacib qidadır. Zəncəfil və digər ədviyyatlarla buxarlanmış bütün balıqların Yeni ildə sülh gətirəcəyinə inanılır. Doldurulmuş küftələrimizə bənzəyən şirin düyü topları da məhsuldar il diləyi ilə yeyilir. Şalgam tortu, ravioli, uzun əriştə şorbasıvə digər vacib yeməklər. Ancaq ən vacibi Çin Ördəyidir. Bu ləzzətli yeməyi yeyən subayların xoşbəxt bir evlilik quracağına inanılır.

İtalyanlar isə yeni il süfrəsində mərciməyi ön plana çıxarırlar. Çünki mərciməyin zənginlik gətirəcəyinə inanırlar. Mərcimək ilə verilən ən məşhur yemək "Cotechind"dır. Modena bölgəsindən olan bu xüsusi yeməkdə qaynadılmış mərciməklərin üzərinə yağlı donuz ətindən hazırlanmış kolbasa dilimləri qoyulur.

Yeni ilin digər xüsusi yeməyi "Zampone"dir. Bu yeməyin hazırlanması belədir: Donuz ətinin ayaqları üyüdülmüş donuz əti ilə doldurulur, qaynadılır və mərciмək yeməyi ilə verilir.

Uğur gətirdiyinə inanılan ağ risotto, bulyonda qaynadılmış tortellini və Veneziana adlı tort Yeni il süfrələrinin vazkeçilməzləri arasındadır. Təbii ki, həmin gecə çoxlu köpüklü şərab da içilir.

Peruda Yeni ilin sevimli yeməyi kartofdur. Onunla həm fala baxırlar, həm də müxtəlif xörəklər hazırlayırlar.

**Fal belədir: üç kartof alırsınız. Bir bütöv və bir yarısını soyursunuz. Sonuncu qabıqlı qalır. Onları masanın altındakı boşqaba qoyursan. Gecə yarısı işıqlar sönəndə bu boşqabdan bir kartof alırsan. Aldığınız bütöv qabığı soyulmuş kartofdursa, yeni ildə çoxlu gəliriniz olacaq. Əgər qabığı təmizlənməmiş kartofu seçsəniz, iliniz sizə şans gətirəcək. Yarım soyulmuş kartof seçsəniz, yeni il köhnədən fərqlənməyəcək. Bu yeməklər yeyilərkən qadınların sarı paltar geyinməsinə diqqət yetirilir.**

Eminquey

## Azər Qəribin Bulvardan şikayəti

**Azər Qərib atraksionların qiymətindən və qurulan sistemdən şikayət edib.**



Adalet.az xəbər verir ki, qiymətlərdən şikayət edən A.Qərib öz fikirlərini sosial şəbəkədə yazıb:

"Üç yaşlı nəvəmlə bulvara getdik atraksionlara minməyə, bəxtəvər başımıza. İki dəqiqə balaca qatar gedir, qiyməti 2 manat. Mən Azneftdən Yasamala 2 manata gedirəm, siz qatara görə həmin pulu alırsınız? İnsafınız var? Həmin atraksionlara gələnlərin əksər hissəsi heç də geniş imkanlara malik olanlar deyil, bilirsinizmi bunu? Mənim yanımda bir kişi iki uşaqla geri döndü ki, bahadır".

Aparıcı atraksionların qiymətinin çox baha olduğunu qeyd edib.

"İndi bazar iqtisadiyatından danışanlar olacaq ki, qiymətləri bazar tənzimləyir, mal satılırsa, qiyməti niyə salım? Düzdür, tam razıyam, haqlısınız, amma bunların hamısı digər hallara aid ediləndə məntiqli səslənir. Məsələn, oteldir, 300 manatım yoxdur, gecəsi 50 manatlıqda qalaram. Burada isə seçim yoxdur, karusel 3 manatdır, alternativi isə yoxdur. Pulun varsa, min, yoxdursa, suyun süzülə-süzülə uşaqların yanında pərt olub qayıt evinə. Keçək digər məsələyə. Deməli, qatara minmək üçün gərək kassada uzun bir növbəyə durasan. Orada sənə plastik kart verirlər və ona görə də əlavə iki manat da girov götürürlər. Gedib atraksiona minirsən, sonra yenidən həmin uzunluğunda olan növbəyə durursan ki, kartı qaytarıb iki manatını geri götürəsən. Yəni iki dəqiqəlik atraksiona minmək üçün bir saat növbələrdə durmalısan. Bu nə sistemdir belə? Hədsiz dərəcədə böyük ümid edirəm ki, Bulvar idarəsində çöldə 21-ci əsrin olduğu haqda məlumatlı insanlar var, müasir texnologiyalar, kosmosa uçuşlar, kartla nağdsiz ödənişlər filan.

Ola bilsin ki, atraksionlardan gələn gəlirlər yetərli deyil və xaricə getmək imkanları yoxdur, o zaman dəvət etsinlər gəlib onlara bir az oralardan danışım, bilsinlər dünyada nələr var. Özü də tam ödənişsiz, onlarda pul nə gəzir...".

## Rəqqasə Fatimə: "Xuraman düzgün demir"

**Rəqqasə Fatimə Fətəliyeva müğənni Xuraman Şuşalının xına biznesi ilə məşğul olan şəxslərin içində özünü görməməsinə münasibət bildirib.**

Adalet.az xəbər verir ki, Fatimə "Özəl" proqramında onun "İstəmirəm ki, məni xına aparıcıları ilə bir sıraya salsınlar" fikirləri barədə bunu deyib:

"Xuramanın əziyyəti az olmayıb, peşəkarlardan dərs alıb. Bəlkə o fikirlə deyib ki, mən müğənni kimi fəaliyyət göstərirəm. Bacı, o zaman müğənni kimi fəaliyyət göstər də, xına aparırsansa, bu işin içində varsan. Şairəsi, müğənnisi, rəqqasəsi hamımız bu işin içindəyik. Fikirləri düzgün çıxmadı. İnanmıram ki, Xuraman onu aşağılamaq mənasında deyib. Kənardan yaxşı çıxmadı.

Allah hamının ruzisini versin. Vaxtilə açıq-saçıq geyinən müğənni idi, Allah ona sevgi verdi, cəsarətlənib bağlandı, bağlanandan sonra Allah ona ruzi verdi. Məncə, Xuraman düzgün demir. O bir biznesdir, adətdir, ruzidir".

## Məşhur Nəriman dayı qocalar evində

**Hər kəsin efirlərdən tamaşaçı kimi tanıdığı Nəriman dayıdan xəbər var.**



Adalet.az xəbər verir ki, bir müddət televiziyalarda tamaşaçı qismində iştirak edən Nəriman dayı kimi tanınan şəxs qocalar evinə yerləşdirilib. Bu barədə məlumatı Tiktoksosial şəbəkəsində fotoqraf paylaşıb. Qocalar evinə yerləşdirilən şəxs bildirib ki, pandemiya dövründə qatıldığı televiziya verilişində digər iştirakçılar onun barəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət ediblər və yaşlı kişini qocalar evinə yerləşdiriblər.

Əntiqə Kərimzadə

## Messi ilin ən yaxşı idmançısı seçildi

**PSJ-nin və Argentina millisinin hücumçusu Lionel Messi Beynəlxalq İdman Mətbuatı Assosiasiyası (AIPS) tərəfindən 2022-ci ilin ən yaxşı idmançısı seçilib.**

Qol.az xəbər verir ki, səsvermədə dünyanın 113 ölkəsindən 420 jurnalist iştirak edib. Messi respondentlərin 962 (25,45%) səsini toplayıb. Armand Duplantis (atletika, 373 səs) 2-ci olub. PSJ-nin və Fransa millisinin oyunçusu Kilian Mbappe (366 səs) 3-cü pillədə qərarlaşıb.

**Xatırladaq ki, Messi bu il Argentina millisinin tərkibində dünya çempionu olub.**



# Bu ilin 10 ən bahalı transferi

**Transfermarkt İnternet portalı 2022-ci ilin ən bahalı 10 transferinin siyahısını elan edib.**



**Qol.az xəbər verir ki, yola salmağa hazırlaşdığım ilin ən bahalı transferi "Ayaks"dan "Mançester Yunayted"ə keçən 22 yaşlı Antoni olub. İngilis klubu braziliyalı hücumçu üçün Amsterdam təmsilçisinə 95 milyon avro təzminat ödəyib.**

**2022-ci ilin ən bahaı 10 transferi**

**1. Antoni ("Ayaks"dan "Mançester Yunayted"ə - 95 milyon avro).**

**2. Duşan Vlahoviç ("Fiorentina"dan "Yuventus"a - 81,6 milyon).**

**3. Uesli Fofana ("Lester"dən "Çelsi"yə - 80,4 mln).**

**4. Orelyen Tçuameni ("Monako"dan "Real"a - 80 mln).**

**5. Darvin Nunyes ("Benfika"dan "Liverpul"a - 80 mln).**

**6. Kazemiro ("Real"dan "Mançester Yunayted"ə - 70,65 mln).**

**7. Aleksander İsak ("Real Sosyedad"dan "Nyukasl"a - 70 mln).**

**8. Matteys de Liqt ("Yuventus"dan "Bavariya"ya - 67 mln).**

**9. Marko Kukurelya ("Brayton"dan "Çelsi"yə - 65,3 mln).**

**10. Erlinq Holand ("Borussiya" Dortmunddan "Mançester Siti"yə - 60 mln)**


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 111
Çapa imzalanmışdır: 30.12.2022